## *Diyallı var ikən…*

İstəkli oxucu! Bu yazını başladığım günə qədər mən sifarişli yazılara və kitablardakı ön sözlərə çox pis baxmışam. Birincisində istedada, ilhama qarşı zorakılıq, ikincisində isə kitabı onun doğura biləcəyi mənfi rəydən sığortalamaq cəhdi, zorən sevdirmək arzusu görmüşəm. Ancaq son telefon zəngi ilə bu təsəvvürüm toza dönüb dağıldı. Rayon qəzetinin əməkdaşı, kəndimizin yanar ürəyi, qeyrətli qızı Lətifə xanım Əliyeva sənin oxumaq üçün açdığın bu kitaba ön söz və kəndimiz haqqında şeir yazmağı məndən xahiş etdi. Ürəyimdə nəsə lərzəyə gəldi. Söhbətimiz bitməmiş əlim dəftər- qələmə tərəf uzandı və haradansa mənə pıçıldanan şeirin ilk misralarını yazmağa başladım. Dalısınca sifarişli ön sözü yazmağa girişdim. Və bu sifariş mənə ürəyimi neçə gündən bəri göynədən ağrını səngitmək üçün tapa bilmədiyim bir çarə oldu.

Budur, stolumun üstündə üç gün əvvəl bizə - müəllimlərə sırınan, mənə əzab verib yuxumu qaçıran bir kitab – "İsmayıllı toponimləri". Etiraf edim ki, bu kitabın məziyyətləri az deyil. Ancaq Diyallı kəndinin adı ilə bağlı qeydlər bu məziyyətləri mənim üçün heç eləyib. Həmin kitabın 38- ci səhifəsində hibrid toponimlər haqqında danışılarkən deyilir: "Diyallı kəndi – "di" tat dilində iki, "yal" sözü isə Azərbaycan dilində sırt, təpənin üstü mənasındadır". 79- cu səhifədə isə bu fikir bir qədər geniş şəkildə təkrarlanır. Daha heç nə…Füzuli demiş: "Heyrət, ey büt…"

Belə-belə işlər…Mən isə elə bilirdim ki, toponimika folklor deyil. Amma axı deyirlər ki, toponimləri tədqiq edənlər onlar haqqındakı bütün yozumları qeydə almalı, son dərəcə diqqətli olmalıdırlar. Sonra hansı yozumun həqiqətə daha yaxın olduğunu göstərməlidirlər.

Diyallı oykoniminin dörd yozumu var. Onlardan ikisi sadəlövh, yumşaq desək, zarafat xarakterlidir. İkisi isə tarixi həqiqətlərə daha yaxın görünür, kitabda bu yozumlardan yalnız



birinin, həm də gülməlisinin verilməsi təəssüf doğurur. Axı Diyallıda nə vaxtsa bircə tatın da yaşaması məlum deyil, həm də bu regionda (İsmayıllı ərazisində) tatlar nə vaxtdan məskunlaşıb və nə qədər yayılıb ki, onların dili köklü, hakim azəri türklərinin qədim məskənlərinin adları üçün baza ola bilsin?!

Kitabdakı digər toponimlərin yozumu hansı səviyyədədir, deyə bilmərəm, ancaq Diyallı ilə bağlı yozum kənd ziyalılarında haqlı narazılıq yaradıb. Aşıq Abbas belədə deyib: "Bir könülə dəydin, yüz qan eylədin"

Toponimika elə bir elmdir ki, burada ağıza gələni də yazmaq olar, tarixi həqiqətə uyğun olanı da. Gərək tədqiqatçı dəmir çarıq geyib hər eli, obanı gəzsin, yerli əhalidən hər cür yozumları qeydə alsın, sonra bunları saf - çürük etsin və ilaxır. Bax elə ön söz yazdığım bu kitabdakı kimi.

Diyallı adındakı ilk hissəni "dü" sözü ilə bağlasaydılar, yenə dərd yarı olardı. Axı, fars dilindən dilimizə xeyli söz keçib. O, böyük və geniş yayılmış bir dildir. İndi ki nə gəldi yazmaq olur, istəyirəm mən də təptəzə bir yozum təklif edim. Niyə Diyallı sözünü qədim yunan dili ilə əlaqələndirməyək? Axı o dildə də "di" iki deməkdir. Düzdür, burada bircə yunan da yaşamayıb və yaşamır (elə tatlar kimi). Ancaq bu dil daha geniş təsir dairəsinə malik olub. Üstəlik elə bir dil tapmaq çətindir ki, orada yunan sözləri olmasın.

Mən daha çox öz kəndimizin tanınmış ziyalılarından inciyirəm. Axı onlar nə vaxt həyatları üçün borclu olduqları bu kəndin təəssübünü çəkəcək, onu hər cəhətdən olduğu kimi tanıtmağa çalışacaqlar? Mən üzümü onlara tutub demək istəyirəm: heç kim bizi-bizdən yaxşı tanıya bilməz, heç kim də kəndimizi olduğu kimi nə ürəyinə, nə də kağıza köçürə bilər. Şübhəsizdir ki, biz yazmasaq da, başqaları gec- tez Diyallıdan da yazacaq, onun sakinlərindən də. Amma biz yadın yazısında özümüzə yad görünəcəyik: Diyallı sözünün tat dilində yozumu kimi. Günahkar isə yalnız özümüz olacağıq. Axı niyə zaman-zaman başqa kəndlərə, hətta rayonlara elm, hikmət nuru yayan bir kənd indi özünü işıqlandıra bilmir?

Hörmətli elmlər doktorları, namizədləri və ziyalılar! Diyallının nemətləri ilə pərvəriş tapanlar! Diyallı evlərində oxunmuş laylalarla böyüyənlər! Biz öz kəndimizi də layiqincə tanıda bilməsək, daha kimə lazımıq, nəyə gərəyik?! Diyallı gerçəklərini biz üzə çıxarmasaq, başqalarının bizim haqqımızdakı uydurmalarını oxumalı olacağıq. Keçmişimizi və bu günümüzü donuqlaşmış güzgüdəki kimi əyri görəcəyik.

Hər biriumizin ayrı taleyi, ayrı marağı, ayrı qayğıları var. Amma hamımızın kökü bir, ulu anası birdir. O kökdən nə qopmaq olar, nə qaçmaq. Diyallı bizim ümumı şərəfimiz, vicdanımız, keçmişimiz və bu günümüzdür. Əfsus ki, biz keçmişimizi pis bilirik. Amma ən acınacaqlısı odur ki, bu günümüzü keçmişimizdən də pis bilirik. Hər tərəfə səpələnmiş Diyallı övladları nə bir-birini yaxşı tanıyır, nə də doğma kəndini. Elə buna görə kənd də onları tanımır.

Bu sətirlərdən sonra mütləq soruşanlar tapılacaq ki, bəs sən özün kəndini tanıtmaq üçün nə etmisən? Demək olar ki, heç nə! Mən Diyallı haqqında öyrənə bildiklərimi çoxdan yazmağa başlamışdım. Amma kəndin tarixi barədə rayon qəzetində dərc olunan yazılarım (bunlar kitabda verilir) sükutla qarşılandı, səsimə səs verən olmadı. O zaman rayonda işləyən arxeoloji ekspedisiyanın rəhbərini min bir ənvayi - müsibətlə kənddəki qədim qəbristanlığa gətirdim. O üzdəki maddi abidələrlə ötəri tanışlıqdan sonra məsləhət gördü ki, mən filan idarələrə gedim, ərizələr yazım, sübutlar göstərim, xahişlər edim. Hər şey bir tərəfə, kim idi yuxarı elmi dairələrdə adi bir müəllimə qulaq asan? Bu işi yaxşı götür - qoy edib anladım ki, belə qoçaqlığa nə məndə hünər var, nə vaxt, nə də... Yorğan çox qısa olanda tamam bükülməkdən başqa hansı çarə var?! Demə, mənimki elə sinif imiş! Bu kəndin qoçağı elə mənim kimi olarmış!

İndi şərait tamam dəyişib. Hərə öz kəndini, şəhərini tanıtmaq üçün qələm götürüb kitab bağlayır. Mən onların müəlliflərini alqışlayıram, çünki ürəklərində yurd eşqi, torpaq məhəbbəti çox güclüdür. Elə kitabları görəndə hər dəfə Hadisəyaği təəssüflənirəm: "Yox kəndimin kitabı kitablar



içində". Bəs Diyallı kimi ulu bir kəndin ziyalıları nə fikirləşirlər? Siz bu ana kəndə borclu deyilsinizmi? "Qaytarın ana borcunu!" Onu yaman yubadırsınız!

İndi əlinizdə tutduğunuz bu kitabı oxuyanda fikirləşəcəksiniz ki, bəs filan - filan şeylərdən niyə yazılmayıb? Bəs mən belə, atam, babam belə...Filan faktlar da yaddan çıxıb və sair və ilaxır. O zaman özünüzdən incisəniz, daha yaxşı olar, çünki kənddə sizi bundan artıq tanıyan yoxdur, filan faktlar da bu kitaba həyat verənlərə məlum deyil. Di buyurun, hərəniz bir qaranlığa işıq salın.

Mən Diyallı haqqında ilk kitabın məziyyətlərindən danışmaq fikrində deyiləm. Bax bu bağ, bu da onun bənövşəsi. Bu səma, bu da onun Dan ulduzu. Bircə onu deyim ki, qədirbilən oxucu bu kitabla tanışlıqdan unudulmaz bir zövq alacaq, bir sıra qiymətli faktları öyrənib qürur hissi duyacaq. Bu kitab göz açıb gördüyünüzdəki çoxlu görmədiyinizi Sizə göstərəcək.

İlk kitab həmişə ilk təcrübə olur. Amma biz mütləq bu kitabın bütün əziyyətini çəkmiş, onu indiki vaxtda ən məzmunlu şəkildə ərsəyə gətirmiş, bu cəfaya dözə-dözə ömrünün şirin bir parçasını şam kimi əritmiş Lətifə xanıma alqış deməliyik. Nə yaxşı ki, Diyallının onu həqiqətən sevən, ona pərvanə olan belə bir ziyalı qızı var imiş!

Hər şeyi heç kim bilmir. Birini sən bilirsən, birini o, birini də mən. Sənin,onun nəyi bilib, nəyi bilmədiyini bilmirəm. Mənum tək bildiyim və aksiom kimi qəbul etdiyim isə budur: "Diyallı var ikən yer üzündə çox şəhərlər yox idi".

**Oqtay Fərzəliyev,**
**Diyallı kənd orta məktəbinin müəllimi**

Hörmətlı elmlər doktorları, namizədləri və ziyalılar! Diyallının nemətləri ilə pərvəriş tapanlar! Diyallı evlərində oxunmuş laylalarla böyüyənlər! Biz öz kəndimizi də layiqincə tanıda bilməsək, daha kimə lazımıq, nəyə gərəyik?! Diyallı gerçəklərini biz üzə çıxarmasaq, başqalarının bizim haqqımızdakı uydurmalarını oxumalı olacağıq. Keçmişimizi və bu günümüzü donuqlaşmış güzgüdəki kimi əyri görəcəyik.

Hər biriumizin ayrı taleyi, ayrı marağı, ayrı qayğıları var. Amma hamımızın kökü bir, ulu anası birdir. O kökdən nə qopmaq olar, nə qaçmaq. Diyallı bizim ümumı şərəfimiz, vicdanımız, keçmişimiz və bu günümüzdür. Əfsus ki, biz keçmişimizi pis bilirik. Amma ən acınacaqlısı odur ki, bu günümüzü keçmişimizdən də pis bilirik. Hər tərəfə səpələnmiş Diyallı övladları nə bir-birini yaxşı tanıyır, nə də doğma kəndini. Elə buna görə kənd də onları tanımır.

Bu sətirlərdən sonra mütləq soruşanlar tapılacaq ki, bəs sən özün kəndini tanıtmaq üçün nə etmisən? Demək olar ki, heç nə! Mən Diyallı haqqında öyrənə bildiklərimi çoxdan yazmağa başlamışdım. Amma kəndin tarixi barədə rayon qəzetində dərc olunan yazılarım (bunlar kitabda verilir) sükutla qarşılandı, səsimə səs verən olmadı. O zaman rayonda işləyən arxeoloji ekspedisiyanın rəhbərini min bir ənvayi - müsibətlə kənddəki qədim qəbristanlığa gətirdim. O üzdəki maddi abidələrlə ötəri tanışlıqdan sonra məsləhət gördü ki, mən filan idarələrə gedim, ərizələr yazım, sübutlar göstərim, xahişlər edim. Hər şey bir tərəfə, kim idi yuxarı elmi dairələrdə adi bir müəllimə qulaq asan? Bu işi yaxşı götür - qoy edib anladım ki, belə qoçaqlığa nə məndə hünər var, nə vaxt, nə də... Yorğan çox qısa olanda tamam bükülməkdən başqa hansı çarə var?! Demə, mənimki elə sinif imiş! Bu kəndin qoçağı elə mənim kimi olarmış!

İndi şərait tamam dəyişib. Hərə öz kəndini, şəhərini tanıtmaq üçün qələm götürüb kitab bağlayır. Mən onların müəlliflərini alqışlayıram, çünki ürəklərində yurd eşqi, torpaq məhəbbəti çox güclüdür. Elə kitabları görəndə hər dəfə Hadisayağı təəssüflənirəm: "Yox kəndimin kitabı kitablar



içində". Bəs Diyallı kimi ulu bir kəndin ziyalıları nə fikirləşirlər? Siz bu ana kəndə borclu deyilsinizmi? "Qaytarın ana borcunu!" Onu yaman yubadırsınız!

İndi əlinizdə tutduğunuz bu kitabı oxuyanda fikirləşəcəksiniz ki, bəs filan - filan şeylərdən niyə yazılmayıb? Bəs mən belə, atam, babam belə...Filan faktlar da yaddan çıxıb və sair və ilaxır. O zaman özünüzdən incisəniz, daha yaxşı olar, çünki kənddə sizi bundan artıq tanıyan yoxdur, filan faktlar da bu kitaba həyat verənlərə məlum deyil. Di buyurun, hərəniz bir qaranlığa işıq salın.

Mən Diyallı haqqında ilk kitabın məziyyətlərindən danışmaq fikrində deyiləm. Bax bu bağ, bu da onun bənövşəsi. Bu səma, bu da onun Dan ulduzu. Bircə onu deyim ki, qədirbilən oxucu bu kitabla tanışlıqdan unudulmaz bir zövq alacaq, bir sıra qiymətli faktları öyrənib qürur hissi duyacaq. Bu kitab göz açıb gördüyünüzdəki çoxlu görmədiyinizi Sizə göstərəcək.

İlk kitab həmişə ilk təcrübə olur. Amma biz mütləq bu kitabın bütün əziyyətini çəkmiş, onu indiki vaxtda ən məzmunlu şəkildə ərsəyə gətirmiş, bu cəfaya dözə-dözə ömrünün şirin bir parçasını şam kimi əritmiş Lətifə xanıma alqış deməliyik. Nə yaxşı ki, Diyallının onu həqiqətən şevən, ona pərvanə olan belə bir ziyalı qızı var imiş!

Hər şeyi heç kim bilmir. Birini sən bilirsən, birini o, birini də mən. Sənin,onun nəyi bilib, nəyi bilmədiyini bilmirəm. Mənum tək bildiyim və aksiom kimi qəbul etdiyim isə budur: "Diyallı var ikən yer üzündə çox şəhərlər yox idi".

**Oqtay Fərzəliyev,**
**Diyallı kənd orta məktəbinin müəllimi**

## *DİYALLIYA GEDƏN YOL İSMAYILLIDAN KEÇİR*

İsmayıllı rayonu müstəqil Azərbaycan Respublikasının tərkibinə daxil olan rayonlardan biridir, təbii gözəlliklərinə görə isə qədim Şirvan torpağının nadir incilərindəndir. Yaradan bu yerlərdən heç nə əsirgəməmişdir. Baş Qafqaz sıra dağlarının cənubunda yerləşən, gur sulu çayları, sərin meşələri, şəfalı bulaqları, min bir növ ağacı, çiçəyi ilə tanınan İsmayıllı şimaldan Quba, cənubdan Kürdəmir və Göyçay, qərbdən Qəbələ, şərqdən Ağsu rayonları ilə həmsərhəddir. Ərazisinin çox hissəsi dağlıq, az bir qismi isə dağətəyi və düzənlikdir. Ümumilikdə ərazisi 2064 kvadratkilometrdir.

İsmayıllı ərazisində tarixən Girdiman vilayətinə daxil olan çoxsaylı qədim yaşayış məskənləri var. Tarixçi alim Qafar Cəbiyevin yazdığına görə, müxtəlif vaxtlarda aparılmış arxeoloji tədqiqatlar nəticəsində sübut edilmişdir ki, İsmayıllı rayonunun əhatə etdiyi ərazidə insanların oturaq həyat keçirmələrinin tarixi ən azı 7000 ilə bərabərdir. Rayonun ərazisində olan çoxsaylı tarixi abidələr, qədim yaşayış məskənlərinin qalıqları, tarixi min illərlə ölçülən qəbiristanlar da bunun bir sübutudur.

Rayonun ərazisindəki qala və yaşayış məntəqələri dövrünə görə üç qrupa bölünür: Qalagah, Topçu, Buynuz, Talıstan (Cavanşir qalası), Xanagah (Qız qalası),Yekəxana ilk orta əsrlərə, Nüydi, Şamdlan orta əsrlərə, Qalacıq (Qasımxan qalası), Sulut (Fitdağ, Həramilər qalası) son orta əsrlərə aid edilir. Bunlardan Talıstan kəndi yaxınlığındakı Cavançir qalası və Xanagah kəndi yaxınlığındakı Qız qalası eyni dövrə- VII-VIII əsrlərə aid edilir. Məlumat üçün deyək ki, Qız qalasının XI-XII əsrlərdə yox, xeyli əvvəl, Cavanşir qalası ilə bir vaxtda inşa edildiyi Qafar Cəbiyevin son illər apardığı araşdırmalar nəticəsində təsdiqini tapmışdır("Xanagah qız qalası", "Girdiman" qəzeti, 31 iyul 2007-ci il). Basqal qəsəbəsindəki məscid və hamam (XVII əsr), Lahıc qəsəbəsi yaxınlığındakı



Girdiman qalası, Sulut kəndi yaxınlığındakı Fitdağ (hər ikisi XVIII əsr), Şirvanşahların yay iqamətgahı olmuş 40 otaq, Lahıc qəsəbəsindəki türbə (XIX əsr) və adını çəkmədiyimiz, çəkə bilmədiyimiz onlarla tarixi yer, qala İsmayıllını təkcə gözəlliklər yox, həm də abidələr diyarı kimi təqdim etməyə əsas verir.

1931-ci ilə qədər Göyçay və Girdiman çayları arasındakı ərazi – Diyallı kəndi də daxil olmaqla - Göyçay qəzasının, Girdiman çayından Şamaxıya qədər olan ərazilər Şamaxı qəzasının, Qalacıq, İstisu və Sumağallı kəndləri isə Şəki qəzasının tərkibində olmuşdur. 1931-ci il noyabrın 21-də İsmayıllı rayonunun təşkili barədə fərman verilir, lakin İsmayıllıda inzibati idarələri yerləşdirmək üçün binalar olmadığından rayon mərkəzi Basqalda yerləşir. 1933-cü ilin payızında mərkəz İsmayıllıya köçürülür. 1959-cu ildə İsmayıllıya şəhər tipli qəsəbə, 1967-ci ildə isə şəhər statusu verilir.

Hazırda İsmayıllıya 1 şəhər, 2 şəhərtipli qəsəbə - Lahıc, Basqal və 105 kənd daxildir. Əhalisi 80 min nəfərə yaxındır. Burada müxtəlif millətlərin nümayəndələri yaşayır. Əhalinin böyük əksəriyyətini azəri türkləri təşkil edir. Hapıtlar, ləzgilər, malakanlar, yəhudilər, tatlar isə rayonun bir neçə kəndində məskunlaşmışlar.

Rayonun ərazisi əsasən dağlıqdır. İqlim dağlıq ərazilərdə soyuq, dağətəyi və düzənlik hissədə isə mülayim isti keçir. Ümumiyyətlə, Allahın bəxş etdiyi 11 iqlim qurşağından 5-nə İsmayıllıda rast gəlmək olur. Rayon öz zəngin fauna və florası ilə seçilir. Məhz elə buna görə də akademik Həsən Əliyevin təşəbbüsü ilə ötən əsrdə rayon ərazisində İsmayıllı Dövlət qoruğu yaradılmışdır. Bu qoruq fauna və floranın qorunmasına xidmət edirsə, az sonra yaradılmış Lahıc və Basqal Dövlət qoruqları tarixi abidələrlə zəngin olan bu qəsəbələrin mühafizəsi üçündür.

İsmayıllı kənd təsərrüfatı rayonudur. İqtisadiyyatında taxılçılıq, heyvandarlıq, meyvəçilik və son illərdə yenidən dirçəldilən üzümçülük mühüm yer tutur. Bir vaxtlar suvarma

məqsədilə yaradılmış Yekəxana və Aşıqbayramlı su tutarlarında bu gün balıqçılıq inkişaf etdirilir, ancaq ümumilikdə İsmayıllı respublikada taxılçılıq rayonu kimi tanınır.

Ötən əsrin səksəninci illərindən başlayaraq İsmayıllıda çox böyük inkişaf getmişdir. 1981-ci ildə görkəmli siyasətçi Heydər Əliyevin dalbadal iki dəfə rayona gəlişi İsmayıllının həyatında çox şeyləri dəyişdirdi. Və nəticədə ötən əsrin 80-90-cı illərində İsmayıllıda çox böyük tikinti-quruculuq işləri aparıldı. Rayon mərkəzində onlarla hündürmərtəbəli yaşayış evləri, inzibatı binalar, xəstəxana, poliklinika binaları, müasir tipli mədəniyyət evi və məktəblər, yeni tipli kitabxana binaları, 15-dən çox kənddə müasir tipli məktəb binası və mədəniyyət evi tikildi. Əsrlərlə can alan Girdiman çayı o gəlişdən sonra nəhayət ki, kəməndə salındı – çay üzərində Heydər Əliyevin şəxsi təşəbbüsü ilə nəhəng körpü salındı. Lahıc qəsəbəsinə yol çəkildi. Və ən əsası İsmayıllının Bakıya çıxışını asanlaşdıran İsmayıllı - Muğanlı yolu tikilib istifadəyə verildi. Beləcə, uzun onilliklərin işi bu böyük insanın qayğısı sayəsində çox az vaxtda həyata keçirildi və İsmayıllı bunun sayəsində illəri qabaqlaya bildi. Son bir ildə rayonda tikinti abadlıq işləri sahəsində o dövrün canlılığı hiss olunur. Və təbii ki, kəndlər də bu inkişafdan geri qalmır. Düzdür, bu günün tələbi tamam başqadır, cəmiyyət bazar iqtisadiyyatının qanunları ilə yaşayır, ancaq hər halda yaşayır və özü də getdikcə nisbətən daha yaxşı yaşamağı öyrənir.



## Vətənin başladığı ünvan

***...Yox,Vətən söyləmirəm təkcə daşa, torpağa mən.***
***Vətənin timsalıyıqsa bizik hər yerdə Vətən.***

Mənim üçün Azərbaycan adlanan bu böyük, ulu diyar, doğma, müqəddəs Vətən doğulduğum evdən, kol çəpərli o həyətdən, şişmə daşları diz dağıdan o kənd yollarından başlayır. Amma... tikanlı sərhədlərdə bitmir. Bitə də bilməz, çünki Vətən sevgisi ölçüyə gəlməz, hüduda sığmaz bir sevgidir, dünyanın özü boydadır, bitməz, tükənməz. Və bu dünya sevgimdən doğülüb boya-başa çatdığım, daşına, kəsəyinə yüz yol qurban kəsilməyə hazır olduğum Diyallının payına nə qədər düşür deyə bilmərəm. Amma onu yəqin bilirəm ki, bir gün iraqlar olsun, mənim bu balaca kəndim olmazsa bu dünyaca sevgim də olmaz, bitər, tükənər özümlə birlikdə. Axı, Diyallı mənim əzəlimdi, sonumdu, əzizlərimin doğulduğu, uyuduğu məkandı, qismət olsa son beşiyimdir.

Diyallını mənə bu dərəcədə sevdirən ilk öncə canım anamın dilindən süzülən bal dadan laylalar olub. Palıd gövdəli, palıd vüqarlı atamın, bir dəstə çiçəyi andıran çiçək nənələrimin, mənə "ana" və "Vətən" sözləfini yazmağı öyrədən Cəfəralı müəllimin kəndimiz və Azərbaycanımız barədəki sevgi dolu söhbətlərindən yoğrulub Vətən sevgim, kəndimə məhəbbətim. Bircə yol Diyallıya gəlsəniz, diş göynədən bulaqlarından içib, havasından udsanız Siz də mənim kəndimi sevərsiz.

Böyük Qafqaz sıra dağlarının kəndə qahmar çıxan cənub ətəklərinə baş qoyan, kürəyini sal qayalara söykəyən, günçıxardan qismən Əyri çayın, günbatardan Sirsaq çayının əhatəyə aldığı, Həzrət çayının ikiyə böldüyü Diyallı iki yal arası boyunca uzandıqca-uzanıb gedir. Yaradan bu yerlərdən heç nə əsirgəməyib: uca dağlar, gur sulu çaylar, buz bulaqlar, sərin meşələr, hər növ ağac, yüzlərlə dərdin dərmanı olan min bir gül - çiçək və ən əsası, mehriban, işgüzar, qeyrətli insanlar.

Deyilənlərə görə, Diyallı tarixin hansısa dönəmində bundan qat - qat böyük olmuşdur. Kəndin uzunömürlüləri siyahısına düşmüş, bir əsrdən artıq ömür sürmüş rəhmətlik Valeh baba danışarmış ki, kənd dağıdılana qədər indiki şosse yolundan ta Kart-kart qayanın ətəyinə qədər uzanıb gedirmiş. Hansısa şah Azərbaycana hücumu zamanı Diyallını dağıdıb yerlə yeksan etmişdir. "Ellər abadan, Diyallı xaraba" deyimi də məhz bu hadisə ilə əlaqələndirilir. Bu günkü Diyallı, habelə eyni nümayəndəliyə daxil olan Sədiyan və Güyüm kəndləri də həmin hadisədən sonra yenidən salınmışdır. Ümumiyyətlə, eşidib bilənlərin dediyinə görə, Diyallı müxtəlif basqınlar və müharibələr zamanı 3 dəfə tamam dağılmış və yenidən dirçəlmişdir.




Tanrıya milyonlarca dəfə şükür olsun ki, tarix bu mənada təkrarlanır və XXI əsrin Diyallısı yenə vaxtilə Şəki yolu adlanan, indi isə daha çox İsmayıllı - Muğanlı yolu kimi tanınan yoldan başlayıb ta dağların ətəyinə qədər uzanıb gedir. Yuxarı Diyallı və Sədiyan ilbəil Diyallı kəndinə daha da yaxınlaşır. Kənd həm də eninə böyüyür.



İsmayıllı şəhərindən 8 km şimal-şərqdə Böyük Qafqaz sıra dağlarının ətəklərində, dəniz səviyyəsindən 740-950 metr yüksəklikdə, Həzrət çayı (ərəb sözü olub "böyük çay" kimi açıqlanır) ilə Sirsax, ya da Sirsaq (sirli-ax, ya da təbiətinə uyğun olaraq cərcaq) çaylarının əhatəsində yerləşən, Təzəkənd, Quşencə və Talıstan kəndləri ilə qonşu olan Diyallı cənubdan Alazan - Həftəran vadisinin cənub - şərq qurtaracağı olan düzən sahə və Acınohur ön dağlığının Qaraquş (Qaraquş-an türk tayfasının adından) tirəsi ilə sərhədlənib. Bu sərhədlər daxilində onun sahəsi 40,22 kvadratkilometrdir. Ərazisindəki toponimlər bu yerlərdə ta qədimdən türk tayfalarının yaşadığından xəbər verir. Məsələn, Qaraman (qaranlıq meşə), Qaraquş (Qaraquşan türk tayfası), Şiro (gilli su), Bədo (pis iyli su) toponimlərinin də bu mənada yaşı çox qədimlərə gedib çıxır.

Diyallı barədə Azərbaycan Sovet Ensiklopediyasında belə bir məlumat gedir:

"Diyallı – Azərbaycan SSR İsmayıllı rayonunda kənd. Diyallı Sovetliyinin mərkəzi. R-n mərkəzindən 10 km. ş-də Əyriçayın sahilindən (Göyçayın qolu) 4 km aralı, İsmayıllı - Şamaxı şosse yolu kənarında, Niyaldağ silsiləsinin ətəyindədir. Əhalisi 1245 (1977) (hazırda isə 2081 nəfər–**L.Ə.**); Əhalisi heyvandarlıq, taxılçılıq və meyvəçiliklə məşğuldur. Orta məktəb, kitabxana, mədəniyyət evi, tibb məntəqəsi, rabitə şöbəsi və s. vardır. Yay aylarında yaxın rayonların pionerləri burada dincəlir. Diyallıda heyvandarlıq kompleksi tikilir (1978)".(ASE, III cild, səh. 448).

Diyallı istər bu məlumat kitabında göstərildiyi kimi sovetlik olanda, istərsə də bu gün icra nümayəndəliyi kimi Diyallı, Güyüm, Sədiyan kəndlərini əhatə edir. Tarixin bir dönəmində Diyallı bu kəndlərlə birlikdə Təzəkənd, çox az bir müddət isə Qoşakəndlə eyni sovetlik olmuşdur. Kolxoz dövründə isə Gəndov və Köhnədaxar kəndləri də Diyallı ilə bir təsərrüfatda birləşmişdi. Hazırda isə Diyallı icra nümayəndəliyi sənədlərdə 3, kəndin özündən baxdıqda isə 4 kəndi əhatə edir: Diyallı, Güyüm, Sədiyan və Yuxarı Diyallı. Sonuncuda evlərin sayı barmaqla sayılası qədər az olduğundan bu balaca dağlar gözəlini bütün

məlumatlarda Sədiyanla birləşdirirlər. Ancaq Yuxarı Dıyallı bu günkü qaydada inkişaf etsə, inşallah, yəqin ki, lap yaxın gələcəkdə bu kənd də ayrıca vahidlik kimi nümayəndəliyə daxil olacaqdır.

Diyallı icra nümayəndəliyinin "baş kəndi" Diyallıdır. İcra nümayəndəliyi, kənd bələdiyyəsi, orta məktəb, tibb məntəqəsi, mədəniyyət evi, məscid bu kənddə yerləşir. Hazırda Diyallı kəndinin özündə 381 təsərrüfat vardır ki, bunlarda da 1409 nəfər yaşayır.

Kəndin ən böyük və ən gursulu çayı olan Həzrət çayı Diyallını iki yerə bölür. Çayın sağ sahilində yaşayanlar üçün sol sahil, sol sahildə yaşayanlar üçün isə sağ sahil "o tay"dır. Ancaq illər keçdikcə bu "o tay" daha çox çayın sol sahilinə - günçıxarına aid edilməyə başlayıb.

Diyallıda o taylı, bu taylı 26 məhəllə vardır. Bu taydakı ən iri məhəllələr, daha dəqiq desək kənd əhlinin süzgəcindən keçib, "status" alanlar bunlardır: Musalı, Əbilli, Balaşili, Nanıclı, Qasımlı, Şəmiuşağı, Ağaməmmədli, Kazımlı, Xınıslı, Orcalı, Şıxı, Məmmədalı uşağı, Baxışlı, Boz Muradlı, Hacıəzizli, Şərifli, Şuqqunlu.

Ötən əsrin altmış-yetmişinci illərində kəndin girəcəyində kolxozun (sonra isə sovxozun) vəsaiti hesabına xeyli taxta və daş evlər tikildi. Cağanlıq və Finskilər adlanan məhəllələr əsasən bu evləri və onların ətrafında son 15 -20 ildə tikilmiş evləri əhatə edir.

Məmmədalı uşağı məhəlləsinə el arasında o vaxtlar daha çox "Şadamlılar" deyərmişlər. Yəni şad adamların yaşadığı yer. Bu məhəllənin öz çalıb oxuyanları var imiş və Allahın ver günü axşam çörəyindən sonra Şadamlılar musiqi məclisi qurarmışlar. Güləhməd və Xanəhməd qardaşları zurnada, Əsgər isə nağarada çalarmış. Kəndə birinci dəfə gələnlər bu çal-çağırı toy zənn etsələr də yerli camaat buna artıq vərdişkar imiş. Hətta deyilənə görə, məhəllə də yas da olsaymış Şadamlılar "yas qapımızı almasın" deyib hüzrdən bir neçə gün sonra yenə çalğı məclisi qurarlarmış. Onu da deyək ki, uzun illər bu kəndlərin toy



məclislərində Güləhməd, Xanəhməd və Əsgər üçlüyü çalıb-çağırmışlar. Şadamlıların kişiləri pəhləvan görkəmləri, güclü qollarıyla da seçilərmişlər. Məsələn, Abduləziz Əziz oğlu hərəkət edən DT-75 traktorunu saxlayarmış, batan minik maşınlarını təkbaşına çıxararmış.

Artıq o şadlıq məclisləri də, mənəm-mənəm deyən o kişilər də "Şadamlılar" deyimi kimi tarix olmuşdur.

Kəndin 0,6 kvadratkilometr sahəni əhatə edən "O tay" deyilən hissəsində isə 7 məhəllə vardır: Məhəddinli, Qasımlı, Dəlləkli, Şəfili, Daşdəmirli, Seyidməmmədli, Baməmmədli.

O tay Yastı dağın ətəklərindən – Qızılgüllükdən başlayaraq ta Vahab bağınadək uzanıb gedir. 1989-cu ilin iyul - avqust aylarında burada güclü torpaq çökməsi baş vermişdi. Torpaq dağın dibi boyunca çökürdü, sanki dağ öz ətəyindən - o taydan qopub ayrılırdı. Çökmə düz xətt boyunca deyil, dalğavari gedir, kəndi eninə kəsib keçir və ara-sıra dayansa da bir müddət sonra yenidən fəallaşırdı. Bir neçə ay ərzində çökmə bütün o tayı əhatə edir. Onlarla yaşayış evi, kəndin bu hissəsində yerləşən və XIX əsrin yadigarı olan məscid, xeyli yardımçı binalar istifadə üçün yararsız hala düşür. Nəhayət, respublika geologiya istehsalat birliyinin hidrogeoloji ekspedisiyasının kəndə dəvət edilən mütəxəssisləri hadisə yerini öyrənib rəy verirlər ki, imkan daxilində kənd köçməlidir, ən azından çökmə zolağında olan evlər. Beləcə, tarixin bir dönəmində xeyli o taylı təbiətə təslim olaraq dədə-baba yurdundan kəndin bu tayına-Cağanlığa köçmək məcburiyyətində qalırlar.

Vaxtilə Diyallıda 6 su və bir elektrik dəyirmanı olmuşdur. Yaşlıların xatırladığına görə, su dəyirmanlarının əksəriyyətində su dingi də olmuşdur. Məhəmməd Nuğayevin, Qarakişi Həsənovun və Veysəlqara Məmmədovun işlətdikləri su dəyirmanları ötən əsrin 60-70-ci illərinədək qalmaqdaydı: işlək vəziyyətdə və ya dağılmış. İlk iki dəyirmanın harada olduğunu, necə işlədiyini, kimin işlətdiyini çox yaxşı xatırlayıram. Məhəmməd kişi ömür-gün yoldaşı Aşa arvadla növbəli işləyərdi. Və hər dəfə buradan ötüb keçəndə ayaq saxlayar, çak-çakın

qərib səsini dinləyər, qaş-gözləri belə ağappaq un olmuş qocalara nağıl personajına baxırmış kimi maraqla tamaşa edərdik. Veysəlqara kişinin dəyirmanı isə xeyli əvvəllər olub. Bu insanın yaxşı boy-buxunu, qəddi-qaməti və gözəl səsi də var imiş. Aşıq paltarı, saz ona xüsusi yaraşarmış və ara-sıra kənd məclislərində böyük şövqlə çalıb oxuyarmış.

Ötən əsrin 70-ci illərində kənddə elektrik dəyirmanı tikilir və bununla da su dəyirmanlarının novu birdəfəlik quruyur. İllərlə diyallıların evinin bərəkəti olmuş dəyirmanların kitabı, beləcə, bağlanır. Su dingləri də su dəyirmanları ilə birlikdə tarixə çevrilir. Evlərdə olan ayaq dinglərindən isə bu gün də işlək vəziyyətdə olanı vardır. İstər su dingini və istərsə də ayaq dingini düzəltmək elə də çətin deyildir. Bunu yerli ustalar özləri palıd, qoz və ya digər möhkəm ağaclardan hazırlayardılar. Haça, qol,ox, çala, döyəc-gövdə adlanan hissələrdən ibarət olan dingi düzəltmək üçün torpağa bir-birindən 50-60 sm aralı iki ağac basdırardılar. Ağacların torpağın üstündə qalan hissəsi 40-45-sm dan çox olmazdı və bu ağacın torpağın üstündə qalan hissəsinin ortasına dingin qolu keçirilmiş ox bərkidilərdi. Təqribən 1,8-1,9 metr uzunluqda olan qolun başına isə daşdan, bəzi hallarda isə dəmirdən ağız geydirilmiş döyəc bağlanardı. Bunlardan əlavə dənin tökülməsi üçün yarı torpağa basdırılmış ağacın içində dingin çalası olurdu. Onu da deyim ki, su dingindən, yarma daşından fərqli olaraq ayaq dingini işlətmək üçün ən azı iki nəfər lazımdır. Bir nəfər dingin üstündə olur, yəni taxılı və ya çəltiyi döyür, digəri isə ayaq tərəfdə oturaraq döyəcin kənara sıçratdığı dəni təkrar dingin çalasına tökür, eyni zamanda məhsulun hazır olub-olmadığına nəzarət edir.

İcra nümayəndəliyinə daxil olan ikinci kənd Güyümdür. Son dərəcə gözəl bir yaylada yerləşən, iki tərəfdən dağlarla əhatə olunan Güyümdən İlahi heç nə əsirgəməyib. Dağlar, meşələr, bulaqlar, təmiz hava və ən əsası, zəhmətsevər, diribaş insanlar. Min illər boyu kəndi hər tərəfdə tanıdan Bədov kükürdlü suyu da bu ərazidən qaynayıb çıxır.



Güyüm kəndində 45 təsərrüfat, 168 nəfər əhali vardır. Kənd yuxarı və orta məhəllə olmaqla iki məhəlləyə ayrılır. Yuxarı məhəllədə Kərimli və Tapıllılar, orta məhəllədə isə Həsənlilər və Eyyublular məskunlaşmışlar. Aşağı məhəllədə kənd məktəbi yerləşir.

Şadamlılardan sonra bir neçə il öncəsinə qədər Diyallı toylarında Güyümdən olan musiqiçilər çalardılar. "Zurnaçı Məhəmmədin dəstəsi" kimi tanınan bu dəstədə Məhəmməd Nuruyev və Novruzalı Hüseynov zurnada, Nizam Maqsudov isə nağarada çalardı.

Güyüm kəndindən gilli palçıq - şirə də çıxır. Və uzun illər həm Diyallının özündə, həm də ətraf kəndlərdə bu şirədən evləri ağartmaq məqsədilə geniş istifadə edilmişdir. Lap bu son vaxtlaradək Güyüm camaatı həmin şirədən kərpic formasında kəsərək rayon bazarında satardı. Yerlilərin dediyinə görə, onların əksəriyyəti ev-eşiyini, dirliyini məhz bu şirə sayəsində qura bilmiş, çörəyini uzun illər bu rəngli gildən çıxartmışdır. Hazırda buranın camaatı da hamı kimi dolanır: artıq şirə pula getmir.

Güyüm kəndində ibtidai məktəb fəaliyyət göstərir.

75 təsərrüfatı, 271 nəfər əhalisi olan Sədiyan və Yuxarı Diyallı kəndləri lap dağın ətəyində yerləşir. Sədiyanın Diyallıya baxan hissəsinə Sədiyan düzü deyirlər. Ancaq əslində bu düz elə dağın ətəyinə qədər gedir və kəndin yerləşdiyi sahəni də əhatə edir. Sədiyan Həzrət çayının sol, Yuxarı Diyallı isə sağ sahilində, çayın lap mənbəyinə yaxın yerdə yerləşir. Bu iki kənddə 7 məhəllə var, 6-sı Sədiyanda, biri isə Yuxarı Diyallıda. Sədiyandakı məhəllələr bunlardır: Sofu Surxay uşağı, Bayram uşağı, Qədirlilər, Hasilovlar, Əliyevlər, Şərifovlar. Yuxarı Diyallıda isə illər öncəsi Köhnədaxardan buraya köçmüş Həbib kişinin nəslindən savayı qalan hamısı bir nəslin – Fərzalı kişinin törəmələridir. El arasında da belə və ya Fərzalı kişinin oğlu Nəsrəddinin adıyla Nəsrəddin uşağı kimi tanınırlar.

Aradan nə qədər zaman keçsə də bu kəndlərdə kimsə hansı məhəllədən olduğunu unutmur və "kimlərdənsən" deyə soruşulanda hökmən birinci növbədə məhəlləsinin adını çəkir.

Sədiyan və Yuxarı Diyallı kəndləri meşələrin, bulaqların gur yerində məkan tapmışdır. Vaxtilə Sədiyan camaatı kürəbəndlə nə vaxtsa buraya çəkilmiş Sədiyan bulağının suyundan istifadə edərdi. Son illərdə isə kənddə evlərin və əhalinin sayı artdığından camaat yaxın dağlardan bir neçə bulağın suyunu da borularla kəndə çəkib gətirmişdir. Yeri gəlmişkən onu da deyək ki, Sədiyanın kürək söykədiyi bu dağlardan Muğanlı-İsmayıllı yolunun beş addımlığında olan yeni tikilmiş evlərə də su xətləri gedir.

Sədiyan kəndində də ibtidai məktəb vardır.

Balaca olmasına baxmayaraq Yuxarı Diyallını yaddaşlara yazan fərqli cəhətlər, əlamətlər vardır. Birincisi, Güyüm kəndindəki Bədov bulağından biri də burada qaynayır - Yuxarı Diyallı Bədovu. İkincisi, İkinci Dünya müharibəsinə Yuxarı Diyallı bir ailədən 6 oğul yola salmışdır və bu, nəinki Azərbaycanda, yəqin ki, keçmiş SSRİ miqyasında yeganə faktdır. Ən acınacaqlısı da odur ki, bu 6 oğuldan Nəsrəddin kişiyə qalan 6 "qara kağız" olmuşdur. Nəsrəddin kişinin oğlanları Eldar, İsmayıl, Ağaşirin, Nəzər və Hüseyn müharibə başlayandan sonra səfərbər edilərək cəbhəyə göndərilmişdilər. Ağadəmir Nəsrəddin oğlu isə müharibə başlayanda Leninqradda türmədə yatırdı (o, kənddəki M.C.Bağırov adına kənd təsərrüfatı artelinin anbardarı idi və yoxlama zamanı anbarda çatışmazlıq olduğuna görə həbs edilmişdi). 1943-cü ilin sonlarında Ağadəmiri də cərimə batalyonunun tərkibində cəbhəyə göndərirlər və bir müddət sonra onun da ölüm xəbəri gəlir.

Üçüncüsü, nəinki Diyallıda, habelə bu ətraf kəndlər arasında yeganə su çarxı məhz Yuxarı Diyallıda olmuşdur. Xası Fərzalı oğlu bu çarxda o hər növ kəsici alətləri itiləməklə yanaşı, ağacdan nöbənöv taxta əşyalar – təknə, tabaq, nənni-beşik, çömçə, qaşıq, kürək, bel, daha nələr, nələr düzəldərdi. Orta məktəbdə oxuyanda fizika müəllimimiz olan atam sinif



uşaqlarını buraya ekskursiyaya gətirmişdi və dişli çarxların işləmə prinsipini məhz orada əyani şəkildə bizə başa salmışdı.

Son illərdə taxta qaşıqlar yenidən işlənməyə başlayıb, ancaq bu kənddə taxta qab-qacaq həmişə dəbdə olub. Lap bu yaxın illərədək Diyallı qadınları xəmiri ağac təknədə yoğurar, hazır çörəyi onda saxlayar, qaymağı taxta tabağa tökər, yeməyi taxta çömçə ilə bişirərdilər. Bu günün özündə də burada elə bir ev tapmazsan ki, orada Xası babanın və ya sonralar xeyli vaxt bu işlə məşğul olmuş Sədiyan sakini Əhməd Camal oğlunun əlinin məhsulu olan belə taxta qablar olmasın.

Bizim analar taxta təknədə yoğurduqları xəmiri çör-çöplə, bizim öz sözümüzlə desək, beşlə isidilmiş təndirə yapardılar. Təndir çötəyinin dadı, ləzzəti, bərəkəti tamam özgə cür olurdu. Ulu Şəhriyar demiş:

***Təndirlərin qovzanardı tüstüsü,***
***Çörəklərin gözəl iyi, istisi.***

Orucluq və Novruz bayramlarında, toy-nişanda isə şorqoğalı, badı bişirmək üçün xipidən istifadə edərdilər. Bəlkə bu günkü oxucuya xipi tanış gəlməyəcək, çünki indi hər evdə elektriklə işləyən və istənilən növ çörək, qoğal bişirməyə imkan verən soba vardır. Xipinin isə adı kimi özü də yaddaşlardan silinmək üzrədir. Xipidə bizim analar qoğal bişirərdilər və elə onun özünü də qadınlar düzəldərdilər. Xipi adi torpaqdan deyil, təndir qoymaq üçün işlədilən at və ya keçi tükü qatılıb, qıcqırdılmış xüsusi palçıqdan hazırlanardı. Üzərində 5 və ya 6 qoğalın yerləşəcəyi boyda dairəvi palçıq kütləsi xeyli vaxt qurudular, sonra vam odda bir müddət bişirilərdi ki, qoğalı ona yapanda arxasına torpaq yapışıb qopmasın. Bəzi evlərdə xipinin arxasına elə torpaqdanca bir dirsək də əlavə edərdilər. Hazır xipini ocağın kənarına azacıq maili qoyardılar, elə edərdilər ki, ocağın odu xipiyə yapılmış qoğalları vursun. Beləcə, nə qədər yağlı olsa da qoğal oradan qopub odun üzərinə düşməzdi. Əvvəllər Güllü nənəm, sonralar isə anam çox tez-tez xipidə qoğal bişirərdilər,

bayram oldu-olmadı. İndi kim bişirir, necə bişirir- bişirsin, mənə elə gəlir ki, o dadı vermir, o dərəcədə ətirli olmur. Bəlkə mənə elə gəlir, nə bilim... Söhbət torpaqdan düzəldilən alətlərdən düşmüşkən elə həmin təndir torpağından hazırlanan gillədən də söz açmaq istərdim. Gillə də tük qatılıb, qıcqırdılmış palçıqdan hazırlanardı. Uzunluğu təqribən 20-25 sm. hündürlüyü 4-5 sm. olan uzunsov formalı bu qəliblər təndirdə meyvə qurutmaq üçün işlədilərdi. Xanadmudu, mirzəmmədcırı, şirvanşahı və cireyxanın istər gillədə, istərsə də ipə düzülüb təndirdə qurudulanı çox ləzzətli olardı. Qış aylarında bunlar qoz ləpəsi ilə yanaşı çərəz süfrəsinə qoyulardı.

Toylarda isə... Diyallının nişan və toyları ayrı bir dəsgah olurdu. Bir neçə gün əvvəldən qız-gəlin bir yerə yığışıb kisə-kisə unun çörəyini bişirərdilər - həm təndirə,həm saca. Özü də bütün kənd camaatına bəs edəcək qədər çörək bişirilərdi.. Elə toya da bütün camaatı dəvət edərdilər. Oğlan anasının boynuna qırmızı kələğayı və ya parça bağladığı atlarda çapan cavanlar kəndi qapı-qapı gəzər, camaatı toya çağırardılar. O zamanlar bizim Diyallıda böyük nişan deyilən bir məclis də var idi ki, ona da bütün camaat dəvət olunardı. Bu məclis bir gün olsa da toy ən azı iki gün çəkərdi, hazırlıq isə təbii ki, bir aya yaxın vaxt apardı. O vaxtkı toylara xanəndə ilə yanaşı aşıq da dəvət edilərdi. Gündüzlər əsasən xanəndə oxuyardı və o saatlarda mağarda əyləşib dinləyənlər də, oynayanlar da, şabaş verənlər də əsasən, gənclər olardı. Axşam isə meydan aşığa və bir az yaşlı adamlara verilərdi. Əksər hallarda camaatın gur olduğu saatlarda aşıqla xanəndə arasında çox şirin deyişmə səhnələri olardı ki, bu da cavanlara daha çox ləzzət verərdi. Ancaq kənardan nə qədər çalıb-oxuyan, oynayan gəlsə də diyallılara zurnaçı Məhəmmədin dəstəsinin çalğısı, Veysəlqara Məmmədovun aşıq havaları, ixtisasca ədəbiyyat müəllimi olan, gözəl səsiylə toylara ayrı bir rəng qatan Hüseyn Muradovun şirin zəngulələri, Ağaverdi Hacıyevin son dərəcə məharətlə ifa etdiyi "Qoçəli", qoluqırmızılı toybəyiləri Zinhar Əsgər oğlunun və Zabit Araz oğlunun toy qayda-qanunları daha xoş gələrdi.



Diyallılar həmişə toyda və yasda birlik, mütəşəkkillik göstərməyi bacarmışlar. Diyallı camaatı adəti üzrə yas mərasimlərində bir nəfər kimi iştirak edər, yas sahibindən bacardıqları köməyi əsirgəməz, hüzr sahibinə gənəşmədən dəfn üçün lazım olan bütün işləri təmənnasız görərlər. Burada qəbir təmənnasız qazılar, ölü pulsuz yuyular. Bu da faktdır ki, lap bu son illərədək şəhər mərkəzi də daxil olmaqla bütün ətraf kəndlərin ölülərini yerdən Diyallı mollaları götürərdilər. Bütün bunlar bir tərəfdən diyallıların yüksək insani keyfiyyətlərindən irəli gəlirsə, digər tərəfdən kənddə islam qayda-qanunlarının möhkəmliyindən doğur. Və bu, tarixən belə olmuşdur. Hətta Sovet hökuməti illərində belə burada Orucluq bayramı digər bayramlardan daha təntənə ilə qeyd olunardı. Bayrama bir neçə gün qalmış evlər şirələnib təmizlənər, həyət-baca səliqəyə salınardı. Bayram axşamı qazan asılar, növbənöv xörəklər, qoğal, fətir bişirilər, halva çalınardı. Bayramın birinci günü camaat dəstə-dəstə kəndi gəzər, ilk növbədə yaşlılarla bayramlaşar, xəstələrin könlünü alar, ötən bayramdan bu yana hüzrü düşənlərə bir daha başsağlığı verib dərdlərinə şərik çıxardılar. Onu da deyək ki, bizim kənddə əvvəllər Orucluq bayramında bu gün "qara bayram" deyilən bir gün,bir məfhum olmamışdır. Atam söhbət edərdi ki, bayramlaşmaq üçün küçələrə çıxan insanlar yas sahiblərinin qapısı ağzında ayaq saxlayar və elə oradaca başsağlığı verər, bayramlaşar və xeyirli illər, xeyirli bayramlar arzulayıb yollarına davam edərmişlər. Qarabayram deyilən bir yas məclisi Diyallıda ötən əsrin ikinci yarısından adət şəklini almışdır. Və keçən orucluq bayramından bu yana hüzrü düşənlər qarabayramda üçdə, yeddidə, cümə axşamlarında və qırxda olduğu kimi gen-bol xeyrat verməsələr də ən azından bu ada halva bişirərlər.

Orucluq halvası adi undan yox, düyü unundan bişirilir. Bu un xeyli qabaqcadan ya dəyirmanda üyüdülər, ya dingdə döyülər, ya da yarma daşında-kirkirədə çəkilərdi. Bir neçə gün qurudulandan sonra ondan halva çalınardı. Balla bişirilən düyü halvası son dərəcə dadlı, ləzzətli olardı. Bu halva rayonun

özündə, habelə qonşu kəndlərdə hazırlanan halvalardan ilk növbədə dadına görə çox fərqlənir. Tərəfkeşlik kimi çıxmasın, Diyallı halvası halvaların şahıdır.

Diyallılar nişan məclislərinə də halva bişirərlər. Məcməyiyə, ya da tabağa basılmış halvanın üzərinə naxışlar vurular və qız evinə aparılardı. İndi artıq burada da düyü halvası çox bişirilmir. Çünki bu gün duyünü üyütməyin özü böyük problemdir, artıq dəyirmanlar yoxdur, ding tək-tük evdə qalıb, kirkirə də elə. Heç onları işlədə biləcək qolu zorlu qadınlar da daha yoxdur. Ancaq hər halda halva yenə bişirilir və öz adını,dadını, şöhrətini yenə saxlayır.

Orucluq bayramında bişirilən halvaya bizlərdə daha çox "ağ halva" deyilir, çünki burada "qara halva"da bişirilir. Adətən qış aylarında bişirilən bu halvanın da ikinci bir adı var: səməni halvası. Səmənidən, daha dəqiqi səməninin-göyərdilmiş buğdanın suyundan hazırlandığına görə belə adlanır. Səməni döyüb suyunu çıxarır və həmin sudan xəmir hazırlayıb onu vam odun üzərində aramsız qarışdıraraq bişirirlər. Bu, çox ağır bir prosesdir və ona görə də ağ halvadan fərqli olaraq bunu əsasən kişilər bişirirlər. Ən azından qarışdırmaq onların payına düşür. Onu da deyək ki, bu halvanı qonum-qonşu şərikli bişirir. Bəlkə də atalar "işləməyə də kömək lazımdır, yeməyə də" məsəlini elə qara halva üçün çəkmişlər. Bol ədva qatılan bu halvanın üzərinə tam hazır olandan sonra narın doğranmış ləpə də əlavə edilir. Bizim kənddə göyərdilmiş buğdanın suyundan səməni də bişirirlər. Niyəsini bilmirəm, ancaq səməni bişirəndə undan əlavə ona hökmən bir az qar da qatırlar. Adətən hansısa bir iş üçün niyyət edənlər ya səməni bişirib paylayardılar, ya da dingdə döyülmüş buğdadan hazırlanan südlü sıyıq. Bəzən isə paylamayıb qonum-qonşunu evə - "qazan yeməyə" çağırardılar. Bəlkə də bu ifadə, eləcə də səməni paylanması bu günkü oxucunun çoxuna qəribə, arxaik bir söz və adət kimi görünəcək. Bu da təbiidir, çünki son 20-30 ildə mən bu kənddə nə "qazan qaynadıldığını" eşitmişəm, nə də səməni bişirildiyini. Bəli, bunlar bir vaxtlar olub, indi yoxdur, ancaq hər halda heç olmazsa



adını bilməliyik. Yuxarıda bir ifadə işlətmişdim, "indi dingi, kirkirəni işlədəcək qolu zorlu qadınlar yoxdur" demişdim. Axı, deyəsən, o qollu zorlu qadınlar, pəhləvan cüssəli o kişilər, yanağından qan daman o kənd uşaqları unutmaqda olduğumuz bu milli yeməklərlə bərabər sıradan çıxır, tarix olur, arxaikləşirlər. Rəhmətlik Güllü nənəm hər növ ədva qatılmış quymağı ( bu gün az qala onun da adını dəyişib "zahı yeməyi" qoymuşuq və ancaq zahılara bişiririk), tut bəhməzi və camış yağıyla süfrəyə verilən xəşili, süddə bişirilən hay-hayı, sarımsaqlı qatıqla yeyilən xəngəli, elə yuxarıda adını çəkdiyimiz səməni, döyülmüş buğdadan və buğda yarmasından hazırlanan sıyığı, əvəlikli aşı ən qüvvətli yeməklər hesab edərdi. Soyuq qış günlərində isə bol nanə qatılmış umacı çox böyük dərman sayardı. Bəlkə elə "qazan qaynatmaq" ifadəsi o qazanda qaynayan təama-buğdaya, düyüyə olan ehtiramın əlamətidir?! Axı nə yemək bişirirsən bişir qazan qaynayır, ancaq "qazan qaynatmaq" deyiləndə bilənlər, bu ifadənin varlığından xəbəri olanlar o dəqiqə anlayırlar ki, söhbət nədən gedir. Görünür, nəyi yeniləşdirsək də, müasirləşdirsək də milli mətbəximizdə daha çox ehtiyatlı, daha çox anlayışlı olmalıyıq, illər, əsrlər keçsə də dəyişmədiyimiz danışığımız kimi.

Bəli,qonaqpərvərliyi, mehribançılığı, açıqürəkliliyi ilə seçilən Diyallı camaatının yalnız onlara xas olan fərqli danışıq tərzi- ləhcəsi vardır. Və bu fərq o dərəcədədir ki, hətta illərlə kənddən kənarda, lap böyük şəhərlərdə yaşayan diyallıların danışığında belə aydın hiss edilir. Rayon əhalisi, bu kəndlə az-çox təmasda olanlar, müvəqqəti butada yaşayanlar, bu kəndin adamları ilə müəyyən müddət ünsiyyətdə olanlar ilk görüşdən, ilk kəlmələrdən həmsöhbətinin Diyallı əsilli olduğunu ayırd etməkdə çətinlik çəkmirlər. Akademik Budaq Budaqova duyallıların qədim düyar tayfalarından olduğunu söyləməyə əsas verən faktlardan biri, daha doğrusu, birincisi elə bu spesifik danışıq tərzidir.

Biz diyallıların danışığında bəzi hallarda bir saitin digərinə keçməsi, iki sait arasında gələn samitlərin tələffüz edilməməsi və

əsasən "a" saitinin"ə" ilə əvəzlənməsi xarakterikdir. Məsələn, dovşan sözünü doşən, evə sözünü öyə, ya da üə, ova sözünü ua, tüfəng sözünü tüəng, buraya sözünü bıryə kimi tələffüz edirik. Və danışığımızdan, ləhcəmizdən qətiyyən narazı deyilik, çünki bu yalnız bizə-biz diyallılara məxsusdur, şəriksiz mal isə həmişə şirin olur.

Bəli, Diyallı dünəniylə, bu günüylə belə bir Diyallıdır. Ancaq biz bu dediklərimizlə kifayətlənməyərək Diyallı barədə bildiklərimizin, eşitdiklərimizin, gördüklərimizin hamısını yazacağıq. Ona görə ki, zaman gözləmir, tarix təkrarlanmır. Dünən bildiklərimiz, əgər yazılmayıbsa, bu gün artıq bizim deyil. Bax elə buna görə də bildiklərimizin hamısını yazmaq qərarına gəldik. Yazmaq bizdən, oxumaq isə... oxuyan da sağ olsun, oxumayan da.

Beləcə, ya Allah deyib yola çıxırıq, kəndimizin heç işıq tutulmamış qaranlıq keçmişinə üz tuturuq. Bu kəndin daşını qoyanların, ulularımızın ruhlarını köməyə çağıraraq əzəli-sonu görünməyən bir yolun yolçusu oluruq. Özü də arxeoloq, tarixçi kimi yox, sadəcə bir vətəndaş kimi, bir övlad, bir bala kimi.

Əlini ver, ANA YURDUM, sirrini, sözünü pıçılda,olub-olmuşunu, gəlib-keçmişini söylə, DOĞMA MƏKAN! Aç qoynunu, tarixini birlikdə çevirək, daş yaddaşını birlikdə vərəqləyək, görək haradan gəlib hayana gedirsən, AZƏRBAYCANA açılan pəncərəm mənim!



# Diyallının yaşı, tarixin daş yaddaşı

## *Yaşını yaradan verib, kəndim, bəs adını?*

*Kim bilir, neçədir dünyanın yaşı,*
*Tarixin nə qədər yazısı vardır.*
*Hər saxsı parçası, hər məzar daşı,*
*Nəsildən-nəsilə bir yadigardır.*

*S.Vurğun*

Hər bir yaşayış məntəqəsi haqqında söz açanda ilk növbədə orada olan toponimlərə nəzər salınır. Çünki toponimlər ictimai-tarixi inkişafın məhsulu olmaqla xalqın tarixini əks etdirir, onların yaşadıqları ərazilərin, dillərin yayılma arealının, mədəni və iqtisadi mərkəzlərin, xalqların təşəkkülündə iştirak etmiş qədim tayfaların, ölkələrin siyasi və etnik sərhədlərinin müəyyənləşdirilməsinə yardım göstərir. Yəqin elə buna görədir ki, ölkəmizdə bu sahəyə çox böyük diqqət yetirilir. Toponimika ilə bağlı geniş tədqiqatlar aparılmış, çoxsaylı kitablar yazılmışdır. Və bu kitabların demək olar hamısında "Diyallı" oykoniminin, müəyyən bir qismində isə "Güyüm" və "Sədiyan" oykonimlərinin mənası verilmişdir. Toponimika ilə məşğul olanların hamısı öz fikirlərini faktlarla əsaslandırmışlar. Biz alimlərimizdən üzr istəyərək onların açıqlamaları ilə yanaşı bu oykonimlərlə bağlı dildə-ağızda gəzən, el dilində yaşayan və yaşadılan bir neçə mülahizəni də - dəqiq faktlara əsaslanmasa belə-oxuculara çatdıracağıq.

Yer adlarının mənşəyi ilə məşğul olanların böyük əksəriyyəti Diyallı toponimini belə açıqlayırlar:"Diyallı – Niyaldağ silsiləsinin ətəyində kənd. Oykonim di (tatca "iki") və türk dilində yal komponentlərindən ibarət olub, "iki yallı yerdə salınan kənd" mənasındadır. Bu, kəndin coğrafi mövqeyinə çox uyğun gəlir. Yəni Diyallı adı üstündə olan kəndlərdəndir. Bu açıqlamada bir az qaranlıq qalan sözün birinci hissəsinin (dü, di)

təsdiq hansı dildən (tat, fars, yoxsa O.Fərzəliyevin iddia etdiyi kimi yunan) alınmasıdır.

Deyilənlərə görə, Diyallı sonuncu dəfə dağıdılana qədər indiki asfalt yolun üstündə-Kənd yeri adlanan sahədə yerləşirmiş. Həmin yer isə dağın ətəyidir və heç bir tərəfində təpə və ya yal yoxdur. Məsələnin bu tərəfini fikirləşəndə bir yorum tapmaq olmur. Bəlkə kənd təkcə yerini yox, həm də adını dəyişib, bəlkə dəfələrlə dağıdılan, viran qoyulan o kəndin adını yeni sakinlər yeni kəndlərinə vermək istəməmişlər?! Bəlkə düşər-düşməndən ehtiyatlanıblar?! Bəlkə də, nə biləsən, haradan biləsən. Fikir yürütmək asan, bu fikiri sübut edəcək fakt tapmaq isə çətindən çətindir, ən azından başqa peşə sahibləri üçün belə məsələlər labirintdir.

Diyallının tat dili ilə əlaqələndirilən ikinci bir yozumu da vardır. "Dih" tat dilində kənd, Əli isə şəxs adı bildirir və "Əlinin kəndi" kimi açıqlanır. Lakin bu versiya elə də inandırıcı gəlmir. Çünki tatlar bu gün də Diyallını "Dihəli" kimi tələffüz (!) edirlər və təbii ki, tələffüzün kəndə ad verilməsi ilə heç bir bağlılığı ola bilməz.

Başqa bir mülahizəyə görə, indiki Diyallının ilk sakinləri eramızdan əvvəl İraq ərazisindən buraya köç etmiş və kəndin adını da özləri ilə gətirib gəlmiş türk-şumerlər olmuşlar. Deyilənə görə, onlar Dəclə çayının qollarından biri olan Diyala çayı ətrafında - Diyala mahalında yaşayırmışlar.( **Diyala. Diala. İran və İraqda çay. Dəclə çayının sol qolu. Uz.təqr. 231 km.- ASE.III cild, səh.448)** Ərəb-yəhudi tayfalarının təcavüzləri nəticəsində türk-şumerlərin Orta Asiyanın içərilərinə köç etmələri barədə tarixi mənbələrdə bu və ya digər məlumatlar vardır. Diyallını ikiyə bölən Həzrət çayının adının da məhz ərəb dilindən gəlmə olduğu və "böyük çay" mənasını daşıdığı söylənilir. Nənəm Zeynəb pirinin həyətindəki bir neçə məzar da məhz o dövrə aid edilir. Bu məzarların üzərindəki tülpanı andıran məşəl şəkilləri deyilənlərin sübutu kimi dəyərləndirilir. Onu da deyim ki, kənddə başdaşılarında yazı yox, yalnız müxtəlif təsvirlər olan qəbiristan və çoxlu qəbir daşları vardır.



Belə məşəl təsviri isə yalnız Nənəm Zeynəb pirindəki qəbirlərdə var və yalnız pirin qorunub saxlanması sayəsində gəlib bu günümüzə çıxa bilmişdir.

Deyilənə görə, vaxtilə bu pirin ətrafında da çoxlu belə məzarlar olmuşdur. Zaman keçdikcə o məzarlar torpağın altına gömülmüş, sahə tədricən boş bir yerə, daha dəqiq desək adicə bir otlaq sahəsinə çevrilmişdir.

Toponimlərlə bağlı ədəbiyyatların əksəriyyətində "Diyallı" oykoniminin açıqlaması bu cümlələrlə bitir: "Cənubi Azərbaycanda eyni adlı yer və vadi qeydə alınmışdır". Çox maraqlıdır ki, kəndin adı ilə bağlı dördüncü mülahizə məhz bu sətirləri yada salır və deyəsən, doğruluğunu təsdiqləməyə əsas da verir.

Diyallının ilk sakinlərinin Cənubi Azərbaycandan gəlmiş qədim türk düyar tayfalarından olması barədə mənə şair Musa Yaqub danışmışdır. Şairin dediyinə görə, o bunu şəxsən akademik Budaq Budaqovdan eşitmişdir. Budaq müəllim söhbətlərində, habelə respublika radiosundakı bir çıxışında bu barədə geniş danışmış və qeyd etmişdir ki, dikbaşlıqları, davakarlıqları ilə fərqlənən bu tayfalar əsasən Cənubi Azərbaycanda və Ermənistanın azərbaycanlılar yaşayan (təəssüf ki, bu gün yaşamayan) ərazilərində məskunlaşmışlar. B.Budaqov Diyallı camaatının xarakterinin və ləhcəsinin düyarlılara çox uyğun gəldiyini, araşdırmalarının da bu fikirləri təsdiqlədiyini söyləmişdir. Akademikin "Azərbaycan toponimləri" kitabının müəlliflərindən olduğunu və həmin kitabda "Diyallı" toponiminin yazının əvvəlində təqdim etdiyimiz şəkildə verildiyini nəzərə alsaq, onda bu yozumu son illərin araşdırmalarının nəticəsi hesab etmək olar. Əgər doğrudan belə bir yorum varsa...

Bu yerdə bir maraqlı məqamı da yada salmaq istərdim. Diyallıda ən böyük nəsillərdən olan Sadıxuşaqları yeddinci babalarının yeddiarxa dönəninin Cənubi Azərbaycandan gəlmə olduqlarını bu mülahizədən xəbərsiz tez-tez dilə gətirirlər.

"Güyüm" və "Sədiyan" toponimlərinin istər yazılı ədəbiyyatda, istərsə də el dilində bir yorumu vardır. Güyüm kəndinin adını su daşımaq üçün işlədilən eyni adlı qabdan aldığı güman edilir. Sədiyan toponiminin isə Sədi şəxs adından və "an " cəm şəkilçisindən əmələ gəlib "Sədilər" mənasında olduğu bildirilir.

Diyallı toponiminə dair yuxarıda qeyd etdiyimiz mülahizələrdən sonuncu ikisinin həqiqətə yaxınlığı üçün vacibdir ki, kəndin min illərlə ölçülən qədim bir tarixi olsun. Bu kəndin ən azı iki min illik tarixi olduğuna inanmaq üçün isə heç də mütəxəssis olmaq lazım deyildir. Bunun aşkar izləri çox-çoxdur. Bu izlərin içərisində küp qəbirləri ayrıca qeyd etmək vacibdir. Diyallının müxtəlif yerlərində ev üşün bünövrə qazarkən, buldozerlə yol açarkən, sel suları qaya-qapçağı yuyarkən xeyli küp qəbir üzə çıxmışdır. Buradan içərisində xoruz və qoç sümükləri olan kiçik küplər də tapılmışdır. Məlumdur ki, mərhumların küp qəbirlərdə dəfni eramızdan əvvəldən eramızın ikinci əsrinə qədər olmuşdur.

Diyallının nəinki məskun ərazisində, hətta onun meşələrdən ibarət kənar ərazilərində də qəbiristanların izi tapılıb. Onlar təxminən 5-6 km uzunluqda ərazini əhatə edir. Görünür, Diyallı ərazisində qədimlərdə şəhər olması barədəki əfsanələr reallıqdan uzaq deyil.

Ümumilikdə, Diyallıda böyüklü-kiçikli 10-dan çox qəbiristan vardır. Bunlar "yaşayan" qəbiristanlardır. Qazıntı və çökmə nəticəsində məlum olan "ölü "qəbiristanlar da vardır. Bir neçə il əvvəl belə bir gor evi kəndin göbəyində olan Şıxlı məhəlləsində aşkarlanmışdır. Məhəllə sakini Əkbər Şəfaqətov həyətində kommunal obyekt üçün quyu qazarkən 2-2,5 metr dərinlikdə qəbirlə rastlaşır. Qəbirdəki sümüklər xeyli iri imiş (bunu eşidəndə qeyri-ixtiyari yada oğuzlar düşür). Bu qazıntı zamanı buradan müxtəlif saxsı qab-qacaq, habelə deyilənə görə təmiz misdən olan və böyük ustalıqla toxunmuş zəncir də tapılmışdır. Saxsı qabların bişirilməmiş nümunələri onların elə burada hazırlandığını deməyə əsas verir. Əkbər müəllimin dediyinə görə, istər məzarların, istərsə də məişət nümunələrinin



üzəri təqribən 15-20 cantimetr hündürlükdə kül və ya lavanı andıran bir qatla əhatələnibmiş. Görəsən, bu həyin izləridir,nədən xəbər verir?! Təəssüf ki, qazılan çalalar elə ev sahiblərinin özləri tərəfindən təkrar torpaqla doldurulmuş, tapılan əşyalar isə əldə-ayaqda sınıb sıradan çıxmışdır. Ancaq gəlin unutmayaq ki, insan əlinə keçənlər sıradan çıxsa da ən böyük və ən etibarlı mühafizəçi olan torpaq qoynunda çox sirləri bu gün də saxlayır. Onu da deyək ki, həyətdə bir neçə yerdə quyu qazılsa da, nəticə eyni olur. Adı çəkilən şəxsin çəpər qonşusu da öz həyətində eyni məqsəd üçün quyu qazanda həmin vəziyyətlə rastlaşır. Yəqin ki, bu yerlərdə arxeoloqlar iş aparsalar bəlkə də təkcə Diyallı üçün yox, ümumilikdə Azərbaycan tarixi üçün çox maraqlı və lazımlı olan faktlar, tarixi həqiqətlər aşkara çıxararlar.

Diyallıda və onunla bir ərazi nümayəndəliyi olan Güyüm, Sədiyan və Yuxarı Diyallı kəndlərində də tədqiqatçı yolu gözləyən belə məkanlar, qədim qəbiristanlar, açması kimsəyə məlum olmayan rəvayətlərlə dolu yer adları vardır. Bütün bunlara nəzər salanda Diyallı min illərin o üzündən baş alıb gəlmiş olur. Ancaq bu sadəcə bir mülahizədir və biz bu mülahizələrimizdə daha çox tarixin daş yaddaşlarına – məzar abidələrə söykənirik.

İllər öncəsi, daha dəqiq desək ötən əsrin səksəninci illərində bu sətirlərin müəllifinin təşəbbüsü, tarixçi alim Qafar Cəbiyevin yaxından köməkliyi və iştirakı ilə Diyallı ərazisindəki epiqrafik abidələrin bir qismi epiqraf alim Ağaqasım Qasımov tərəfindən oxundu. Lakin biz arzuladığımız, gözlədiyimiz faktı eşidə bilmədik, məlum oldu ki, yazılı daşlar-sənduqələr 1400-1500-cü illərə aiddir. Təbii ki, bu son söz deyildi, çünki Ağaqasım müəllim ancaq yazılı daşları nəzərdən keçirmişdi və onların da tarixi elə bu qədər olardı. Bəs üzərində heç bir yazı, tarix olmayan daşları kim "danışdıracaqdı"?! Bunları da oxuyacaq, bizə yekun bir söz deyəcək alimləri bir neçə il gözlədik və axır ki, "əlimizi üzüb" özümüz öz bildiyimiz qaydada tarixin bu daş yaddaşlarını "danışdırmaq" qərarına gəldik. Onu da deyim ki,

biz alimlər kimi faktlara yox, çox halda gümanlara, fərziyyələrə söykəndik, özü də o gümanlara, o fərziyyələrə ki, yekunda biz istəyən olsun. Ona görə də qoy bu sətirləri oxuyan kimsə bizi qınamasın, tarixi təhrif etməkdə günahlandırmasın: bəli, mənim üçün Diyallı təkcə Azərbaycanın yox, dünyanın ən qədim, ən tanınan, ən sevilən, ən abad kəndlərindəndir. Mən bunu belə bilirəm, belə görürəm və belə də yazıram. Bunlar mənim üçün aksiomdur və sözsüz ki, heç bir oxucu qəlbinə hökm etmək fikrim yoxdur, hətta buna qüvvəm yetsə belə.

Beləcə, çox "güvəndiyimiz" o daşların "dediklərini" Diyallı kənd orta məktəbinin dil-ədəbiyyat müəllimi, vətəndaş damarı ilə seçilən Oqtay Fərzəliyev vurğun bir dillə qələmə aldı və həmin yazıları işlədiyim "Zəhmətkeş" qəzetində dərc etdik. Lal daşların qəzet üçün şəkillərini lal kadrlara Nazir Qədirov köçürmüşdü. Qəza nəticəsində dünyadan çox erkən köçən qaraqaş, qaragöz Nazir. Bu fəsildə oxuculara təqdim etdiyimiz şəkillər də məhz Nazirin 1990-cı ildə çəkdiyi həmin şəkillərdir.

### *O DÜNYANIN OBALARI*

Rayonumuzda tarixi və mədəniyyəti eramızdan əvvələ gedib çıxan kəndlər var. Bu bəxti gətirmişlərin içində bizim Diyallının adı yoxdur. Amma olmalıdır. Bu inamla

### DÖNÜB KEÇMİŞƏ BAXDIM

Gördüm ki, kəndimin keçmişə uzanan yolu ən çoxu yeddi arxa dönənimizin o üzündə qatı dumana bürünüb. Bu dumanın içində yalnız keçmişlə bağlı olan bir neçə söz-söhbət və qəbiristanlar sezilir. Deyirlər ki, Diyallı üç dəfə tikilib, hər dəfə də yenidən. Deyirlər ki, qədimdə Yuxarı Diyallının yerində və ətrafındakı düzlərdə, təpələrdə şəhər varmış. Bu şəhər Diyallıdan xeyli aşağıya qədər uzanırmış.

***Əfsanə.*** Yuxarı Diyallının üst tərəfindən bir qarının danası hürküb həyətdən çıxır, başlayır küçə aşağı qaçmağa. Qarı düşür



dananın dalınca. Küçə dar, heç bir yana çıxmağa imkan yox. Qarı dananı ancaq Qarabulağın yanından qaytara bilir. Küçə burada qurtarırmış. Qarabulaq Diyallı altından keçən İsmayıllı-Muğanlı yolundan xeyli aşağıdadır. Belə çıxır ki, həmin küçə beş kilometrdən uzunmuş. Görəsən, belə əfsanələrə etibar etmək mümkündürmü? Mən inanıram ki, nəsillərin yaddaşında yaşayan hər bir söz –söhbətdə az, ya çox dərəcədə həqiqət var. El yaddaşı heç vaxt yalanların beşiyi olmayıb. Diyallının tarixi haqqındakı əfsanə xarakterli söhbətlərdəki həqiqəti necə tapasan? Həqiqət çox şeydə qorunur. Ancaq onun ən etibarlı qoruyucusu torpaqdır. Insan nəyi itirsə də, torpaq heç nəyi itirmir. O hər şeyi bağrına çəkir. Itirmək üçün yox, qorumaq üçün. Diyallının tarixi də öz torpağında, daha doğrusu, onun qoynundakı qədim qəbiristanlardadır. Bəlkə, onlar öz sirlərindən bir azını bizə açdı. Budur qədim qəbiristanın girişi

### KEÇMIŞƏ AÇILAN QAPI

Mən bu qapıdan girib öz soykökümü, tariximi görmək istəyirəm. Mənimlə birgə doğma yurdun bu gününə, dünəninə



ürəkdən bağlı olan cavanlardan Mehman Əliyev, Ramazan Həmzəyev, Hikmət Əhmədov və Nazir Qədirov də bu qapıdan girirlər. Elə ilk rastlaşdığımız sənduqə bizi heyrətləndirir. Onun eni 35, uzunluğu 150, hündürlüyü 77 santimetrdir. Sənduqəni bürümüş mamırı səliqə ilə təmizləyirik. Göz önündə yazı, naxış və şəkillərlə bəzənmiş bir möcüzə canlanır. Yazılar ərəb əlifbası

ilə olub, sənduqənin bütün üzlərini əhatə etməklə yuxarıdan və aşağıdan iki zolaq şəklində qazılmışdır. Naxış və şəkillər bu naxışların arasında oyulub. Sənduqənin hər üzündə dördmərtəbəli üç məqbərə şəkli də qazılıb. Qaynaqçı Ramazanla pəhləvan Hikmət bu daşın üstündəki yazını oxuya bilirlər. Quranın "Bəqərə" surəsindən "Ayət əl-Kürsü" hissəsidir.

Sənduqənin baş tərəfində işlənmiş yəhər-yüyənli at və ondan azca yuxarıda üst-üstə verilmiş qalxan, ox qabı ilə oxlar, kaman, dəstəsində iki qısa lent olan düz qılınc şəkilləri sözün həqiqi mənasında adamı sehrləyir. Bunlar daş üzərində həkkaklıq sənətinin ən zərif örnəklərindəndir.

Qəbiristanla asta-asta yuxarı qalxırıq. Təxminən, iki yüz addımlıq yerdə daha səkkiz işlənmiş sənduqə və çoxlu yazılı, şəkilli, naxışlı baş daşları görürük. İki fotoaparatla "silahlanmış" Qədirov Nazir onlardan ən çox maraq doğuranların şəkillərini çəkir.

Dairə və dördbucağa yaxın forması olan daş tirələr diqqəti cəlb edir. Hər tirənin içərisində 1-2 sənduqəli və 10-15 adi baş daşlı məzar var. Hiss olunur ki, bu daş tirələr uçmuş hasarların qalıqlarıdır. Həmin hasarlar ailə qəbiristanlarını əhatə edirmiş. Yəqin ki, üstünə sənduqə qoyulmuş məzarlar ailə və ya nəsil başçısının (həm də el başçısının), qalanları isə ailənin digər üzvlərinindir. Onlar nə zaman dünyadan köçüblər? Daşlardan soruşuruq:

## HANI SİZİN TARİXİNİZ?

Tək-tək daşların üstündə mərhumların adları nəzərə çarpsa da, tarix bildirən rəqəmlər tapılmır. Yalnız birinci sənduqənin üzərindəki üç işarə rəqəmlərə-979-a bənzəyir. Həmin rəqəmi yeni tarixə çevirmək həvəsindən özümü saxlaya bilmirəm: 1522-ci il alınır. Doğrudanmı, sənduqə həmin ilə aiddir? Bilmirəm. Ancaq, zənnimcə, həmin rəqəmdə həqiqətə yaxınlıq olmalıdır. Kəndimizin ən yaşlı adamları deyirlər ki, onların çoxdan dünyasını dəyişmiş ata-babaları da öz ulularından sənduqələrin nə vaxt qoyulduğunu eşitməmişlər.



Üzümü ulularn ruhlarına tutub demək istəyirəm: Bu daşlardan az qala hamısının üstündəki cürbəcür silah şəkilləri sizin fırtınalı, qanın selləndirildiyi, qapıların çırpıldığı, saçların yonulub küləyə verildiyi zamanlarda yaşadığınıza şəhadət verir. Bəs ay tarixi silahla yaradanlarımız, tarix yazmağı niyə unutmusunuz?

Bəlkə də, bu daşların ustundə tarixlər var. Məlumdur ki, kitabələrdə tarix təkcə rəqəmlərlə ifadə olunmur. Bunları oxumaq üçün əlbəttə ki, mütəxəssis lazımdır.

Qeyd edim ki, deyilənlərə görə dörd-beş il əvvəl buraya iki alim gəlibmiş. Onlar daşların üstünə şəffaf örtüklər salmış və təbii ölçüdə onların surətlərini çıxarmışlar. Həmin adamlar da yazıların əksər hissəsini oxuya bilməmiş, sənduqələrin tarixləri barədə heç nə deməmişlər.

Aşağıdan yuxarıya getdikcə sanki sənduqələr və baş daşları qədimləşir. Qarşıdakı kiçik təpəyə çıxıb çökəkliyə enirik. Bu da onuncu sənduqə. Baxan kimi ağlıma gələn o oldu ki, bu abidə və eləcə də onun ətrafındakı baş daşları

## MİN İLİN O ÜZÜNDƏN

bu günə gəlib çatıb. Niyə belə düşündüm? Sənduqənin bir üzündə sıra ilə on şəkil qazılmışdır. Bunlar yəhərli, üzəngili at, dəstəsində iki lent olan nizə, sapsız balta, çevrə (günəş simvolu), xəncər, sənək (yəqin ki, gülabdan) şəkilləridir. Qalanları isə iki gözə, quş başına, xış ucluğuna və qınlı bıçağa bənzəyir. Şəkillər hər tərəfdən enli haşiyəyə alınmışdır. Haşiyə nəsə nəbati naxışlara bənzər bəzəklərdən ibarətdir. Ancaq burada naxışlara xas olan müəyyən elementlərin vaxtaşırı təkrarı yoxdur. Təxəyyül meydanı olsaydı, bu naxışlara unudulmuş qədim yazılardan biri deyərdim. Sənduqədə ərəb yazısının izi də yoxdur. Görəsən, belə gözəl naxış və şəkilləri daşa həkk edən ulu sənətkar niyə ərəb yazısına biganəlik göstərib? Məncə, bunun bircə səbəbi ola bilərdi: həmin sənətkar ərəb əlifbası və

Quranla tanış deyilmiş, çünki onlar hələ bu yerlərə gəlib çıxmayıbmış...

Başqa bir cəhət də bu qənaəti möhkəmləndirir. Sənduqənin o biri üzündə şəkillər yoxdur. Daha doğrusu, onun bu üzü də zövqlə işlənibmiş. Sonralar haşiyənin içərisi iki enli zolaq şəklində, təxminən, bir santimetr dərinlikdə çox kobud surətdə qazılıb götürülmüşdür. Görünür, həmin hissəni yenidən işləmək üçün təmizləyib hamarlamaq istəmişlər. Bu zolaqlar arasında çox ensiz bir lent şəklində qazılmamış bir yer qalmışdır. Həmin yerdə qədim sənətkarın çəkdiyi şəkillərin aşağı və yuxarı çıxmış



cizgiləri hələ də qalır. Bəlkə də, qazılmış zolaqlarda heç şəkillər çəkilməyibmiş. Sənduqənin o biri üzündə şəkillər bir sırada verildiyi halda, bu üzündə niyə iki sırada verilməli idi? Çox güman ki, burada ulularımızın ən qədim fonetik yazısı, alban əlifbası ilə iki sətirlik yazı verilibmiş. Görəsən, bu gözəl abidənin ən məzmunlu hissəsi nə vaxt kor qoyulub. Məlumdur ki, XVI əsrdə bu cür qədim abidələrin çoxuna Quran ayələri yazılmış və onlar təzə qəbirlərin üstünə qoyulmuşlar. Yəqin bu sənduqən də qəbirüstü abidə kimi ikinci dəfə istifadə etmək istəyiblər. Sözün həqiqi mənasında dağıdıcılıq, kökə, əcdadların ruhuna qılınc çalmaq demək olan bu iş niyə yarımçıq qalıb? Bu sənduqənin yaşı, məncə, min ildən artıq, min beş yüz ildən isə azdır. Xatırladım ki, onun üstündəki at üzəngi ilə təsvir olunub. Üzəngi isə (həm də nal) min beş yüz il əvvəl icad edilib. Onda həqiqət yuxarıdakı iki rəqəmin arasında olmalıdır.



Onu da deyim ki, bu sənduqənin ətrafındakı baş daşlarında da əvvəlkilərdən fərqli olaraq ərəb yazısı yoxdur. Ancaq onların da üstü şəkil və naxışlarla doludur. Bu o demək deyilmi ki, bu abidələri yaradanlar və onların altında uyuyanlar Azərbaycanda islam dininin yayılmasından əvvəlki dövrün övladları olublar?

Kənd camaatı ilə söhbət zamanı elə faktlar üzə çıxdı ki, bunlar gümanımı təsdiqləməklə bərabər, "zənnimcə", "məncə" sözlərinə əl atmadan Diyallının tarixini şəksiz-şübhəsiz min illərin o üzünə çəkir. Ancaq bu barədə sonra. İndi məni daha çox

## KİM? HARADA? HARADAN?

sualları maraqlandırır. Haqqında danışdığım sənduqələrin hamısı mişar daşı materialından olub, alt tərəfdən yarıya qədər oyulmuşdur. Bu sözsüz ki, daşlara yüngüllük və möhkəmlik vermək üçün edilib. Bəs bu daşlar haradandır, harada işləniblər? Hansı eldən olan oyma ustaları onları ecazkar abidələrə çeviriblər?

Qəbiristanın söhbət açdığımız hissəsində çox səliqə ilə yonulmuş, ancaq işlənməmiş bir neçə sənduqə var. Niyə işlənməyiblər? Çünki ortadan sınıblar. Belə sənduqələr göstərir ki, oyma işinin ustaları öz zərgər məharətlərini elə buradaca göstəriblər. Onda agla batan budur ki, həkkak-rəssamlar elə öz yurddaşlarımız, öz qardaşlarımız olublar. Heyif ki, adlarını bilmirik. Qaynaqçı Ramazan daşların çox uzaqdan gətirildiyinə şubhəmi doğruldur. O deyir ki, bizim həyətdən başlayaraq, 2 kilometrlikdəki Qaradərəyə qədər orda-burda üzə çıxan mişar daşı yatağı var. Qəribədir ki, bunu Ramazandan başqa kənddə bilən yoxdur. Ona gorə də gedib baxırıq. Onun evinin yanından buldozerin açdığı yolun kənarındakı daş parçaları dərhal diqqəti cəlb edir. Bəlkə də, səhv edirəm, ancaq onlarla sənduqələrin, necə deyərlər, bir arxın suyu olduqlarına məndə heç bir şübhə qalmadı. (Diyallıda Gor qalası deyilən bir yer var. Həmin yer qayaların üzərində yerləşir və girintilidir. El arasında deyildiyinə görə Nuhun gəmisinin burnu məhz bu qayaya dirənibmiş.

Həmin qayalar da başdan-başa bu mişar daşındandır). Sənduqələr aləmində zamanın dağıtmaqda olduğu bir

## TÜRBƏ

var. Adına "Soltan Şıx İbrahim baba" deyirlər. Hündürlüyü nə qədər olub, bilinmir. İndi divarları 1,5-2 metr hündürlüyündə salamat qalıb, həm də yalnız iç üzü. Divarların çöl qatı tamamilə uçub tökülüb. Türbə oktoedr-səkkizbucaqlı formasındadır, diametri 3 metrdən azca artıqdır. İçərisinə girmək üçün yol var. Türbə kobud, hamarlanmamış mişar daşlarından tikilib. Elə zamanın dağıdıcılıq işini də asanlaşdıran bu olub. Ustad sənətkarların əlindən çıxmış sənduqələrin arasında yerləşən türbənin belə kobud daşlardan tikilməsi adamı mat qoyur. Bu türbənin müqəddəsliyi, möcüzələri barədə kənddə maraqlı əfsanələr dolaşır. Deyilənə görə,"Soltan Şıx İbrayim baba" türbəsini tikməyi iki ustaya tapşırırlar. Ustalar işin bir hissəsini görəndən sonra fikirləşirlər ki, məzarı üstündə türbə tikdikləri müqəddəs şəxsin var-dövləti də, yəqin özü ilə bir yerdə basdırılıb. Tamah onları başdan çıxarır. "Qazaqmı?" "Qazaq!" Başlayırlar məzarı qazmağa. Ancaq sərvəti təklikdə ələ keçirmək ehtirası hər birinin ürəyini qurd kimi gəmirməyə başlayır. Xeyli "çalışdıqdan" sonra hərislik, tapılacaq sərvəti bir-birilə bölüşdürmək kimi dözülməz fikir o yerə çatır ki, onlar quduz itlərə dönüb, bir-birini didib parçalayırlar. Ustaların cəsədlərinə sahib duran, onları dəfn eləyən tapılmır. Bundan sonra türbənin tikintisi də yarımçiq qalır.

Hər şey bir yana, burada var-dövlət hərisliyinin iyrəncliyi nə qədər gözəl ifadə edilmişdir. Elə bircə buna görə həmin əfsanəni nəsillərin dillərində əzbər etməyə dəyər.

(Türbə barədə başqa bir rəvayəti bu yazılardan sonra təqdim edəcəyik).



## ÖLMƏZLİYƏ İNAM

hissinin ölümsüz təcəssümü olan sənduqələrin və onların ətrafındakı baş daşlarının üstündə olan şəkillərin məzmunu haqqında əvvəlcə yazmaq istəmirdim. Sonra fikrimi dəyişdim. Bu şəkillərin çox hissəsi onları görənlər tərəfindən düzgün mənalandırılmır. Bir də ki, axı, bunlar mifik təfəkkürün, bədii təxəyyülün övladlarıdır. Əvvəlcə onu deyim ki, burada totemizm, atəşpərəstlik və islamla bağlı dünyagörüşləri qaynayıb qarışmışdır. Bunda təəccüblü heç nə yoxdur. Axı, indinin özündə də bu dünyagörüşləri bizim təfəkkürümüzdə sinkretik şəkildə yaşayır.

Daşlar üzərində ən çox at, qılınc, qalxan, ox, kaman və nizə





şəkilləri qazılmışdır. Bunlar əsrlərin o üzündə qalmış tufanlı dövrlərin susmaz əks-sədasıdır. Mən at və silahlara o dövrlərdə yaşamış insanların atributları deyərdim. Ulularımızı bu silahlarsız təsəvvür etmək olmaz. Belə yardımçı vasitələr öz torpaqları, canları və şərəfləri uğrunda mübarizədə onların ən etibarlı təminatları olub. Bu izahat tam real səciyyə daşıyır. Həmin şəkillərdə mifik təfəkkürün də qüdrətli bir ruhu duyulmaqdadır. Məlumdur ki, at ibtidai icma quruluşundan qabaq türk dünyasında əcdad, sonra isə Allah sayılan totem olmuşdur. Mifik təfəkkürə görə, insanın ruhunu axirət dünyasına at ( və ya qoç, ilan) aparır. At həm də günəş allahının simvolu idi. Təxminən 12 min il əvvəl ixtira olunmuş oxa əcdadlarımız

yalnız silah kimi baxmayıblar. Qədimdə hər ox həmçinin bir adamı bildirirdi. Budur, ucu aşağı çəkilmiş ox. Sanki o, indicə kamandan qopub torpağa sancılacaq. Bu, ölümü bildirir. Onun yanında bir ox şəkli də var. Ola bilsin ki, həmin ox ya mərhumun öldürdüyü düşməni bildirir, ya da onunla birgə dünyadan köçmüş ailə üzvünü.

Qalan baş daşları və sənduqələr üzərində isə oxlarla mərhumların cinsini də göstəriblər. Burada əsasən beş, bir halda isə dörd ox çəkilib. Oxun beşi kişini, dördü isə qadını bildirir. Çünki qədim təsəvvürlərə görə, kişinin beş, qadının dörd ruhu var. Maraqlıdır ki, üstündə dörd ox şəkli olan baş daşında qılınc da təsvir edilib. Yada Tomris,



Taclı bəyim, Tuti Bikə kimi qəhrəman qadınlarımız düşür. Qılınc və nizələrin dəstələrində olan iki lent Günəş allahı Mitranın simvollarındandır. Özlərini Günəşin övladları sayan əcdadlarımız bu lentlərlə, yəqin ki, həm silahlarının qüdrətli olduğunu, həm də ədalətə, şərəfə xidmət etdiyini bildiriblər.



**Sənək şəkilləri.** Bu şəkilləri iki cür mənalandırmaq olar:

1. Bunlar mərhumların məzarlarına əbədiyyət boyu gül suyu, ətirli su çiləməli olan gülabdanlardır. 2.Bəlkə də, bunlar əfsanəvi əcəl şərbətinin töküldüyü qablardır və ölümü ifadə edirlər. Axı, qədim təsəvvürlərə görə, ölüm həm də əcəl şərbətini içməyin nəticəsidir. Folklor nümunələrində, elə yazılı ədəbiyyatda da bu



təsəvvürün izləri yaşamaqdadır. Məsələn, el bayatılarından birinə üz tutaq:

**Yaman gün keçər gedər.**
**Ömrümü biçər gedər.**
**Əlbət, ölüm şərbətin**
**Hər gələn içər gedər.**

**Sərv şəkilləri**. Həmişəyaşıl agac olan sərv qədimlərdə həyat agacı hesab edilirdi.

**Çiçəyə bənzər şəkillər**. Həyat və əbədiyyət çiçəyi sayılan dördləçəkli səm(səmən) çiçəyini biz indi yasəmən kimi tanıyırıq. Təsadüfi deyil ki, həmin şəkillərin tərəfləri ləçək formasındadır. Yasəmən və sərv şəkilləri əbədiyyətə inamı, ölümün ancaq dünyanın dəyişdirilməsi kimi dərkini ifadə edir.

**Qayçı şəkılləri**. Bunlar ömür ipinin kəsilməsini göstərir. Əski inama görə insan ömür ipiylə göyə, səmaya bağlıdır. Bu ip kəsildimi, insan ölür. Bir baş daşı üstə olan qayçı ilə ilanabənzər fiquru, yəqin ki, belə mənalandırmaq lazımdır:insanı bu dünyaya bağlayan ömür ipi kəsildi və o, axirət dünyasına getdi. Məlumdur ki, ilan axirət dünyasını,yeraltı səltənəti təmsil edir.

**Ayaq (çəkmə)şəkilləri**. Hər daşın üstündə bir cüt olmaqla, əsasən, dizdən aşağı və bir-birinin əksinə təsvir olunublar. Məncə, bunlardan biri ölümü (bədənin ölümünü), axirətə gedişi, o biri isə əbədiyyəti (ruhun ölməzliyini, həmişə dünyada qalmasını) bildirir.

**İki gözə bənzər şəkillər**. Elmi ədəbiyyatda belə şəkillərin bəd nəzərə qarşı çəkildiyi göstərilir. Zənnimcə, göz şəkilləri insanın gözlərini dünyada qaldığını, ondan doymadığını göstərir.

**Quş şəkilləri.** Bir yerdə quş, bir yerdə isə quş başına olduqca bənzəyən şəkillər vardır. Quş atın üstündə beş ox ilə qılıncın arasındadır. Burada totem atın mərhumun silahlarını və ruhunu axirətə aparması təsvir edilib. Qədimdə insanın ruhu quş şəklində təsəvvür olunurdu.

**Təsbehə bənzədilən şəkillər**. Görən onları təsbeh zənn etsə də, zənnimcə, burada təsbehlik heç nə yoxdur. Əvvəla, bu

şəkillər müxtəlif həndəsi fiqurların düzümündən ibarətdir, ikincisi də, onlar adətən yanaşı bir cüt çəkilsə də, nə yuxarıdan, nə də aşağıdan birləşdirilmir. Həmin şəkillərdə başda Ay (və ya Günəş), sonra dördbucaqlı, romb, altıbucaqlı, yeddibucaqlı fiqurlar və nizə (ox) ucluqları bir-birinə birləşdirilmiş surətdə verilir. Dördbucaqlı dörd ünsürdən(od,su,torpaq və hava) yaranmış dünyanı, altıbucaqlı altı cəhətli (sağ, sol, irəli, geri, aşagı, yuxarı) kainatı, yeddibucaqlı isə yeri (yer yeddi qatdan ibarətdir) bildirir. Zənnimcə, bu şəkillər piktoqrafiya səciyyəlidir və belə oxunmalıdır: Günəş allahının işıqlandırdığı aləmdə dörd ünsürdən yaranmış insan bu altıcəhətli dünyada ömür sürmüş və sonra bir ox kimi yeddi qatlı torpağa getmişdir.

**Yeddiguşəli ulduz şəkli**. Ulduzun neçə şüalı verilməsi insanın əqidəsi, inamı ilə bağlıdır. Məsələn, beşguşəli ulduz beş yaşıl qitə xalqlarının birliyi əqidəsinin ifadəsidir. Yeddiguşəli ulduz, məncə, qədimdə yeddi rəqəminin müqəddəs hesab olunması ilə əlaqədardir. Müqəddəs rəqəmi müqəddəs işıqla bağlamaq təbiidir.

**Çevrə şəkilləri**. Günəşi ifadə edir. Qədim bir başdaşı üzərində tərşinə çəkilmiş şam parçasına bənzər əşya və şölə şəkli var. Yəqin ki, bu mərhumun çırağının o dünyada, torpağın altında yandığını bildirir.

Bunlar və haqqında danışmadığım digər şəkillər ulularımızın ölümsüzlüyə sarsılmaz inamının ifadəsi kimi adamda dərin təsir oyadır. Onların büllur ürəyində ölümün mütləqliyinə yer olmayıb. Buna görə də onlar "öldü" əvəzinə "dünyasını dəyişdi", "ulduzu axdı", "o dünyaya köçdü", "can quşu uçdu", "əbədiyyətə qovuşdu" kimi işıqla, həyat eşqilə dolu ifadələr yaradıblar.





haqqında danışmağın vaxtı gəlib çatdı. Diyallı torpağının qoynu müxtəlif ölçülü küplərlə doludur. Onlar selin, suyun söküb dağıtdığı yerlərdə, çaykənarı yarğanlarda, buldozerlərlə orda-burda yol açılanda vaxtaşırı üzə çıxıb. Küplərin hamısı rəngsiz olmaqla yanaşı, əksər hissəsi boş olub. Küplər, sözsüz ki, müxtəlif ərzaq məhsulları saxlamaq üçün düzəldilibmiş və onların çoxluğu qədimdə Diyallıda saxsı qabların xüsusi istehsalının yarandığını göstərir.

Adamlarla söhbətlər zamanı maraqlı məlumatlar əldə etdim. Məlum oldu ki, Diyallıda təkcə boş küplər yox, elə küp qəbirlər də çoxdur. Şahidlərin dediklərindən:

Rahib Məmmədov: 1961-ci ildə həyətyanı sahəmi çəpərləyəndə paya basdırmaq üçün quyu qazırdım. Birdən ling küt səslər verməyə başladı. Nəhəng küpün bir hissəsi göründü. İçini ehtiyatla təmizlədim, insan skeletini görüb heyrətləndim. Ona toxunmadan üstünü torpaqladım.

Əlavə edim ki, həmin küp qəbir indi də Rahibin dediyinə görə, çəpər yerində-torpağın altında qalır.

Ramazan Həmzəyev: 6-7 il əvvəl Sinnik adlanan yerdə yaradılan süni gölün qarşısına torpaq bənd çəkərkən yanı üstə qoyulmuş nəhəng küp gördük. Küpün yarıdan yuxarısını buldozerin bıçağı kəsib aparmışdı. Qalan yarısının içərisində bütöv, toxunulmamış insan skeleti vardı. Yanında qılınc görünürdü. Sümüklər qırmızımtıl rəng almışdı. Onlar elə kövrəkləşmişdi ki, əl sürtəndə barmaqda qalın qızılı toz qalırdı. O vaxt kənddə bir geoloji qrup işləyirdi. Onun rəhbəri Cəlal müəllim ( familiyasını və dəqiq iş yerini kənddə heç kəs bilmir) bu haqda eşidib məndən xahiş etdi ki, onu həmin yerə aparım. Getdik. Cəlal müəllim skeletin yanındakı qılıncı götürüb səliqə ilə əlindəki ağ kisəyə qoydu. Qılıncın ucundan təxminən bir 10 sm ovulub tökülmüşdü. Cəlal müəllim dedi ki, bu qılınc tuncdandır, qəbrin isə 5-6 min il yaşı var. O, həmin qılıncı özüylə apardı. Mən ckeletin üstünü torpaqladım, baş və ayaq

tərəfindən iki yonulmuş ağac basdırdım. Belə etdim ki, qəbir itməsin və bu sahəyə toxunulmasın. Bəlkə, Cəlal müəllim bu yerlərə axtarışa alimləri gətirər deyə fikirləşdim. Ancaq illər keçdi, nə Cəlal müəllimdən soraq çıxdı, nə də arxeoloqlardan. 1-2 il sonra həmin bənddə torpaq sürüşməsi olur və möhkəmləndirmə işləri aparılarkən ətrafdan xeyli torpaq kürünür. Bu zaman küp qəbir də gedir fələyin qəminə.

O tunc qılınc niyə və hara aparılıb, indiyədək bilən yoxdur. Onu da deyim ki, vaxtilə Diyallı ərazisindən qızıl qəbzəli qılınc da tapılıb.

Nəsirov Səhrab: 20-25 il əvvəl Həzrət çayından "Vəli yeri" adlanan düzə çıxan yerdə buldozerlə yol açan zaman təxminən bir metr dərinlikdən küp qəbir çıxdı. İçindəki skelet ovulurdu.

Bu qəbir də toz-torpağa qarışdırılıb dərə ilə üzü aşağa sovrulub.

Heç bir arxeoloji qazıntı görməmiş Diyallı torpağında küp qəbirlər, aydındır ki, elə bu təsadüfən üzə çıxanlar deyil. Və bu küp qəbirlər kəndin tarixini təqribən 2 min il əvvələ çəkir. Çünki küplərdən qəbir kimi eramızdan əvvəl və eramızın I-II əsrlərində istifadə edilmişdir. (Şirvan ərazisində VI-VII əsrlərdə də mərhumların küp qəbirlərdə dəfn olunmasına dair materiallar vardır-**redaktor**)

Atəşpərəstlər dünyasının əmanəti hesab edilən küp qəbirlər (bu qəbirlərin sırf atəşpərəstliklə əlaqəli olduğu hələ ki, sübut olunmayıb-**redaktor**) haqqında bir neçə söz demək, yəqin ki, maraqlı olar. Atəşpərəstlər ölümə şər allahı Əhrimənlə ünsiyyətdə olmağın nəticəsi kimi baxdıqları üçün ölünü mundarlanmış varlıq sayırdılar. Buna görə də onlar ölüləri torpağa basdırmağı, suya atmağı və odda yandırmağı cinayət hesab edirdilər. Torpaq da, su da, od da müqəddəs idi, onları mundarlamaq olmazdı. Bəs atəşpərəstlər mərhumların qarşısında son borclarını necə verirdilər? Onları ya xüsusi tikilmiş " dəfn daxmaları" na, " sükut evləri" nə qoyurdular, ya da küplərin, gil təknələrin içində dəfn edirdilər.



Diyallıda küp qəbirlərin qəribə bir növünə də rast gəlinib. Onları özüm görmədiyim üçün sözü yenə şahidlərə verirəm.

Ramiz və Səttar Fərzəliyevlər: " Vəli yeri"nin aşağısında yolu hamarlayanda kiçik küp şıxdı. İçində xırda sümüklər vardı. Onlar qoyun sümüklərinə oxşayırdı.

Huseyn Fərzəliyev: 16-17 il əvvəl Yuxarı Diyallıda Həzrət çayının sağ sahilindəki yarğanda kiçik bir küp görmüşdüm. İçində toyuq sümükləri vardı.

Düzü, mənə belə küp qəbirlərin də olması haqqında məlumat verilən elmi ədəbiyyat rast gəlməyib. Deyilənlər düzdürsə (deyənlərdən şübhələnməyə əsasım yoxdur), onda, yəqin ki, belə düşünmək lazımdır: küplərdəki qoyun və toyuq deyil, qoç və xoruz sümükləri olub. Atəşpərəstlər müqəddəs saydıqları, hətta sitayiş etdikləri qoç və xoruzu da, görünür, ehtiramla dəfn edirlərmiş.

Deyilənə görə, buralarda təknə və katakomba tipli qəbirlər də varmış. Ancaq selin - suyun üzə çıxardığı bu axirət evlərini elə sel-su özü də itirib.

Söhbət uzun çəkdi, ancaq demək istədiklərimin çoxu qalır. Qalanlarını isə nə vaxtsa tədqiqatçı alimlər deməlidirlər. Adama acı gəlir ki, hələ iki min il yarım bundan qabaq Babilistan hökmdarı Nabunandin əmri ilə başlanmış arxeoloji iş gözə də, könülə də yaxın olan Diyallıya zamanın bu çağında da gəlib çıxmayıb. Axı, burada açıq - aşkar köklü, ulu, qədim bir

## QƏBİRİSTAN HƏQİQƏTİ

yaşayır. Diyallının qədim qəbiristanlarının həm qəlbi ağrıdan, həm də nəsə qürur doğuran coğrafiyası, həqiqətən diqqətəlayiqdir. Onlar kəndin özündən, günçıxanındakı təpələrdən başlayır, gah torpağın köksünə çəkilərək, gah da aşkar sezilərək Sədiyan və Yuxarı Diyallıdan keçib Kərt-kərt qayaya qədər davam edir. Hətta bu qayanın günçıxanında qalın meşənin içində Çilistan deyilən yerdə də qəbiristan izləri var. Bu, sərhədləri hələ dəqiq bilinməyən çox böyük bir axirət

səltənətidir. Həmin səltənət öyrənildiyi vaxt, yəgin ki, burada qədimdə şəhər olduğu haqqında əfsanə özünü doğruldacaq. Bu şəhərin zənnimcə oğuz məhəlləsi də olmalıdır. Yuxarı Diyallıdan üst tərəfə, Dərkala gedən yolda yağış sularının qazıb çıxardığı nəhəng bud və qol sümüyü bunu göstərmirdimi?

Mənim aləmimdə qəbiristanlar əbədiyyətə qovuşanlar üçün salınmış obalardır, o dünyanın şəhərləri, kəndləridir. Onların hər biri bəşər mədəniyyətinin müxtəlif mərhələlərini güzgü kimi əks etdirən muzeydir. Keçmişi heç nə - nə elmi – tarixi sənədlər, nə bədii ədəbiyyat onlar qədər dolğun və boyasız qoruyub saxlaya bilməz. Ancaq belə bir qoruyucunun özü də qoruyucuya möhtacdır. Diyallı qəbiristanının sənduqələr olan hissəsinə təcili qayğı lazımdır. Sənduqələrin bəzilərində dərin çatlar var, birindən böyük bir parça qopub. Məncə, onları daha istinin, şaxtanın ümidinə qoymaq olmaz. Ən pisi odur ki, mal - qaranın örüşə gedən yolu sənduqələrin arasında keçir. Həmin yerin heç olmasa məftil tora alınması artıq vaxtı çatmış yox, vaxtı ötmüş məsələdir. Burada açıq səma altında muzey yaradılması, yəqin ki, vacibdir. Bəlkə də, kənd məktəbinin və ya mədəniyyət evinin otaqlarından birini muzeyə çevirib sənduqələrdən bir neçəsini ora qoymaq məsləhət olardı. Bu, gənc nəslin doğma torpağa, öz qədim tarix və mədəniyyətinə bağlılığını daha da gücləndirərdi. İndiki halda nəinki gənc nəsil, əslində hamımız öz soykökümüzdən xəbərsizik.

İstərdik ki, antik yaşayış məntəqələrindən olan Diyallı arxeoloqların diqqətini cəlb etsin. Heç olmazsa, Rahib Məmmədovun həyətində olan küp qəbiri daha artıq gözlətməyək

**Oqtay FƏRZƏLİYEV,**
**"Zəhmətkeş"qəzeti, 6-8 fevral 1990-cı il.**

Söhbətimizi Soltan Şıx İbrahim baba haqqındakı ikinci bir





lə davam etdiririk. Zaman o zaman imiş ki, Soltan Şıx İbrahim baba türbəsinin yerləşdiyi bu yer indiki kimi başdan-başa qəbiristan yox, gözəl bir bağ imiş. Elə bir bağ ki, göydə uçan quşlar o bağdakı güllərin, çiçəklərin gözəlliyinə,qoxusuna qanad saxlarmış. Meyvələrin ətri yol ötəni yolundan edərmiş. Bir gün İbrahim babanın da yolu buradan düşür. Bağın yanından keçib getmək istəyir, ancaq ayaqları sözünə baxmır. Gül-çiçəyin,meyvələrin ətri bir yandan, hərəsi bir nəğmə deyən quşların cəh-cəhi o biri yandan kişini bihuş edir. Dönüb girir bağa, görür bağ nə bağ, bir cənnət. Bağı gəzdikcə heyranlığı vurğunluğa dönür. Könlündən burada qalıb yaşamaq keçir. Bağın ən gözəl guşəsində bağ sahibi ilə rastlaşan İbrahim baba ürəyindən keçənləri ona söyləyir. Uca bir ağacın meyvəsini dərən bağ sahibi bu gözəlliklərə yaraşmayan bir tərzdə yolçunun xahişini rədd edir və hirslə bağdan çıxan yolu göstərir. Şıx İbrahim baba bir ətrafdakı gözəlliyə baxır, bir də bunları yaradanın hərəkətlərinə. Əllərini göyə qaldıraraq "İlahi, bunu da sən yaratmısan, onları da, şükür böyüklüyünə" deyir və düzəlir yoluna. Azca aralanıbmış ki, arxadan qışqırıq səsi eşidib geri çevrilir. Baxıb görür ki, ağaca söykənmiş nərdivan qalxıb dim-dik durub havada, bağ sahibidə nərdivanın başında əl-qol atıb yaradanı və yol ötənləri köməyə çağırır. İbrahim baba geri qayıdir, ağacın altına gəlir və əllərini yuxarı qaldırıb deyir: "İlahi, o etdi, sən etmə". Söz ağzından çıxmamış nərdivan yavaş-yavaş ağacın üstünə enir. Bağ sahibi cəld aşağı enib qocanın qarşısında diz çökür, əllərindən öpüb üzr istəyir və yalvarır ki, heç yana getməyib burada qalsın, bağın istədiyi yerində özünə ev qursun.

Şıx İbrahim baba ürəyindən olan bu təklifi məmnuniyyətlə qəbul edir və qalan ömrünü bu cənnətməkan bağda yaşayır. Bağ sahibinin, kənd camaatının sevimlisi və yaxın məsləhətçisi olan bu xeyirxah qoca bir gün dünyasını dəyişəndə bağ sahibi

səltənətidir. Həmin səltənət öyrənildiyi vaxt, yəgin ki, burada qədimdə şəhər olduğu haqqında əfsanə özünü doğruldacaq. Bu şəhərin zənnimcə oğuz məhəlləsi də olmalıdır. Yuxarı Diyallıdan üst tərəfə, Dərkala gedən yolda yağış sularının qazıb çıxardığı nəhəng bud və qol sümüyü bunu göstərmirdimi?

Mənim aləmimdə qəbiristanlar əbədiyyətə qovuşanlar üçün salınmış obalardır, o dünyanın şəhərləri, kəndləridir. Onların hər biri bəşər mədəniyyətinin müxtəlif mərhələlərini güzgü kimi əks etdirən muzeydir. Keçmişi heç nə - nə elmi – tarixi sənədlər, nə bədii ədəbiyyat onlar qədər dolğun və boyasız qoruyub saxlaya bilməz. Ancaq belə bir qoruyucunun özü də qoruyucuya möhtacdır. Diyallı qəbiristanının sənduqələr olan hissəsinə təcili qayğı lazımdır. Sənduqələrin bəzilərində dərin çatlar var, birindən böyük bir parça qopub. Məncə, onları daha istinin, şaxtanın ümidinə qoymaq olmaz. Ən pisi odur ki, mal - qaranın örüşə gedən yolu sənduqələrin arasında keçir. Həmin yerin heç olmasa məftil tora alınması artıq vaxtı çatmış yox, vaxtı ötmüş məsələdir. Burada açıq səma altında muzey yaradılması, yəqin ki, vacibdir. Bəlkə də, kənd məktəbinin və ya mədəniyyət evinin otaqlarından birini muzeyə çevirib sənduqələrdən bir neçəsini ora qoymaq məsləhət olardı. Bu, gənc nəslin doğma torpağa, öz qədim tarix və mədəniyyətinə bağlılığını daha da gücləndirərdi. İndiki halda nəinki gənc nəsil, əslində hamımız öz soykökümüzdən xəbərsizik.

Istərdik ki, antik yaşayış məntəqələrindən olan Diyallı arxeoloqların diqqətini cəlb etsin. Heç olmazsa, Rahib Məmmədovun həyatində olan küp qəbiri daha artıq gözlətməyək

**Oqtay FƏRZƏLİYEV,**
**"Zəhmətkeş"qəzeti, 6-8 fevral 1990-cı il.**

Söhbətimizi Soltan Şıx İbrahim baba haqqındakı ikinci bir





lə davam etdiririk. Zaman o zaman imiş ki, Soltan Şıx İbrahim baba türbəsinin yerləşdiyi bu yer indiki kimi başdan-başa qəbiristan yox, gözəl bir bağ imiş. Elə bir bağ ki, göydə uçan quşlar o bağdakı güllərin, çiçəklərin gözəlliyinə,qoxusuna qanad saxlarmış. Meyvələrin ətri yol ötəni yolundan edərmiş. Bir gün İbrahim babanın da yolu buradan düşür. Bağın yanından keçib getmək istəyir, ancaq ayaqları sözünə baxmır. Gül-çiçəyin,meyvələrin ətri bir yandan, hərəsi bir nəğmə deyən quşların cəh-cəhi o biri yandan kişini bihuş edir. Dönüb girir bağa, görür bağ nə bağ, bir cənnət. Bağı gəzdikcə heyranlığı vurğunluğa dönür. Könlündən burada qalıb yaşamaq keçir. Bağın ən gözəl guşəsində bağ sahibi ilə rastlaşan İbrahim baba ürəyindən keçənləri ona söyləyir. Uca bir ağacın meyvəsini dərən bağ sahibi bu gözəlliklərə yaraşmayan bir tərzdə yolçunun xahişini rədd edir və hirslə bağdan çıxan yolu göstərir. Şıx İbrahim baba bir ətrafdakı gözəlliyə baxır, bir də bunları yaradanın hərəkətlərinə. Əllərini göyə qaldıraraq "İlahi, bunu da sən yaratmısan, onları da, şükür böyüklüyünə" deyir və düzəlir yoluna. Azca aralanıbmış ki, arxadan qışqırıq səsi eşidib geri çevrilir. Baxıb görür ki, ağaca söykənmiş nərdivan qalxıb dim-dik durub havada, bağ sahibidə nərdivanın başında əl-qol atıb yaradanı və yol ötənləri köməyə çağırır. İbrahim baba geri qayıdir, ağacın altına gəlir və əllərini yuxarı qaldırıb deyir: "İlahi, o etdi, sən etmə". Söz ağzından çıxmamış nərdivan yavaş-yavaş ağacın üstünə enir. Bağ sahibi cəld aşağı enib qocanın qarşısında diz çökür, əllərindən öpüb üzr istəyir və yalvarır ki, heç yana getməyib burada qalsın, bağın istədiyi yerində özünə ev qursun.

Şıx İbrahim baba ürəyindən olan bu təklifi məmnuniyyətlə qəbul edir və qalan ömrünü bu cənnətməkan bağda yaşayır. Bağ sahibinin, kənd camaatının sevimlisi və yaxın məsləhətçisi olan bu xeyirxah qoca bir gün dünyasını dəyişəndə bağ sahibi

onu el qəbristanında yox, çox sevdiyi bu bağın ən gözəl guşəsində dəfn edir. Zaman keçdikcə məzar ziyarətgaha çevrilir. Soltan Şıx İbrahim babanı deyib gələnlər o gün bu gün heç peşiman qalmırlar.

Diyallı və Diyallıdakı müxtəlif yer adları ilə bağlı xeyli belə rəvayət və deyimlər vardır ki, onların bir çoxu kəndin tarixinin hansısa bir qaranlıq səhifəsinə işıq tutur. Dillərə dastan olan "Ellər abadan, Diyallı xaraba" deyimi məhz bu baxımdan çox maraqlıdır. Eşidəndə xəcalət çəkdiyimiz, açmasını illərlə axtardığım və ən nəhayət, tapdığım bir deyim.

## "ELLƏR ABADAN, DİYALLI XARABA"

Ağlım söz kəsəndən bu deyimi eşitmişəm. Anam, qonşular kənddə işıqlar sönəndə, küçələr palçıq, lil əlindən keçilməz olanda, Həzrət çayı daşıb gediş-gəlişi çətinləşdirəndə gileylənərdilər ki, Diyallı doğrudan xaraba qalıb. Hər dəfə bu sözü eşidəndə rəhmətlik nənələrim inciyər, "bilmədiyiniz sözü danışmayın" deyərdilər. Bilinməyən o söz nə idi, bilinmədi, soruşan olmadı o rəhmətliklərdən. Vaxt keçdi, əvvəlcə alim bilikli Bənövşə nənəm köçdü bu dünyadan, sonra da sinəsi oğul dağlı Güllü nənəm. Və bildiklərini də özləri ilə apardılar. Bir dəfə, hələ nənələrimin sağlığında məndə bu deyimin necə yarandığını öyrənmək həvəsi elə güclənmişdi ki... Universitetdə oxuyurdum. Professor Qulu Xəlilov ilk dərsə tanışlıqdan başlamışdı: "Haralısan, hansı kənddənsən?" Növbə mənə də çatdı, dedim. Qayıtdı ki, o "ellər abadan olanda xaraba qalan" Diyallıdansan, a qızım? Uşaqlar bu açıklamaya gülüşdülər, mənsə yaman pərt oldum. Ürəyimdə bu sözü ilk deyəni də, deyib dilə-dişə salanı da yüz yol lənətlədim. Və yay tətilinə gələn kimi Bənövşə nənəmin dizinin dibini kəsdirdim: "Niyə belə deyiblər?" Nənəm özünə xas olan bir qürurla "bu məsəl səni sıxmasın, a bala, o bir elin mərdliyindən, əyilməzliyindən xəbər verir" dedi. Xəstə idi, xırdalamadı, mənə də bu iki kəlmə böyük təskinlik oldu, bir azdan isə hər şeyi unutdum. Ta ki, bir gün



respublika radiosunun "Bulaq" verilişi bu deyimi car çəkib açmasını soruşana qədər. Onda bir dizimə vurdum, bir başıma. Niyə bir elə söz yatarının nənələrimlə birgə ölümünə dözmüşdüm? Niyə hər dəfə bu məsəl çəkiləndə xəcalət yox, qürur duyan nənələrimdən o qürurun səbəbini soruşmamışdım? Beləcə,öz günahımın cəzasını çəkdim, günlərlə, aylarla bu deyimin açmasını soraqladım. Ən nəhayət, elə həmin "Bulaq" verilişinin söz-söhbəti gedən bir yerdə Diyallıda yaşayan və əslən də buralı olan Məhəmməd Abdul oğlundan bu deyimin açmasını öyrəndim. Dədə "Bulağ"a soraq saldım, işlədiyim qəzetdə bu deyimin aşmasını dərc etdirdim. İllər öncəsi etdiyim səhvi təkrarlamamaq üçün nə lazımsa etdim. Bəlkə də kimlərsə o qəzeti oxumayıb, kimlərsə o verilişə qulaq asmayıb, ona görə də o deyimi yenə yazıram. Yazıram ki, qoy hamı –birinci növbədə Diyallı torpağında dünyaya gələnlər, onların nəvə-nəticələri, bir sözlə Diyallının təəssübünü çəkən hər kəs oxusun, öyrənsin və yadda saxlasın. Yadda saxlasın ki, bir gün mənim kimi müəlliminin, tələbə yoldaşlarının qarşısında pərt olmasın.

Deyilənə görə, bir gün hansısa bir yadelli şah kəndləri, obaları istila edə-edə gəlib çıxır Diyallının bir addımlığına. Bu şahın kimliyi barədə müxtəlif fərziyyələr var. Kimisi onun Teymurləng olduğunu söyləyir, başqa birisi Nadir şah, bir qisim isə adı bilinməyən Dərbənd xanının Diyallını dağıtdığını söyləyir. Sonuncu fikrin tərəfdarları "Ellər abadan Diyallı xaraba" məsəlinin məhz Dərbənd qapıları üzərində yazılmasına əsaslanırlar. Digər iki varianta nəzər salanda da maraqlı arqumentlərlə qarşı-qarşıya qalırsan. Diyallını belə amansızlıqla dağıdan, kiçikli-böyüklü bir kəndi qılıncdan keçirtdirən, camaatı əli-qolu bağlı yerə uzandırıb üzərindən tərsinə nallanmış atları sürdürən elə qaniçən şah Teymurləngmi olar, yoxsa Nadir şahmı? Tarixə nəzər salaq. Salnamələrə daha çox Əmir Teymur, Teymurləng və Topal Teymur kimi düşmüş Teymur 1336-1405-ci illərdə yaşamışdır. Sağ dizindən və çiynindən aldığı yaradan ayağı qatlanmadığına görə Teymurləng ləqəbi verilmiş Əmir Teymurun bu çolaq qılçası ilə dünyanı bir-birinə vurduğu

onu el qəbristanında yox, çox sevdiyi bu bağın ən gözəl guşəsində dəfn edir. Zaman keçdikcə məzar ziyarətgaha çevrilir. Soltan Şıx İbrahim babanı deyib gələnlər o gün bu gün heç peşiman qalmırlar.

Diyallı və Diyallıdakı müxtəlif yer adları ilə bağlı xeyli belə rəvayət və deyimlər vardır ki, onların bir çoxu kəndin tarixinin hansısa bir qaranlıq səhifəsinə işıq tutur. Dillərə dastan olan "Ellər abadan, Diyallı xaraba" deyimi məhz bu baxımdan çox maraqlıdır. Eşidəndə xəcalət çəkdiyimiz, açmasını illərlə axtardığım və ən nəhayət, tapdığım bir deyim.

## *"ELLƏR ABADAN, DİYALLI XARABA"*

Ağlım söz kəsəndən bu deyimi eşitmişəm. Anam, qonşular kənddə işıqlar sönəndə, küçələr palçıq, lil əlindən keçilməz olanda, Həzrət çayı daşıb gediş-gəlişi çətinləşdirəndə gileylənərdilər ki, Diyallı doğrudan xaraba qalıb. Hər dəfə bu sözü eşidəndə rəhmətlik nənələrim inciyər, "bilmədiyiniz sözü danışmayın" deyərdilər. Bilinməyən o söz nə idi, bilinmədi, soruşan olmadı o rəhmətliklərdən. Vaxt keçdi, əvvəlcə alim bilikli Bənövşə nənəm köçdü bu dünyadan, sonra da sinəsi oğul dağlı Güllü nənəm. Və bildiklərini də özləri ilə apardılar. Bir dəfə, hələ nənələrimin sağlığında məndə bu deyimin necə yarandığını öyrənmək həvəsi elə güclənmişdi ki... Universitetdə oxuyurdum. Professor Qulu Xəlilov ilk dərsə tanışlıqdan başlamışdı: "Haralısan, hansı kənddənsən?" Növbə mənə də çatdı, dedim. Qayıtdı ki, o "ellər abadan olanda xaraba qalan" Diyallıdansan, a qızım? Uşaqlar bu açıklamaya gülüşdülər, mənsə yaman pərt oldum. Ürəyimdə bu sözü ilk deyəni də, deyib dilə-dişə salanı da yüz yol lənətlədim. Və yay tətilinə gələn kimi Bənövşə nənəmin dizinin dibini kəsdirdim: "Niyə belə deyiblər?" Nənəm özünə xas olan bir qürurla "bu məsəl səni sıxmasın, a bala, o bir elin mərdliyindən, əyilməzliyindən xəbər verir" dedi. Xəstə idi, xırdalamadı, mənə də bu iki kəlmə böyük təskinlik oldu, bir azdan isə hər şeyi unutdum. Ta ki, bir gün



respublika radiosunun "Bulaq" verilişi bu deyimi car çəkib açmasını soruşana qədər. Onda bir dizimə vurdum, bir başıma. Niyə bir elə söz yatarının nənələrimlə birgə ölümünə dözmüşdüm? Niyə hər dəfə bu məsəl çəkiləndə xəcalət yox, qürur duyan nənələrimdən o qürurun səbəbini soruşmamışdım? Beləcə,öz günahımın cəzasını çəkdim, günlərlə, aylarla bu deyimin açmasını soraqladım. Ən nəhayət, elə həmin "Bulaq" verilişinin söz-söhbəti gedən bir yerdə Diyallıda yaşayan və əslən də buralı olan Məhəmməd Abdul oğlundan bu deyimin açmasını öyrəndim. Dədə "Bulağ"a soraq saldım, işlədiyim qəzetdə bu deyimin aşmasını dərc etdirdim. İllər öncəsi etdiyim səhvi təkrarlamamaq üçün nə lazımsa etdim. Bəlkə də kimlərsə o qəzeti oxumayıb, kimlərsə o verilişə qulaq asmayıb, ona görə də o deyimi yenə yazıram. Yazıram ki, qoy hamı –birinci növbədə Diyallı torpağında dünyaya gələnlər, onların nəvə-nəticələri, bir sözlə Diyallının təəssübünü çəkən hər kəs oxusun, öyrənsin və yadda saxlasın. Yadda saxlasın ki, bir gün mənim kimi müəlliminin, tələbə yoldaşlarının qarşısında pərt olmasın.

Deyilənə görə, bir gün hansısa bir yadelli şah kəndləri, obaları istila edə-edə gəlib çıxır Diyallının bir addımlığına. Bu şahın kimliyi barədə müxtəlif fərziyyələr var. Kimisi onun Teymurləng olduğunu söyləyir, başqa birisi Nadir şah, bir qisim isə adı bilinməyən Dərbənd xanının Diyallını dağıtdığını söyləyir. Sonuncu fikrin tərəfdarları "Ellər abadan Diyallı xaraba" məsəlinin məhz Dərbənd qapıları üzərində yazılmasına əsaslanırlar. Digər iki varianta nəzər salanda da maraqlı arqumentlərlə qarşı-qarşıya qalırsan. Diyallını belə amansızlıqla dağıdan, kiçikli-böyüklü bir kəndi qılıncdan keçirtdirən, camaatı əli-qolu bağlı yerə uzandırıb üzərindən tərsinə nallanmış atları sürdürən elə qaniçən şah Teymurləngmi olar, yoxsa Nadir şahmı? Tarixə nəzər salaq. Salnamələrə daha çox Əmir Teymur, Teymurləng və Topal Teymur kimi düşmüş Teymur 1336-1405-ci illərdə yaşamışdır. Sağ dizindən və çiynindən aldığı yaradan ayağı qatlanmadığına görə Teymurləng ləqəbi verilmiş Əmir Teymurun bu çolaq qılçası ilə dünyanı bir-birinə vurduğu

tarixdən yaxşı məlumdur. 1370-ci ildən paytaxtı Səmərqənd olan Mavəraünnəhri tək idarə etməyə başlayan Teymur 10 il sonra çox böyük işğalçılıq siyasəti yeritməyə başlayır.1386-cı ildə o, Sultaniyyəni tutub Təbrizə, Naxçıvana, Qarsa, Tiflisə, Qarabağa, Şəkiyə və Qəbələyə hücum etmişdir. Teymurləngin 1392 və 1399-cu illərdəki yürüşləri zamanı da Azərbaycana hücum etməsi, bu hücumlar zamanı Şirvanşah I İbrahimin və Şəki hakimi Sidi Əhmədin hərbi dəstələrinin Teymurun tərəfində vuruşması barədə tarixdə kifayət qədər məlumatlar vardır. Lakin bu, Teymurləng kimi bir qaniçən sərkərdənin Şirvan mahalından qansız ötüşməsinin sübutu ola bilməz. Teymurun işğalçılıq, talançılıq məqsədi daşıyan yürüşləri zamanı işğal olunmuş yerlərin əhalisinə dəhşətli divan tutulurdu. 1383-cü ildə İsfahanda 70 min, 1401-ci ildə Bağdadda 90 min adam qılıncdan keçirilmişdi. Sözsüz ki, belə biri üçün sözəbaxmayan diyallıların bu şəkildə cəzalandırılması nə elə çətin, nə də elə gözlənilməz deyildir.

Nadir şah Əfşar 1688-1747-ci illərdə yaşamışdır. 11 il İran şahı olmuş Nadirin dövründə Azərbaycanın ərazisi də İran dövlətinə daxil edilmişdi. Tarixçilərin yazdığına görə, Car vilayətində, Şəkidə, Şirvanda və s. yerlərdə dəfələrlə Nadir şahın əleyhinə üsyanlar qalxmış, onun cəza ordusuna ciddi müqavimət göstərilmişdir. Kim bilir, bəlkə elə daha çox yüksək vergi və xəracla bağlı qalxan belə üsyanların yatırılması zamanı dağıdılıb Diyallı?! Bəlkə elə qəddarlıqda Teymurləngdən geri qalmayan Nadir qıyıb neçə yüz cana birdən?! Kim bilir...

Deyimi eşitdiyimiz, bildiyimiz kimi təqdim edirik. Qoy hər şeyi oxucu özü süzgəcdən keçirsin. Bəlkə də heç kəndin kim tərəfindən dağıdılmasının fərqi yoxdur? Ya zəlzələdən, ya vəlvələdən...

Nə isə.Yaşlıların dediyinə görə, Diyallı dağıdılana qədər " Babaxan suyu " deyilən yerdə, hazırki şose yolunun üstündə imiş. İndi də həmin yerə el arasında "kənd yeri" deyirlər. Şahın qoşunu bu yerdən bir az yuxarıda – Güləhmədda lövbər salır. Çadırlar qurulur, yüklər endirilir. Kəndə xəbər göndərilir ki, şaha



minnətə gələnlər gətirəcəkləri pay-sovqata 40 gözəl qız da əlavə etsinlər. Qonağı adına layiq şan-şöhrətlə qarşılamağa hazırlaşan kənd bu sifarişdən sonra dərin bir sükuta bürünür. Bir gün keçir, iki gün keçir, kənddən soraq çıxmır. Kəndə təkrar çapar göndərilir, səhər gün çıxanadək 40 qız şahın hüzurunda olmasa kəndin bütün qız-gəlininin əsir alınacağı bildirilir. Kəndə yenə acı bir sükut çökür. Ancaq gecədən xeyli keçmiş şahın düşərgəsindən eşidilən qarışıq səslər kənd camaatını yuxudan oyadır. Səhər məlum olur ki, gecə kənd cavanları silahlanaraq şah qoşununa hücum etmişlər. Camaat bunu eşidən kimi şahın kəndə amansız divan tutacağını yəqin edir, ancaq kimsə minnətə getmək, şahdan aman diləmək fikrinə düşmür. Şah təkrar kəndə elçi göndərir: istədiklərini, qızlar da daxil olmaqla üç qat artırır, qoşuna hücum edən kənd cavanlarını da təslim etmələrini tələb edir və kəndə üç gün möhlət verir. Şah əmin idi ki, tezliklə kənddən onun hüzuruna əli qızıl xonçalı elçilər gələcək, yalvarıb-yapışıb dəliqanlı cavanlar və kənd üçün aman diləyəcək, şah buyuran qədər töycüyə, vergiyə, gözələ razılaşıb yüz yol ətəyindən öpəcəklər. Ancaq bir gün keçir, iki gün keçir, kənddən xəbər çıxmır ki, çıxmır. Şah vəziri çağırır ki, vəzir bu nə işdir belə, bu kənd niyə susur? Vəzir cavab verir ki, bunlara dikbaş diyallılar deyərlər, bir il də burada gözləsək onlar minnətə gəlməyəcəklər, çox məğrur, əyilməzdirlər.

Şah gözləmədiyi bu cavabdan son dərəcə qəzəblənir. Əmr edir, qoşun kəndə hücum çəkir. Evlərə od vurur, böyükdən-kiçiyə hamını qılıncdan keçirirlər. Uşaq da, böyük də məğrurcasına ölür, aman diləmir. Bu, şahı daha da qəzəbləndirir. Səhər şah qoşunu təkrar kəndə göndərir. Əsgərlər meyitlərin qulağını kəsirlər, hansından qan çıxsa, ölmədiyini bilib təkrar qılıncdan keçirirlər.

Kəndin cavanlarından isə şah daha dəhşətli qisas alır. Kəndin günçıxarındakı boş şahədə, o günə kim Sərdivan adlanan yerdə onları əl-qolları bağlı yerə uzadırlar. Qoşun atlarını tərsinə nallayıb cavanların üstündən o yan-bu yana çaparaq onları al qanlarına boyayıb torpağa qarışdırırlar. Aralıdan bu mənzərəni

tarixdən yaxşı məlumdur. 1370-ci ildən paytaxtı Səmərqənd olan Mavəraünnəhri tək idarə etməyə başlayan Teymur 10 il sonra çox böyük işğalçılıq siyasəti yeritməyə başlayır.1386-cı ildə o, Sultaniyyəni tutub Təbrizə, Naxçıvana, Qarsa, Tiflisə, Qarabağa, Şəkiyə və Qəbələyə hücum etmişdir. Teymurləngin 1392 və 1399-cu illərdəki yürüşləri zamanı da Azərbaycana hücum etməsi, bu hücumlar zamanı Şirvanşah I İbrahimin və Şəki hakimi Sidi Əhmədin hərbi dəstələrinin Teymurun tərəfində vuruşması barədə tarixdə kifayət qədər məlumatlar vardır. Lakin bu, Teymurləng kimi bir qaniçən sərkərdənin Şirvan mahalından qansız ötüşməsinin sübutu ola bilməz. Teymurun işğalçılıq, talançılıq məqsədi daşıyan yürüşləri zamanı işğal olunmuş yerlərin əhalisinə dəhşətli divan tutulurdu. 1383-cü ildə İsfahanda 70 min, 1401-ci ildə Bağdadda 90 min adam qılıncdan keçirilmişdi. Sözsüz ki, belə biri üçün sözəbaxmayan diyallıların bu şəkildə cəzalandırılması nə elə çətin, nə də elə gözlənilməz deyildir.

Nadir şah Əfşar 1688-1747-ci illərdə yaşamışdır. 11 il İran şahı olmuş Nadirin dövründə Azərbaycanın ərazisi də İran dövlətinə daxil edilmişdi. Tarixçilərin yazdığına görə, Car vilayətində, Şəkidə, Şirvanda və s. yerlərdə dəfələrlə Nadir şahın əleyhinə üsyanlar qalxmış, onun cəza ordusuna ciddi müqavimət göstərilmişdir. Kim bilir, bəlkə elə daha çox yüksək vergi və xəracla bağlı qalxan belə üsyanların yatırılması zamanı dağıdılıb Diyallı?! Bəlkə elə qəddarlıqda Teymurləngdən geri qalmayan Nadir qıyıb neçə yüz cana birdən?! Kim bilir...

Deyimi eşitdiyimiz, bildiyimiz kimi təqdim edirik. Qoy hər şeyi oxucu özü süzgəcdən keçirsin. Bəlkə də heç kəndin kim tərəfindən dağıdılmasının fərqi yoxdur? Ya zəlzələdən, ya vəlvələdən...

Nə isə.Yaşlıların dediyinə görə, Diyallı dağıdılana qədər " Babaxan suyu " deyilən yerdə, hazırki şose yolunun üstündə imiş. İndi də həmin yerə el arasında "kənd yeri" deyirlər. Şahın qoşunu bu yerdən bir az yuxarıda – Güləhməddə lövbər salır. Çadırlar qurulur, yüklər endirilir. Kəndə xəbər göndərilir ki, şaha



minnətə gələnlər gətirəcəkləri pay-sovqata 40 gözəl qız da əlavə etsinlər. Qonağı adına layiq şan-şöhrətlə qarşılamağa hazırlaşan kənd bu sifarişdən sonra dərin bir sükuta bürünür. Bir gün keçir, iki gün keçir, kənddən soraq çıxmır. Kəndə təkrar çapar göndərilir, səhər gün çıxanadək 40 qız şahın hüzurunda olmasa kəndin bütün qız-gəlininin əsir alınacağı bildirilir. Kəndə yenə acı bir sükut çökür. Ancaq gecədən xeyli keçmiş şahın düşərgəsindən eşidilən qarışıq səslər kənd camaatını yuxudan oyadır. Səhər məlum olur ki, gecə kənd cavanları silahlanaraq şah qoşununa hücum etmişlər. Camaat bunu eşidən kimi şahın kəndə amansız divan tutacağını yəqin edir, ancaq kimsə minnətə getmək, şahdan aman diləmək fikrinə düşmür. Şah təkrar kəndə elçi göndərir: istədiklərini, qızlar da daxil olmaqla üç qat artırır, qoşuna hücum edən kənd cavanlarını da təslim etmələrini tələb edir və kəndə üç gün möhlət verir. Şah əmin idi ki, tezliklə kənddən onun hüzuruna əli qızıl xonçalı elçilər gələcək, yalvarıb-yapışıb dəliqanlı cavanlar və kənd üçün aman diləyəcək, şah buyuran qədər töycüyə, vergiyə, gözələ razılaşıb yüz yol ətəyindən öpəcəklər. Ancaq bir gün keçir, iki gün keçir, kənddən xəbər çıxmır ki, çıxmır. Şah vəziri çağırır ki, vəzir bu nə işdir belə, bu kənd niyə susur? Vəzir cavab verir ki, bunlara dikbaş diyallılar deyərlər, bir il də burada gözləsək onlar minnətə gəlməyəcəklər, çox məğrur, əyilməzdirlər.

Şah gözləmədiyi bu cavabdan son dərəcə qəzəblənir. Əmr edir, qoşun kəndə hücum çəkir. Evlərə od vurur, böyükdən-kiçiyə hamını qılıncdan keçirirlər. Uşaq da, böyük də məğrurcasına ölür, aman diləmir. Bu, şahı daha da qəzəbləndirir. Səhər şah qoşunu təkrar kəndə göndərir. Əsgərlər meyitlərin qulağını kəsirlər, hansından qan çıxsa, ölmədiyini bilib təkrar qılıncdan keçirirlər.

Kəndin cavanlarından isə şah daha dəhşətli qisas alır. Kəndin günçıxarındakı boş şahədə, o günə kim Sərdivan adlanan yerdə onları əl-qolları bağlı yerə uzadırlar. Qoşun atlarını tərsinə nallayıb cavanların üstündən o yan-bu yana çaparaq onları al qanlarına boyayıb torpağa qarışdırırlar. Aralıdan bu mənzərəni

# Diyallı 1918-ci ilin martında

Tarixdə silinər və silinməz izlər qoyub Diyallı. Və onun qan yaddaşında uşaqlıqdan "erməni-müsəlman davası" kimi eşidib bildiyimiz hadisələr canlı səhifələr açır. Bu barədə rəhmətlik Bənövşə nənəm çox danışardı. Və biz nənəmin nağılı andıran bu acı hekayətlərinə qorxu dolu bir maraqla qulaq asardıq.

Nənəm çox söhbətcil idi. Kəndimizin keçmişindən xüsusi zövqlə söz açardı. Ta uşaqlıqdan bu söhbətlərin acı idim. Və



Bənövşə Nəsrəddin qızı oğlanları Ziyad, Əvəzalı və Nadirlə.

yəqin bilirdim ki, o şirin rəvayətlərdən, bir-birindən maraqlı nağıllardan sonra hökmən nənəm söhbəti hərləyib yenə azərbaycanlıların soyğırımına gətirəcək. O, danışdıqca dedikləri yaddaşıma həkk olunardı. Uşağın yadından söz çıxmaz deyirlər. Bu, həqiqətən belədir. Aradan illər keçib, artıq nənəm də dünyasını dəyişib, çox sevdiyim atam, əmilərim də. Yaddaşımda onlarla bağlı çox xoş xatirələr qalıb və bir də nənəmin nağıllarıyla nağıllaşmış acı hekayətləri. O acı hekayətlərin tək mövzusu erməni-müsəlman qırğınıydı. Nənəm çox tez-tez bu barədə söz açar, "biz türkün ermənidən böyük düşməni yoxdur"



deyərdi. "Ay nənə, türk kimdir, biz azərbaycanlıyıq" deyəndə nənəm səbrlə izah edərdi. Əlifba tanımayan bu alim xislətli qadının dünyagörüşü çox geniş idi. "Azərbaycanlı"sözü sənin haralı olduğunu bildirir, a qızım, milliyyətini yox. Biz türk millətiyik, türkün də türkdən başqa dostu yoxdur. Gavurdan (nənəm qeyri din sahiblərinə gavur, kafir deyərdi) bizə dost olmaz.

Rəhmətlik Güllü nənəm də bu barədə danışardı, ancaq bu dərəcədə nifrətlə, kinlə yox. Hətta Bənövşə nənəm bizlərə Bakıda oxuyanda erməni evində kirayədə qalmamağı dönə-dönə tapşıranda Güllü nənəm etiraz edərdi: "Uşaqların beynini qədər korlama, bunlar o vaxt oldu, Şura ilə də qurtardı". Bənövşə nənəm təslim olmazdı: "Erməni yaranışdan türkə düşməndir. Mən ölü, siz diri, görün bu Şura bir azca öləzəyən kimi erməni yenə qalxacaq türkün üzərinə yoxsa yox".

Günlərin bir günü nənəm əsasına söykənə-söykənə biz nəvələrini başına toplayıb Dəndənlik deyilən yerə apardı. Dəndənliyin düzünə az qalmış dayandı, seyrək ağacların altında görünən bir qalaq daşı göstərdi: Bax bu yaxşı tanıdığınız Osman kişinin əmisinin – Miralının qəbridir. Kənddə qəbiristan nəsib olmayan, unudulan, daha doğrusu unutdurulan neçə belə qəbir var, a bala, bir bilsəniz. Nənəm qovrula-qovrula danışırdı və mən uşaq qəlbimlə hiss edirdim ki, nənəmi yandıran erməni gülləsinin naqafil haqladığı neçə-neçə soydaşımızın ağıllı-başlı gorgahlarının olmamasından çox, dindaşlarının bütün bu olanları çox tez unudub düşmən erməniyə "dost" deməsi, onu bu dərəcədə ocaq başına çıxarmasıydı.

...Elə oradaca oturduq, nənəm yerə-göyə sığmayan bir nifrətlə nə qədər ağır da olsa yenə o günləri xatırladı...

Yaz təzə-təzə açılırdı. Hələ ağaclar yarpaqlamamışdı, havada qış soyuğu vardı. Belə bir vaxtda, kənd şirin yuxuda ikən erməni kəndə basqın etdi. Qəfil səsə yuxudan ayıldıq. Dama dolu tökürdü, dəli mart idi, nə desən olardı. Eşiyə çıxdıq-yağıntı yox idi, dam isə dağılırdı. Birdən Yastı dağdan gələn azacıq işıqları gördük: dolu dağdan yağırdı başımıza, özü də yağdıran Allah

# Diyallı 1918-ci ilin martında

Tarixdə silinər və silinməz izlər qoyub Diyallı. Və onun qan yaddaşında uşaqlıqdan "erməni-müsəlman davası" kimi eşidib bildiyimiz hadisələr canlı səhifələr açır. Bu barədə rəhmətlik Bənövşə nənəm çox danışardı. Və biz nənəmin nağılı andıran bu acı hekayətlərinə qorxu dolu bir maraqla qulaq asardıq.

Nənəm çox söhbətcil idi. Kəndimizin keçmişindən xüsusi zövqlə söz açardı. Ta uşaqlıqdan bu söhbətlərin acı idim. Və



Bənövşə Nəsrəddin qızı oğlanları Ziyad, Əvəzalı və Nadirlə.

yəqin bilirdim ki, o şirin rəvayətlərdən, bir-birindən maraqlı nağıllardan sonra hökmən nənəm söhbəti hərləyib yenə azərbaycanlıların soyğırımına gətirəcək. O, danışdıqca dedikləri yaddaşıma həkk olunardı. Uşağın yadından söz çıxmaz deyirlər. Bu, həqiqətən belədir. Aradan illər keçib, artıq nənəm də dünyasını dəyişib, çox sevdiyim atam, əmilərim də. Yaddaşımda onlarla bağlı çox xoş xatirələr qalıb və bir də nənəmin nağıllarıyla nağıllaşmış acı hekayətləri. O acı hekayətlərin tək mövzusu erməni-müsəlman qırğınıydı. Nənəm çox tez-tez bu barədə söz açar, "biz türkün ermənidən böyük düşməni yoxdur"



deyərdi. "Ay nənə, türk kimdir, biz azərbaycanlıyıq" deyəndə nənəm səbrlə izah edərdi. Əlifba tanımayan bu alim xislətli qadının dünyagörüşü çox geniş idi. "Azərbaycanlı"sözü sənin haralı olduğunu bildirir, a qızım, milliyyətini yox. Biz türk millətiyik, türkün də türkdən başqa dostu yoxdur. Gavurdan (nənəm qeyri din sahiblərinə gavur, kafir deyərdi) bizə dost olmaz.

Rəhmətlik Güllü nənəm də bu barədə danışardı, ancaq bu dərəcədə nifrətlə, kinlə yox. Hətta Bənövşə nənəm bizlərə Bakıda oxuyanda erməni evində kirayədə qalmamağı dönə-dönə tapşıranda Güllü nənəm etiraz edərdi: "Uşaqların beynini bu qədər korlama, bunlar o vaxt oldu, Şura ilə də qurtardı". Bənövşə nənəm təslim olmazdı: "Erməni yaranışdan türkə düşməndir. Mən ölü, siz diri, görün bu Şura bir azca öləzəyən kimi erməni yenə qalxacaq türkün üzərinə yoxsa yox".

Günlərin bir günü nənəm əsasına söykənə-söykənə biz nəvələrini başına toplayıb Dəndənlik deyilən yerə apardı. Dəndənliyin düzünə az qalmış dayandı, seyrək ağacların altında görünən bir qalaq daşı göstərdi: Bax bu yaxşı tanıdığınız Osman kişinin əmisinin – Miralının qəbridir. Kənddə qəbiristan nəsib olmayan, unudulan, daha doğrusu unutdurulan neçə belə qəbir var, a bala, bir bilsəniz. Nənəm qovrula-qovrula danışırdı və mən uşaq qəlbimlə hiss edirdim ki, nənəmi yandıran erməni gülləsinin naqafil haqladığı neçə-neçə soydaşımızın ağıllı-başlı gorgahlarının olmamasından çox, dindaşlarının bütün bu olanları çox tez unudub düşmən erməniyə "dost" deməsi, onu bu dərəcədə ocaq başına çıxarmasıydı.

...Elə oradaca oturduq, nənəm yerə-göyə sığmayan bir nifrətlə nə qədər ağır da olsa yenə o günləri xatırladı...

Yaz təzə-təzə açılırdı. Hələ ağaclar yarpaqlamamışdı, havada qış soyuğu vardı. Belə bir vaxtda, kənd şirin yuxuda ikən erməni kəndə basqın etdi. Qəfil səsə yuxudan ayıldıq. Dama dolu tökürdü, dəli mart idi, nə desən olardı. Eşiyə çıxdıq-yağıntı yox idi, dam isə dağılırdı. Birdən Yastı dağdan gələn azacıq işıqları gördük: dolu dağdan yağırdı başımıza, özü də yağdıran Allah

yox, bəndə idi. Deməli, ermənilər artıq bizim kəndə də qəlib çıxmışdılar. Uşaqların atası təlaşa düşdü, "köpək uşaqları qıracaqlar milləti". Qonşuları səslədi:"Ayə, tez olun, mal-qaranı açın, qarışın mal-qaranın arasına, yoxsa çaylaqda birimiz də salamat qalmarıq."

Bütün kənd güllə yağışına tutulmuşdu, səsdən qulaq batırdı. Mal-qara açıldı, onların qarnı altında sivişib birtəhər çayı keçdik. Çayın o biri sahili sıx meşə ilə örtülmüş qəbiristan idi. Beləcə, meşə və heyvanlar camaatı xilas etdi. Qəbiristanla Dəndənlik arasındakı açıqlıqda isə imkan tapıb Miralını öldürdülər. Axır ki, camaat birtəhər özünü dağlara çatdırdı, yarpaq açmasa belə sıxlığı daldalanmağa bəs edən meşələrə sığındı. Oradan kəndin içi aydın görünürdü, ermənilər kəndə doluşub evləri yandırır, talayır, qaça bilməyən kənd əhlini öldürürdülər. Axşam düşəndə ermənilər kəndi tərk etdilər. Bunu görən kişilər hava qaralar-qaralmaz kəndə endilər. Ev-eşiyə baxmaq, ölüb-qalandan xəbər bilmək üçün. Gedənlər çox gec və məlul-müşkül qayıtdılar.

Məlum olur ki, bu bir gündə Diyallıda ermənilər 11 nəfəri qətlə yetiriblər. Düşmənlər Pəricahan Qasım qızını 5 övladıyla birlikdə kənd dəyirmanının, lal Pənahı isə Güləhməddə Uzun Aynağın yanında öldürmüşdülər və camaat da onları elə oradaca basdırmışdı. Miralını qəbiristanla Dəndəlik arasındakı açıqlıqda güllə haqlamışdı. Ürvət Umud qızı isə əcəldən qaçarkən əcələ tuş gəlmişdi. Başı körpələrinə qarışdığından ermənilərin kəndə hücumundan çox gec xəbər tutmuşdu. Düşmən yaxın, meşə uzaq... Yazıq qadın bilmir neyləsin. Balalarını da alıb kənd məscidində gizlənir, ümid edir ki, məsciddir deyə düşmən buraya girməz. Aradan xeyli keçmiş ona elə gəlir ki, məscidin qapısını döyürlər. Dəhşət içində çıxıb qaçarkən elə məscidin arxasındaca düşmənlə üz-üzə gəlir. Dinsizlər ananı, qızları Nəsibə və Həbibəni vəhşicəsinə qətlə yetirirlər. Oğlu Teymuru isə Ana məhəbbəti xilas edir. Soyuq dəyər deyib ana əlinə keçəni geydiribmiş balalarının əyninə. Ananı və qızlarını öldürən ermənilər balaca Teymuru süngüyə keçirib sancırlar çəpərə, ancaq uşağın əynində pal-paltar çox olduğundan süngü bədənə



yox paltara sancılır və gecə kəndə enənlər ağlamaqdan səsi batmış Teymuru sağ-salamat tapıb özlərilə meşəyə aparırlar. Ananı və övladlarını isə elə öldürüldükləri yerdə - məscidin həyətində dəfn edirlər.

Yeri gəlmişkən bu məzarla bağlı bir

## Ə H V A L A T

Mən orta təhsilimi Sovet dövründə məktəb kimi fəaliyyət göstərən həmin o məsciddə almışam. Sinif yoldaşlarımla birlikdə o məzarların olduğu yerdə çox gəzmişik, çox oynamışıq. Ancaq kimsə deməyib ki, bu daş topaları məzardır və bu qərib məzarlar kimindir. Niyə qəbiristanda yox, burada basdırılıblar. Məktəb həyətində iməcilik keçiriləndə dəfələrlə o daş topalarını da yığışdırmaq istəmişik, haray qopub ki, dəyməyin. Axı niyə?! Nə direktor, nə müəllimlərimiz, nə də bu məsələni bilən bir başqası bu niyəni cavablandırmadı heç vaxt. Şəxsən mən uşaq ağlımla bu daş topasını pir zənn etmişəm, çünki o vaxtlar ziyalılar, xüsusilə kommunistlər ictimai yerdə Allah, pir adı çəkə bilməzdilər. Ancaq danmazdılar, dağıtmazdılar, toxunmazdılar. Zaman bunu tələb edirdi.

Rəhmətlik Qasımbala Qasımov kolxoz sədri işləyirdi. Bir gün gördük ki, o daş topasının yanına xeyli adam yığışıb. Uşaq marağıyla özümüzü ora çatdırdıq: daş qalağı dağıdılmışdı. Tənəffüs olduğundan uşaqların hamısı bura axışırdı. Qəfildən kolxozçu əmilər üstümüzə qışqırdılar: "Uşağın qəbir yanında nə işi, keçin məktəbin həyətinə". Nə-ə-ə, qəbir?! Heyrətdən gözlərimiz bərəlmişdi, məktəb həyətində qəbir olar? Məgər bura qəbiristandır?! Hansı müəllimdən sorusduqsa cavab ala bilmədik. Məktəbin müəllimi olan atama müraciət etdim. Atam az qala pıçıltıyla cavab verdi: "Qasımbala müəllimin anasının qəbrinin üstünü düzəldirlər". Yenə nəsə soruşmaq istədiyimi görüb acıqlandı: keç sinifə, hər şeyə burnunu soxma. Səhər məktəbə gələn kimi yenə uşaqlarla birlikdə ora qaçdıq. Daş topaları yox idi, onların yerində eni və uzunluğu təxminən iki

metr olan beton bir lövhə var idi, heç məzara da oxşamırdı. Ətrafa yığışan müəllimlər də öz aralarında nə isə danışıb təəssüflə başlarını yırğalayırdılar. Nə olub?! Yenə cavab ala bilmədik, maraq isə uşaq qəlbimizi didirdi. Birdən... Dərsdən çıxan kimi birbaşa Bənövşə nənəmin yanına getdim, əhvalatı yerli-yerində ona danışdım. Müəllimin anasıgilin qəbri olacaq o, dedi, baş daşı niyə qoymasınlar, niyə gizlətsinlər? Söhbətimizin üstünə gəlib çıxan rəhmətlik Nadir əmim "sədrin anasının qəbrini düzəltdik" deyəndə nənəm tez dilləndi, bəs qız deyir ki, baş daşı qoymayıblar?

Əmim o vaxt kolxozda briqadir işləyirdi, həm də kolxoz ilk partiya təşkilatının katibi idi. Olub keçənləri dəqiqliyi ilə bilirdi. Qəbir məsələsindən də tam xəbərdar imiş. Sən demə, rayon partiya komitəsində işləyən ermənilərin xətrinə dəyər, artıq söz-söhbət olar deyə baş daşı qoymağa, ümumilikdə bu məzarın nə olduğunu açıb-ağartmağa icazə verilməyibmiş.

Nənəmi özü demiş od götürdü, İlahi, sən axırımızı xeyir elə, dedi, vallah, biz müsəlmanı yaradanda Allah kinsiz yaradıb, ürəyimizdə kin əkirik mərhəmət bitir. Düşməni dost bilirik, keçiririk ocaq başına, o da ocağımıza başdan su calayır.

Deyilənin gerçəkləşməsi üçün nə əsr lazım oldu, nə də uzun illər. Nənəm deyən kimi oldu, Şura zəiflədi və erməni yenə erməniliyini göstərdi. Nə isə, mətləbdən çox uzaqlaşdıq, qayıdaq 1918 -ci ilin yazına.

Türkiyəyə kömək xahişi ilə nümayəndə heyəti getmişdi, ancaq onlar gəlincə boş dayanmaq olmazdı, ermənilər müsəlman kəndlərinə divan tutmaqda davam edirdi. Nə isə etmək lazım idi. Diyallilarda xeyli beşatılan var idi və ən əsası Mustafa əfəndinin və Süleyman əfəndinin, habelə Hacı Məcid əfəndinin Quşencədəki kürəkəni Sırac əfəndinin silahlı özünümüdafiə dəstələri var idi. Ermənilərin hücumunun birinci günü kənd cavanları başıpozuqluq edib kəndi tərk etsələr də ertəsi gündən əfəndilərin rəhbərliyi ilə kəndin girəcəyində səngər quraraq ciddi müqavimət göstərməyə başlamışdılar. Onlar qonşu kəndlərə də xəbər salmışdılar ki, gəlin birgə dəstələr yaradaq. Kəndə gəlib



qayıtdıqları birinci gecə isə öldürülən on bir nəfərin qisasını qiyamətə qoymayacaqlarına, öclərini üçqat alacaqlarına and içmişdilər. Təpəbaşı deyilən yerdə sıra ilə kol malaları düzmüşdülər. Od vurulmaq növbəsini gözləyən kol malaları.. Ancaq yaranışdan müsəlman qanına yerikləyən ermənilər yenə öz işlərindəydilər. Diyallıya dişləri batmadığını, özünümüdafiə dəstələrinin güclü olduğunu görüb üz tutmuşdular başqa səmtə. Əfəndilər Diyallıya olan hücumların azaldığını görüb o biri kəndlərə köməyə gedirlər və hətta Lahıca qədər gedib çıxırlar. Diyallı oğullarının erməni- müsəlman qətlyamı zamanı o biri kəndlərə göstərdiyi bu kömək barədə mən gözəl yazıçımız Manaf Süleymanovdan çox eşitmişdim. Manaf müəllim demək olar ki, hər dəfə rayona gələndə hökmən redaksiyaya baş çəkərdi və hər dəfə də görüşəndə bu məsələlərdən uzun-uzadı söz açardı. Onu da deyim ki, yazıçının bu mövzudakı söhbətlərini mən hələ ötən əsrin səksəninci illərinin əvvəllərində -yəni Qarabağ hadisələri başlanmamışdan çox-çox əvvəl eşitmişdim. Bəzən şair Musa Yaqub zarafatla Manaf müəllimə deyərdi:"ayə, bir az yavaş danış, vallah Arşak eşidəcək (rayon partiya komitəsində işləyən Arşak nəzərdə tutulur). Və Manaf müəllim bu iraddan sonra səsini bir az da yüksəldərdi. Sonradan yazıçı "Azərbaycan diyarı Lahıc" kitabında bütün bu dediklərini ətraflı qələmə aldı və tarixə yazdı.

Təbii ki, Türkiyədən kömək gələnə qədər başdan-başa silahlanmış bu daşnak ordusunun qarşısında özünümüdafiə dəstələri ilə çox duruş gətirmək olmazdı. Buna görə də yaxın kəndlərin ağsaqqalları məsləhətə yığışırlar, qərara alırlar ki, ermənilərin yanına-qərargahın yerləşdiyi Qoşakəndə barışığa elçilər göndərşinlər. Məsləhətə çox adam yığışsa da barışığa getməyə heç bir ağsaqqal ürək etmir. Sonda Diyallı nümayəndələrindən Məhəmməd Yusif oğlu bu işi öz üzərinə götürür. Nə qədər məsləhət, məşvərət etsələr də kimsəni Məhəmmədə yoldaş olmağa razı sala bilmirlər. Məlumat üçün deyək ki, Məhəmməd Eyvazov 1892-ci ilin aprel ayında Diyallıda anadan olmuşdur. (Məhəmməd kişi uzun ömür

yaşamış və xeyli vaxt oğlanlarıyla birlikdə xüsusi dəzgah quraraq ərrə ilə ağac, taxta, tamasa çəkərmiş. Bu, fərqli bir məşğuliyyət növü olduğundan Məhəmməd kişi diyallıların yaddaşında gözəl bir sənətkar, ağac, mişar ustası, habelə cəsarətli, qorxmax bir igid, gözəl avazla Quran oxuyan dindar bir insan, bir el ağsaqqalı kimi qalmışdır). Bu hadisələr baş verəndə isə cəmi 26 yaşı var idi. Yəni onun bu cəsarəti artıq ağsaqqallıqdan yox, dəliqanlılıqdan irəli gəlirdi. Bəli, Məhəmməd dəliqanlı bir cavan idi, amma eyni zamanda çox böyük bir siyasət sahibi idi. Ona yoldaş tapılmasa belə Məhəmməd böyük cəsarətlə tək getməyə razılaşır, ancaq həmin gün yox, iki gündən sonra gedəcəyini bildirir. Səbəbini bir özü bilirdi, bir də diyallılar. Barışıq olandan sonra onlar da "sakit" dayanmalı idilər. Düşməndə isə alınmamış hayıfları qalmışdı.



Məhəmməd Eyvazov

Məhəmməd söz verdiyi vaxtda- iki gündən sonra onu gözləyən ağsaqqalların, bu işlərə rəhbərlik edən əfəndilərin xeyir-duası ilə Qoşakəndə uzanan yola çıxır. Gedişi olan bu yolun dönüşü olmaya da bilərdi, ancaq Məhəmmədin ürəyi sakit idi, kənd cavanlarıyla birlikdə düşməndən öz qisasını da artıqlamasıyla almışdı- ədalət naminə, milli şərəf və heysiyyət naminə.

...Heyvalıq deyilən yerdə ermənilər Məhəmmədi qarşılayıb gözlərini bağlayır və Qoşakəndə - qərargaha qədər gözübağlı aparırlar. Danışıq uzun çəkir. Məhəmməd gənc olsa da, hiyləgər erməni ilə dil tapa bilir. Yerli ermənilərin zəif damarını tapan Məhəmməd Yusif oğlu onlardan ən azı ətraf kəndlərə hücüm etməyəcəkləri barədə söz alır. Və bu söz söz olaraq qalmır. Fürsətdən istifadə edən Diyallının özünümüdafiə dəstəsi darda olan başqa kəndlərə köməyə gedir.



Müsəlmanlara vaxt lazım idi. Çünki onlar, daha dəqiq desək, əfəndilər işin içindəydilər. Bilirdilər ki, tezliklə türk ordusu Azərbaycana, o cümlədən Şamaxı qəzasına gələcək.

Azərbaycan hökümətinin rəsmi dəvətindən də xəbərdar idilər, Hacı Məcid əfəndinin oğlu, atasından sonra onun işini davam etdirən Şamaxı qazisi, Müfti Mustafa əfəndinin vasitəsilə Şamaxıdan Türkiyəyə göndərilən xüsusi məktubdan da. Hacı Məcid əfəndinin kiçik oğlu Həbib əfəndi Türkiyədə oxuyurdu. Şamaxıda erməni və malakan birləşmələrinin müsəlman əhalisinə divan tutduğu qanlı-qadalı bir gündə Şamaxıya gələn Həbib əfəndi, Babaxan Niyazlının yazdığına görə, sabiq Qəza komissarı Azad bəylə görüşür. Azad bəy dünya görmüş bir adam idi. O bilirdi ki, ancaq qüdrətli türk ordusu Şamaxını, onun müsəlman əhalisini bu bəladan xilas edə bilər. Onun Azərbaycan Milli Şurasının kömək üçün Türkiyə hökümətinə müraciətindən xəbəri var idi. Lakin Azad bəy türk ordusunun Şamaxıya gəlişini sürətləndirmək üçün nə isə etmək lazım olduğunu gözəl bilirdi. Çünki Şamaxıda vəziyyət hər an pisləşirdi. Belə bir məqamda Həbib əfəndinin gəlişi "göydəndüşmə" olur. Azad bəy bilirdi ki, Türkiyənin hərbi naziri Ənvər paşa və Yarbay Nuru paşa Həbib əfəndinin keçmiş qayınları və ən yaxın adamlarıdır. Azad bəy digər Şamaxı başbilənləri ilə məsləhətləşərək Ənvər Paşanın adına bir məktub hazırlayır. Məktubu Türkiyəyə Həbib əfəndi özü aparır.

Həbib əfəndi apardığı məktubu Ənvər paşaya təqdim etdiyi zaman paşanın əmri ilə Qafqaz İslam Ordusu yaradılır. Ənvər paşanın qardaşı Nuru paşa Osmanlı paşası 5-ci Mehmed Reşadın razılığı ilə həmin orduya komandan təyin edilir. Ona general rütbəsi və böyük səlahiyyət verilir. Həbib əfəndi də Nuru paşanın ordusu ilə birlikdə əlində silah Azərbaycana gəlir. 1918-ci il may ayının 25-də Gəncəyə yetişən türk ordusu iyun ayının 12-dək Gəncədə daşnakları tərkisilah edəndən sonra Şamaxıya istiqamət alır. Yerli könüllülər hesabına xeyli güclənmiş Qafqaz İslam Ordusu Gəncədən Bakıya tərəf iki istiqamətdə hərəkət edir. Birinci istiqamət Gəncə-Bakı dəmir yolu, ikinci isə

Göyçay-Şamaxı-Bakı yolu idi. Həbib əfəndi bu ikinci yol istiqamətdə hərəkət edən ordunun tərkibində idi və o Şamaxıya mümkün qədər tez yetişməyə çalışırdı. Türk ordusunun komandirləri Həbib əfəndini əhaliyə bir xilaskar kimi təqdim edirdilər. Bu həqiqətən belə idi. Həbib əfəndinin apardığı məktub və paşalarla o səviyyədə qohumluğu türk ordusunun Azərbaycana gəlişinin tezləşməsində böyük rol oynamışdır.

Türk ordusunun bir alayı müşahidə üçün daha əlverişli olan Quşencə kəndində yerləşdirilir. Qalan qoşun isə Həbib əfəndi də daxil olmaqla Şamaxıya hərəkət edir. Quşencədə yerləşən alayın əsas məqsədi Qoşakənd və Qələyədə yerləşən daşnak yuvalarının qərargahlarını məhv etmək idi.

Türk ordusu Quşencədə Fərzəlı Vahab oğlunun və el arasında Kərim lələ kimi tanınan qardaşının bağında yerləşir. Bu kəndin və ətraf kəndlərin özünümüdafiə dəstələri türk ordusunda birləşirlər. Ev şahibləri Fərzəli baba və həyat yoldaşı Ülkər Alcan qızı sərrast güllə atmaqda məşhur idilər. Onlar təkcə ev sahibliyi etməklə kifayətlənmir, həm də qoşunun daşnak yuvalarına hücumlarında yaxından iştirak edirdilər. Ülkər nənənin qoçaqlığı çox belə hadisələrlə üzləşmiş türk əsgərlərini belə heyran qoyurdu. Kərim lələnin oğlu Talışxan da igidlikdə ad çıxarmışdı, böyük bir özünümüdafiə dəstəsinə rəhbərlik edirdi və elə dəstəsi ilə birlikdə də türk ordusuna qoşulur.

Hacı İdris "Quşencə: dünəndən bu günə gələn yol" kitabında türk ordusunun Quşencəyə gəlişindən ətraflı söz açmışdır.

Türk ordusu az vaxtda İsmayıllıya daxil olan kəndlərin əksəriyyətini daşnaklardan təmizləyir, Qoşakənddəki qərargah dağıdılır. Qələyə kəndində yerləşən və bu aralarda sonuncu olan qərargaha isə dəfələrlə hücum edilsə də, nəticəsiz qalır. Nəhayət, Hacıhətəmlidən olan Paşa adlı bir kişinin bələdçiliyi ilə qərargahın yerləşdiyi kilsəyə yol tapan əsgərlər kilsəni ələ keçirir və aylarla burada yuva salıb yüzlərlə günahsız müsəlmanı qətlə yetirən, evləri, kəndləri yandırıb yerlə yeksan edən daşnak yuvasını zərərsizləşdirirlər. Burada gördükləri dəhşətli mənzərə



isə hamını sarsıdır – ermənilər yüzlərlə günahsız müsəlmanı buraya gətirmiş, onlara olmazın işgəncələr vermiş, sonra isə öldürmüşdülər.

Ermənilər bu yerlərdə müsəlmanlara çox qan uddurmuşdular. Tircanda 360 nəfəri, Mücüdə 225 nəfəri, Bizlanda 100 nəfəri, Zeyvədə 82 nəfəri, Qıçatanda 71 nəfəri, Zərnavada 49 nəfəri, Sulutda 43 nəfəri Tağlabiyanda 36 nəfəri öldürən ermənilər Sulutla Basqal arasındakı Qanlı dərədə yüzlərlə qadın, uşaq və kişini xüsusi amansızlıqla qətlə yetirmiş, əksəriyyətinin başını kəsmişdilər, Talıstanda 23 nəfəri bir evə yığaraq diri-diri yandırmışdılar. Amma bunların heç biri bu kilsədə törədilən faciələrlə müqayisə oluna bilməzdi.

Nəhayət, Göyçay və Şamaxı qəzaları arasındakı kəndləri erməni daşnaklarından təmizləyən türk ordusu Şamaxıya, oradan da Bakıya gedir.1918-ci ilin payızında Qafqaz İslam Ordusu Azərbaycanı tərk edir.

Nuru paşanın Azərbaycandakı bütün əməliyyatlarında onun yaxın məsləhətçisi və bələdçisi olan Həbib əfəndi isə "bəlkə yenə Vətənə lazım oldum" deyib burada-Azərbaycanda qalır. Lakin... Həbib əfəndinin, Diyallının və ətraf kəndlərin müdafiəsində böyük rol oynamış qardaşların – Mustafa əfəndi ilə Süleyman əfəndinin, hər işdə onlarla olmuş yeznələri Sırac əfəndinin bu fədakarlıqlarını və vətənpərvərliklərini illər sonrası Sovet Dövlət ciyaci idarəsi yüksək "qiymətləndirir": dördünü də "xalq düşməni" kimi 1930-cu ildə gülləyirlər. Sözsüz ki, bu işdə Sovet hökumət dairələrində işləyən yüksək çinli erməni məmurlar mühüm rol oynayırlar.

Sanki bu güllə səsləri erməni daşnaklarının biz müsəlmana atdığı bütün güllə səslərini batırdı, yaddan şıxartdı. Biz unutduq ermənininin bizə etdiklərini də, ölüb-öldürülənlərimizi də, dağıdılan, yandırılan kənd, şəhərlərimizi də. Erməni isə unutmadı. Covet döğvründə əlaltdan işləyərək öz qanlı əməllərinin izini yox etməyə çalışdılar və bizim "Qardaşdır Hayıstan, can Ermənistan" deyib mahnı qoşduğumuz günlərdə erməni soyqırım abidələri tikdi, Xankəndinin, Şuşanın,

Naxçıvanın guya erməni torpağı olması barədə kitablar, xəritələr çap etdirdi. Erməni o "qardaşlıq" mahnılarının sədaları altında 1988 - ci ilə yol gəlirdi. Bu yola ilk addım isə nə 1905-ci ildə, nə 1915-ci ildə, nə də 1918-ci ildə qoyulmuşdu. O yolun tarixi haradasa ən azı 130 ili o üzə aşır.

Erməni tarixçilərinin özlərinin yazdıqlarına görə, kilsə xadimləri gizli yığıncaqlar keçirib kimlərisə öz doğma torpaqlarından qovmaq, erməniləri həmin yerlərə toplamaq barədə söhbətlər aparırlarmış. Daha sonra ermənilər arxalarını din qardaşlarına söykəməklə mübarizələrini davam etdirir, gah Rusiyaya, gah İtaliyaya, gah Fransaya, ümumiyyətlə yaxın və uzaq xristian ölkələrinə bu məqsədə yönələn müxtəlif müraciətlər edirlər. XVIII əsrin sonu, XIX əsrin əvvəllərindən başlayaraq isə bu müraciətlər və bu istiqamətdə görülən işlər artıq sistemli şəkil alır. XIX əsrin ikinci yarısında Tiflisdə Arsruni adlı bir erməni "filosofu" yaşayırmış. Günlərin bir günü Kutuli adlı bir fransız jurnalisti gəlib çıxır Tiflisə və düşür həmin bu filosofun toruna. Erməni öz qarayaxmaları, uydurmaları, xülyaları ilə fransız jurnalistin beynini doldurur, həyasızcasına Qafqazın dədə-babadan ermənilərə məxsusluğunu, hətta Tiflisin və Bakının da erməni şəhərləri olduğunu söyləyir. Onu da bildirir ki, yaxın gələcəkdə Qafqaz yenə ermənilərin olacaq və orada 30 milyonluq bir çarlıq yaradılacaqdır. O vaxt Qafqazda yaşayan cəmi 600 min erməninin nə vaxtsa 30 milyona çatacağına çox da inanmayan jurnalist azərbaycanlıların və gürcülərin ermənilərin köləsinə çevriləcəklərini bir ehtimal kimi "Ter" qəzetinin səhifələrində aləmə yayır. Bu ideya 1877-ci ildə Fransa mətbuatında işıq üzü görmüşdür.

1890-cı ildə Tiflisdə daşnaksütyun partiyası yaradılarkən onun proqramı demək olar ki, Arsruninin bu ideyaları əsasında hazırlanmışdı. Bəlkə də həmin partiya sırf bu ideyaları həyata keçirmək naminə yaradılmışdır. Bu fikri söyləməyə iki həqiqət əsas verir: birincisi budur ki, daşnaksütyun partiyasının yaradılmasında Arsruninin böyük xidməti olmuşdur, ikincisi, daşnaksütyun partiyasının proqramı ilə Arsruninin ideyaları



tamamilə bir-birinin eynidir. Hər ikisinin ilkin məqsədi "Böyük Ermənistan" yaratmaqdır. Sonralar da istər daşnaksütyun, istərsə də bolşeviklər partiyasının üzvü olan ermənilər bir nəfər kimi bu məqsədə sədaqətlə xidmət etmişlər. 1905, 1915, 1918 və 1920-ci illərdə günahsız və silahsız azərbaycanlıların silahlı erməni təcavüzkarları tərəfindən vəhşicəsinə qırılması, Bakıdakı, Qubadakı, Şamaxıdakı kütləvi qırğınlara bilavasitə Şaumyanın rəhbərlik etməsi, onun qaniçən Androniklə daim əlaqə saxlaması, Mirzəyanın əli ilə Nəriman Nərimanovun Azərbaycandan uzaqlaşdırılması da bu məqsədə bağlı olmuşdur. 1923-cü ildə Dağlıq Qarabağa muxtariyyat verilməsi də, hətta 1920-ci ildəAzərbaycan Demokratik Respublikasının məhv edilməsi də bolşevik cildinə girmiş daşnakların uğuru idi və son niyyətlərinə doğru aparırdı.

1921-ci ildə daşnaksütyun Fransaya köçəndən sonra onun Sovet İttifaqındakı fəaliyyətinə Kommunist partiyasının üzvü olan A.Mikoyan başçılıq etmişdir. 1938-ci ilə qədər Azərbaycan xalqının düşünən başlarını çox ustalıqla dənlətməklə də Mikoyan əslində öz palnlarının yerinə yetirilməsi yolundakı maneələri aradan götürmüşdür. İkinci dünya müharibəsinin ən qızğın çağında Mikoyan əqidə yaxınlığından istifadə edərək Azərbaycan xalqının bütünlüklə Qazağıstan səhralarına köçürülməsi barədə Stalinin razılığını da alıbmış. Hətta deyilənlərə görə, o zaman Qazağıstan səhralarında azərbaycanlılar üçün daxmalar da hazırlanıbmış. Lakin müharibəni uduzmaq ehtimalının çoxluğu Stalinin qulağına başqa şeylər də pıçıldayır və o bu işi təxirə salır. 1948-ci ildə Ermənistandakı azərbaycanlıların kütləvi şəkildə Qazağıstana sürgün edilməsi bu köçürmənin başlanğıcı olmuş, Stalinin qəfil ölümü onu yarımçıq qoymuşdur. Mismarı mıx edən Allah o zaman azərbaycanlıların dadına beləcə, yetir.

Müharibədən sonrakı illərdə Ermənistana xarici ölkələrdə yaşayan və daşnaksütyun partiyasının ideyaları ilə silahlanmış on minlərlə erməni köçürülmüşdür. Onlar özləri ilə hazır proqramlar, təlimat və göstərişlər gətirirdilər. Daşnaksütyun

partiyasının son 50-60 ildə gördüyü işlərin nəticəsi artıq hamımıza yaxşı məlumdur.

1987-ci ilin noyabr ayında erməni akademiki A. Aqanbekyan Fransanın "Humanite" qəzetinə verdiyi böhtan dolu müsahibəsində bildirir ki, Dağlıq Qarabağ Muxtar vilayətinin Azərbaycandan alınıb Ermənistana verilməsini artıq Siyasi büro qarşısında qoymuşdur və aşkarlıq, demokratiya şəraitində onun müsbət həllinə ümid bəsləyir.

O vaxt Azərbaycanda Aqanbekyanın bu müsahibəsini qulaqardına vurdular. Ancaq cəmi iki ay sonra Dağlıq Qarabağda partlayış baş verdi. Tüstüsü Fransadan çıxan bu partlayış nəticəsində yüz minlərlə soydaşımız Ermənistandakı dədə-baba torpaqlarından qovuldular. Azərbaycan 12 rayonunu, yəni 20 faiz ərazisini itirdi, 1 milyondan çox insan öz yurdunda yurdsuz qaldı, yüzlərlə azərbaycanlı şəhid oldu, əsir götürüldü.

Təəssüf ki, o ocaq bu gün də tüstüləyir və nə qədər ki, sakitcə oturub torpaqlarımızın danışıqlar yolu ilə geri qaytarılmasını gözləyirik, yəqin ki, hələ çox tüstüləyəcək.



## Əfəndilər kəndi

İsmayıllıya, onun kəndlərinə, tarixinə azacıq yaxından bələd olan hər kəsdən belə deyib soruşsanız Sizə qədim Diyallıya gedən yolu göstərər. Tək bizim rayonda yox, bütün Azərbaycanda Diyallı belə adlandırılan və bu adı daşımağa mənəvi haqqı çatan yeganə kənddir.

İqtisad elmləri namizədi, dosent Babaxan Niyazlı 2004-cü ildə nəşr edilmiş "Mövlanə Hacı Məcid əfəndi" kitabında böyük bir xeyirxahlıq edərək bu əfəndilər nəslinin ömür yoluna işıq tutmuş, onların həyat və fəaliyyətlərini geniş oxucu kütləsinə tam çatdıra bilmişdir. Onu da deyim ki, bu fəslin hazırlanmasında Babaxan Niyazlının kitabından, habelə Nəzif Rəhimovun müxtəlif illərdə "Zəhmətkeş" və "Cavanşir yurdu" qəzetlərində əfəndilərlə bağlı dərc edilmiş "Dünya, səndən kimlər keçdi" yazılarından, Tələt Yusifovun və Hacı Hikmət Əhmədovun söhbətlərindən istifadə olunmuşdur.

Hacı Məcid əfəndinin babası molla Abdulla XIX əsrin əvvəllərində yeddi dağ arxasında yerləşən Namc kəndindən Diyallıya köç etmişdir. Dağlıq ərazi olduğu üçün Namıcın əhalisi ancaq maldarlıqla məşğul olurdu. Yollar açıq olanda- yaz, yay aylarında namıclılar ətraf kəndlərlə, xüsusən Lahıc, Diyallı və Quşencə ilə sıx əlaqə saxlayardılar.

Molla Abdulla geniş dünyagörüşlü bir adam idi, yaxşını pisdən bir baxışda seçə bilirdi. Bəlkə də elə buna görə Diyallıya daha tez-tez gələrdi. Buranın havası kimi saf, kindən, küdurətdən uzaq, söykəndiyi dağlar kimi vüqarlı, əyilməz, elmə həvəsli insanları onu hər gəlişdə daha çox heyran qoyurdu.

Hələ o vaxtlar, yəni XVIII əsrin sonu XIX əsrin əvvəllərində Diyallıda bir neçə məscid və mədrəsə fəaliyyət göstərirmiş. Bu mədrəsələrdə təkcə Diyallıdan, ətraf kəndlərdən yox, habelə qonşu Ağsu və Kürdəmir rayonlarından uşaqlar gəlib təhsil alarmışlar. O zamanlar Diyallıdan xeyli uzaqlarda belə "Diyallının camışları biləni, bizim qanmışlar bilmir" deyə bir

məsəl çəkərmişlər. Kəndbəkənd, oba-oba gəzib dolaşan dərvişlərin dilindən də Diyallının adı tez-tez eşidilərmiş:

*Diyallıya işıq yağır, nur yağır,*
*Dağ kəndlərə alma yağır, cır yağır.*

"Ellər avadan, Diyallı havadan" məsəli də o vaxtlar dəbdəymiş. Bu şer parçasını və bu el məsəlini mənə əfəndilər nəslindən olan ustad müəllim Tələt Yusifov söylədi. İki cümləlik bir açıqlama da verdi: "Havadan, yəni abadandan da yuxarı, yüksəkdə, ərşdə duran mənasında çəkilir bu məsəl".

Kim bilir, bəlkə də... Hər bir halda o dövrdə Diyallı sayılan-seçilən və ətrafın ən iri kəndlərindən olmuşdur. Sözsüz ki, molla Abdulla məhz elə bütün bunlara görə başqa yerə yox, Diyallıya köçmüşdür. Təəssüf ki, Babaxan Niyazlı öz kitabında Diyallının istər əhali və istərsə də mədəni, elmi inkişafını məhz molla Abdullanın Diyallıya gəlişi və əfəndilərlə bağlayır. Yeri gəlmişkən onu da deyək ki, Abdulla Diyallıya köçəndə subay imiş və bu kənddə ailə qurmuşdur.

Müəllif yazır: "Az vaxtda Molla Abdullanın Diyallı kəndində ailə həyatı öz yoluna düşdü, ailə tərəqqi etməyə başladı. Diyallı kəndi o zamanlardan başlayaraq böyüməyə, artmağa, çiçəklənməyə başladı. XIX əsrin əvvəllərindən başlayaraq Diyallı kəndinin görkəmi dəyişdi, kənd əhalisinin sayına, abad və səliqəli ev və həyətlərinin sayına, alim və üləmalarının sayına, adət, ənənə və mədəniyyət səviyyəsinə görə tamamilə tanınmaz bir görkəm almışdı. O zaman Şirvan mahalında el arasında deyirdilər: " Ölkə abadan olanda Diyallı xaraba idi. Ölkə xarabalaşır, Diyallı abad olur".

Mən Babaxan Niyazlını şəxsən tanımıram, ancaq keçmişimizə işıq tutan, nəyisə qələmə alıb tarixə yazan, arxivlərdə günlər keçirib çox gümanları həqiqətə çevirən hər kəsi ürəkdən alqışlayıram. Bizim Diyallını və Diyallının yetirməsi olan kəsləri kitabına qəhrəman kimi seçən yazarların qarşısında isə xüsusi hörmət və ehtiramla baş əyirəm.

Ancaq gəlin yazdıqlarımızın böyük əksəriyyətində gözümüzlə gördüklərimizə yox, sadəcə xatirələrə, atalardan,



babalardan, nənələrdən eşitdiklərimizə söykəndiyimizi unutmayaq. Nəyisə daha qabarıq göstərmək naminə nəyisə kiçiltməyə calışmayaq. Söhbət dikbaş diyallıların Diyallısından gedəndə ehtiyatı heç əldən verməyək.

Molla Abdullanın çox kəndlərlə əlaqəsi olmuşdur. Nanıclar məhəlləsi isə müəllifin yazdığı kimi əvvəldən yox, əsasən əfəndilərdən sonra formalaşmışdır. Deməli, Molla Abdullanı Diyallıya gətirən bu kənddən ətrafa yayılan "işıq, elm nuru" olmuşdur. Belə demək daha düz olardı ki, elmə, təhsilə xüsusi maraq göstərən Molla Abdullanın elm yuvası Diyallıya gəlişi və onun fərasətli övladları sayəsində burada elm nuru qat-qat artmışdı. Və bu yerdə " Ellər abadan, Diyallı xaraba " məsələni yox, " yağ yağ üstə damar " məsəlini çəkmək daha düzgün olardı.

Diyallı Molla Abdullaya çox şey verir– oğul atası olur. Mustafa Abdulla oğlu İstanbulda Ali ruhani təhsili alır. Kəbəni, digər müqəddəs yerlərimizi ziyarər edir. Diyallının, mahalın, Şirvanın adlı-sanlı əfəndisi olur. Xalq ona "Böyük ağa" ləqəbi verir. Mustafa əfəndi Diyallida daha böyük bir məsçid tikdirir, molla məktəbini genişləndirir. Burada "Qurani-Kərim" və şəriət dərslərindən başqa dünyəvi fənlərdən də dərs deyir.

1828-ci ildə Şamaxıya köçən Hacı Mustafa əfəndi burada da mədrəsə açır, dərs deyir, mollalıq edir. Oğlanları Məcid, Seyfəddin, Məhəmməd və Cami də ataları kimi xarıcdə-İstanbul, Bağdad və Şam şəhərlərində oxuyub əfəndi adı alırlar.

Şamaxıda yaşayıb işləmiş Hacı Məcid əfəndinin adı o dövrün görkəmli ziyalıları ilə yanaşı fəxrlə çəkilir.

Hacı Mustafa əfəndinin böyük oğlu olan Hacı Məcid əfəndi 1829-cu ildə Şamaxı şəhərində anadan olmuşdur. İlk müəllimi atası olmuş, ilk təhsilini də elə atasının mədrəsəsində almışdır. Oğlunun elmə, təhsilə marağını görən atası onu təhsilini davam etdirmək üçün Türkiyəyə göndərir. O 4 il burada dini və dünyəvi təhsil alır. Şəriət elmləri ilə yanaşı tarix, coğrafiya, astronomiya kimi dünyəvi elmlərə də dərindən yiyələnən Hacı Məcid əfəndi ərəb və fars dillərini də mükəmməl öyrənir, "əfəndi" titulunu

alır. Hacı Məcid əfəndi qardaşlarından fərqli olaraq, təkcə əfəndiliklə kifayətlənməyərək, Bağdad Ali Ruhani Universitetində də təhsilini davam etdirir. Təhsil müddəti 4 il olan bu məktəbi müvəffəqiyyətlə başa vurur və "müfti" titulu alır .Ancaq yenə də Vətənə qayıtmağa tələsmir. Bağdaddan birbaşa Albaniyaya-Tirana şəhərinə üz tutur. Üç ilə qədər də orada ilahiyyat elmləri üzrə ciddi elmi-tədqiqat işi aparır, Tiranada dini və dünyəvi təhsil sistemi ilə tanış olur. Nəhayət, bütün bunların nəticəsi olaraq ali rütbəli münsiflər heyəti qarşısında elmi əsərini müdafiə edərək "Şəriət alimi" elmi dərəcəsinə layiq görülür.



Hacı Məcid əfəndi

Hacı Məcid əfəndi 1858-ci ildə Şamaxıya dönür və Şamaxının ən böyük və şəhərin bütün müsəlman əhalisinə aid olan Cuma məscidinə baş imam təyin edilir. Sonralar uzun müddət Şamaxı Quberniya Müsəlman məscidinin sədri və Şamaxı quberniya qazısı işləmiş bu insan son dərəcə xeyirxah, xeyriyyəçi bir şəxs kimi tarixdə ad qoymuşdur. Şamaxı qəzasında çox saylı mədrəsələr, məscidlər tikdirmiş Haci Məcid əfəndi ata yurdu Diyallıda da əvvəlkilərdən daha iri bir məscid və mədrəsə tikdirir. 1884-ci ildə Diyallıdakı bir neçə mollaxana məktəbi bu mədrəsədə birləşərək daha geniş fəaliyyət göstərir. Artıq burada riyaziyyat, tarix, coğrafiya, astronomiya kimi fənlər də tədris edilirdi. Mədrəsədə bütün müəllimlər xüsusi təhsil almış əfəndilər idi. Haci Məcid əfəndinin qardaşları Hacı Seyfəddin əfəndi, Haci Məhəmməd əfəndi və Hacı Cami əfəndi də yüksək təhsil görmüşdülər. Onların hər biri zəmanələrinin tanınmış ziyalıları olmuşlar.

Hacı Seyfəddin əfəndi 1830-cu ildə Şamaxıda anadan olmuş, orda boya-başa çatmış, ilk təhsilini ailə məktəbində almışdır. Sonra dayısı Hacı Əhməd əfəndinin məktəbində, qəza müsəlman



məktəbində və Hacı Əbdülxalıq əfəndinin məktəbində oxumuşdur. Yeganə oğlu Sırac əfəndi də atasının işini davam etdirmişdir.

Ailənin üçüncü oğlu olan Hacı Məhəmməd əfəndi 1834-cü ildə anadan olmuşdur və elə doğulduğu Şamaxı şəhərində Ali ruhani təhsili almışdır. Qardaşların dördüncüsü olan Hacı Cami əfəndi də Şamaxıda anadan olmuş, burada təhsil almış və qardaşları kimi o da baba kəndi Diyallıda yaşamış, buradakı mədrəsədə dərs demişdir.

O dövrdə Diyallı yenə ətraf kəndlər arasında elm, təhsil mərkəzi rolunu oynayırdı. Artıq təkcə başqa yerlərdən gəlib Diyallıda təhsil almırdılar, eyni zamanda Diyallının təhsilli övladları başqa qəzalara gedərək orada mollaxana və mədrəsə açır, özləri müəllimlik edirdilər. Hacı Məcid əfəndinin dayısı Hacı Əhməd əfəndinin Ağsu rayonunun Külüllü kəndində açdığı mədrəsənin sorağı az vaxtda çox yerə yayılmışdı.

1908-ci il fevral ayının 21-də 79 yaşında vəfat edən Hacı Məcid əfəndinin oğlanları Mustafa, Həbib, Süleyman, Mahmud və Ağa da mükəmməl təhsil görmüşdülər.



Mustafa əfəndi Hacı Məcid oğlu

Mustafa əfəndi 1860-cı ildə Şamaxı şəhərində anadan olmuşdur. İlk dünyəvi və ruhani təhsilini Şamaxıdakı müsəlman məktəbində almış və 1875-ci ildə Bağdada getmişdir. Beş il orada Ali Ruhani Universitetində təhsil aldıqdan sonra Şamaxıya qayıtmış və Cuma məscidində imamlığa, müxtəlif məktəblərdə şəriət müəllimliyinə başlamışdır. 1908-ci ildə Hacı Məcid əfəndi vəfat edəndən sonra onun yerinə Tiflisdə Zaqafqaziya müsəlmanlarının ruhani idarəsinə üzv, Şamaxıda sünniməzhəb şəhər qazısı, Quberniya qazısı seçilir. 1917-ci ildə isə Tiflisdə Zaqafqaziya müsəlmanlarının müftisi təyin edilir.

İnqilabdan sonra Diyallıya köçən Mustafa əfəndi burada yeni tipli məktəb açaraq müəllimlik edir və əkinçiliklə məşğul olur.

Hacı Məcid əfəndinin ikinci oğlu Həbib əfəndi 1869-cu ildə Şamaxı şəhərində anadan olmuşdur. 7 yaşından mollaxanada və müsəlman məktəbində təhsil alan Həbib 15 yaşı olanda sinif yoldaşları ilə birlikdə şair M.Ə. Sabirə sataşdığına görə, atasının qəzəbinə tuş gəlir və İstanbula göndərilir. Atasının yaxın dostu Hacı Əhməd Paşanın yanında qalır və uzun müddət Şamaxıya dönmür. İstanbulda mükəmməl ali təhsil alır və Türkiyənin ali məktəblərində dərs deyir. O 1918-ci ilə qədər İstanbulun bir məhəlləsində qazı olmuşdur. Həbib əfəndi şair təbiətli bir insan olmuş, Türkiyədə olarkən kiçik hekayələr və şeirlər yazıb dövri mətbuatda çap etdirmişdir. O təkcə şəriət elminin yox, həm də dünyəvi elmlərin kamil bilicisi olmuşdur. O Vətənə bir də 1918-ci ildə, ermənilərin Şamaxıda qırğınlar törətdiyi zaman qayıdır.


Həbib əfəndi Hacı Məcid oğlu

Babaxan Niyazlının böyük məhəbbətlə "unudulmazların dördüncüsü" adlandırdığı Süleyman əfəndi Hacı Məcid oğlu 1880-cı ildə Şamaxıda anadan olmuşdur. Burada mədrəsə təhsili aldıqdan sonra atası onu İraqa, Bağdad Universitetinə oxumağa göndərir. 1902-ci ildə ali ruhani diplomu ilə Vətənə dönən Süleyman əfəndi elə həmin il Şamaxıda baş verən güclü zəlzələdən sonra ata yurdu Diyallıya köçmüş və ömrünün sonuna


Suleyman əfəndi Hacı Məcidoğlu



qədər burada yaşamışdır. Süleyman əfəndi sözün əsil mənasında maarifpərvər olmuş və yüzlərlə, minlərlə insana elm öyrətmişdir. İllər öncəsi Hacı Məcid əfəndinin qız nəvəsi Nəsif Rəhimovun işlədiyim qəzetdə dərc olunan "Dünya, səndən kimlər keçdi?" yazısından bu abzası fəxr və qürur hissi ilə qeyd etməyi özümə borc bilirəm: "Şıxı Şıxıyev, Eyyub Musayev, Əli Əliyev, Ağayusif Yusifov, Əbdüllətif Rəhimov, Məcid Musayev, Məhəmməd Bəşirov, Məmmədəmin Mustafayev, İsmayıl Əfəndiyev, Saleh Məmmədov, Qasimbala Qasımov kimi ziyalıların yetişməsində Süleyman Əfəndinin böyük rolu olmuşdur." Hacı Məcid əfəndinin oğlu Süleyman əfəndidən bəhs edən bu yazını qəzet üçün çapa hazırlayanda da, indinin özündə də bu cümləni hədsiz fərəh hissi ilə kağıza köçürürəm. Düşünəndə ki, Süleyman əfəndinin adları çəkilən və çəkilməyən bu yetirmələri də yüzlərlə azərbaycanlı balasına elm savad öyrətmişdir, bu hiss birə beş artır.

Süleyman əfəndi təkcə müəllimlik etməklə kifayətlənməmiş, rayonun Basqal, Tircan, İsmayıllı və Quşencə kəndlərində əvvəl mədrəsə, sovet dövründə isə yeni tipli məktəblər açmışdır. Bağdad Universitetini və Qori seminariyasını bitirmiş Süleyman əfəndi dərs dediyi uşaqlara ərəb, fars və rus dillərini də böyük həvəslə öyrədərmiş.

Hacı Məcid əfəndinin kiçik oğlanları Mahmud və Ağa barədə də məlumat verən B.Niyazlı Mahmud əfəndinin də kifayət qədər təhsil aldığını, lakin onun sonrakı taleyinin naməlum olduğunu yazır. Atasının ölümündən iki ay sonra dünyaya gəlmiş Ağa Sovet hökuməti illərində orta təhsil almış, daha sonra Bakı şəhərinə gedərək burada Tibb universitetinə daxil olmuş və oranı həkim-terapevt ixtisası üzrə bitirmişdir. 1939-cu ildə Sovet-Fin müharibəsinin iştirakçısı olan Ağa 1941-ci ildə rus-alman müharibəsi başlayan zaman yenə də döyüşən orduya çağırılmış, döyüşlərdə hərbi həkim kimi iştirak etmiş və itkin düşmüşdür.

Sovet hökuməti qurulanadək fəaliyyət göstərmiş Diyallı mədrəsəsində, habelə Şura hökuməti qurulandan sonra yaradılan yeni tipli 5 illik ibtidai məktəbdə Süleyman əfəndi ilə yanaşı Məhəmmədxalid əfəndi, Məhərrəm əfəndi və Əhməd əfəndi də dərs demişlər. Çox təəssüf ki, onların hamısı bu və ya digər şəkildə repressiyanın qurbanları olmuşlar. Hacı Məcid əfəndinin Zaqafqaziya müftisi və Şamaxı Quberniya qazısı olmuş oğlu Mustafa əfəndi də, Həbib əfəndi də, Süleyman əfəndi də 1930-cu ildə xalq düşməni kimi güllələnmişlər. Albaniyanın Tirana muzeyində saxlanılan portretində "Bu şəkildə bütün dünyada tanınmış və məşhur olan, çox hörmətli alim və fazil, mövlanə Hacı Abdulla Məcid Həmid əfəndi" sözləri yazılmış bir insanın nəsli bütünlüklə yurd-yuvasından pərən-pərən salınmış, güllələnmiş, sürgün edilmişdir.

Babaxan Niyazlının kitabında əfəndilərin həbsi və məhkəməsi belə təsvir edilir: "1930-cu il aprel ayının 13-də, eyni vaxtda Həbib əfəndi Göyçay şəhərindən, Mustafa əfəndi və Süleyman əfəndi Diyallı kəndindən, Sırac əfəndi isə Quşençə kəndindən həbs edilərək Bakı şəhərindəki "Sentralnı" türməyə gətirildi. Ayrı-ayrı kameralarda saxlanılan bu adamlar ancaq 1930-cu ilin iyul ayının 7-də məhkəmə qarşısında bir-birini görə bildilər. Cəmi 1-2 saat çəkən məhkəmə iclasında onlar Azərbaycan SSR CM-nin 72-ci maddəsinin ikinci hissəsi ilə təqsirli bilinərək ən yüksək cəzaya-güllələnməyə məhkum edildilər və 2-3 saatdan sonra güllələndilər". 1970-ci ildə - ölümlərindən 40 il sonra onlara bəraət verilir, amma bunu onların ölümüylə doğma yurdlarından didərgin salınan, adlarını, ünvanlarını tez-tez dəyişməyə məcbur olan övladları biləcəkdilər, əzizlərinin günahsız ölümünə yana-yana.


Sırac əfəndi Rəhim oğlu



Hacı Məcid əfəndinin nəsli 3 qardaşı, 2 bacısı, 5 oğlu, 9 qızının xətti ilə davam etmişdir. 1800-cü ildən günümüzə qədər olan dövrdə bu nəsildən 23 nəfər təriqət alimi, 30 nəfərə qədər müəllim, 10-12 nəfər elm adamı (professor, dosent), çoxsaylı həkim, mühəndis, ictimai xadim yetişmişdir. Və bu nəsil təkcə Diyallının, İsmayıllının yox, ümumilikdə Azərbaycanın tarixinə əbədi və silinməz imza atmışdır.

Diyallının tanınmış başqa bir əfəndi nəsli haqqında da yeri gəlmişkən söz açmaq istərdim. Bu nəslin banisi, Dağıstanda yaşayan qədim türk tayfalarından olan Əyyub baba çox-çox əsrlər öncəsi Diyallıya köç etmiş, Həzrət çayının sol sahilində kəndin günçıxarında yurd salmışdır. Əyyub babanın Yastı dağın ətəyindən kürəbəndlə məhəlləyə çəkib gətirdiyi bulaq onun adını daşısa da, yaşadıqları məhəllə oğlu Məhyəddinin adı ilə "Məhəddinli" kimi dillərdə əbədiləşir.

Əyyub baba və oğlu Məhyəddin mollalıq etsələr də, yüksək təhsil görməmişdilər. Məhyəddinin oğlu Cəlil, nəvəsi Həmzə isə ali ruhani təhsili və əfəndi titulu almış, zəmanələrinin tanınmış ziyalıları olmuşlar. Həmzə əfəndi 25 il Dağıstanda təhsil almışdı, böyük alim, gözəl insan idi. Bu günün özündə də Həmzə əfəndinin adını diyallılar sonsuz ehtiramla çəkirlər. Hacı Məcid əfəndinin müasiri olmuş Həmzə əfəndi Məhəddinlidə məscid tikdirmiş, mədrəsə açmışdı. Deyilənlərə görə, Diyallıdan hansısa bir müşkül iş üçün Şamaxıya – Hacı Məcid əfəndinin yanına gedən olanda o, ilk öncə "Həmzə əfəndiyə müraciət etmisinizmi" deyə soruşarmış.

Həmzə əfəndinin adını daşiyan nəvəsi Həmzə babanı bu sətirlərin müəllifi də az-çox xatırlayır. Diyallilar sözün həqiqi mənasında ağsaqqal olan bu insana nəslinə və özünə ehtiram əlaməti olaraq yüksək təhsil görmədiyi halda "Həmzə əfəndi" deyə müraciət edərdilər. Sovet hökumətinin kəsə-kəs dövründə sorğu-suallara, xəbərdarlıqlara baxmayaraq Quran da oxuyurdu, namaz qılıb, oruc da tuturdu. Özü də bunu kimsədən gizlətmirdi. Ürəyində azacıq istək olan hər kəsə böyük həvəslə ərəb əlifbasını və "Qurani- Kərimi" öyrədərdi. Oğlu Ramazana,

Diyallı kənd orta məktəbinin ən istedadlı riyaziyyat müəllimlərindən olan Soltanhəmid Səlimova, rayon partiya komitəsinin təbliğat şöbəsinin müdiri işləmiş Əlağa Sədirova da müqəddəs kitabımızı oxumağı Həmzə baba öyrətmişdi.

Bu gün Diyallı məscidinin imamı olan Hacı Hikmət də baba Həmzə əfəndinin oğlu Molla Muxtarın nəvəsidir. Deyilənlərə görə, bu nəsil yalnız biliyi, əfəndiliyi ilə yox, həm də güclü biləkləri, zorlu qollarıyla tanınarmışlar. Hikmətin atası Əlövsət kişinin hərəkət edən traktoru, avtomobili saxlaması da el arasında çox danışılır.

"Ot kökü üstündə bitər" deyib atalar. Elə bu məsələ söykənib əminliklə demək olar ki, Hacı Hikmət pəhləvan dini savadına və qolunun gücünə görə sələflərinə - ana babası Hacı Məcid əfəndi və ata babası Həmzə əfəndi nəsillərinə çox şey borcludur.



# DİYALLI XX-XXI ƏSRLƏRDƏ

XX əsr bütün dünya üçün olduğu kimi, diyallılar üçün də adi zaman kəsiyi ilə əlamətdar olur: yaşayış həmin yaşayış, həyat həmin həyat. Kənd yenə öz həmişəlik qayğıları ilə keçinib gedir. Camaat əkir, biçir, hərə bir vasitə ilə dolanacağını təmin edir. Artıq kəndin bir çox cavanları mədrəsə təhsili ilə kifayətlənməyərək Şamaxı və Göyçaydakı Azərbaycan və rus dillərində təhsil verən rus-tatar məktəblərinə üz tuturdular. Bu barədə diyallılarla söhbət edərkən yurdunun tarixinə və bu gününə çox hörmətlə yanaşan Çingiz Emin oğlundan (o, rayonun tanınmış ziyalılarından olmuş Qasımbala müəllimin qız nəvəsidir) maraqlı bir məlumat aldım. Dəqiqləşdirməyə imkan olmasa da bu məlumatı yazmaya, qeyd etməyə bilmərəm. Çingizin dediyinə görə, XIX əsrin son on illiklərində, habelə XX əsrin əvvəllərində Diyallıda Kerenski adına rus-tatar məktəbi fəaliyyət göstərmişdir. Bu barədə Qasımbala müəllimin şəxsən özündən eşitdiyini və babasının təmiz rus dilində danışmasında bu məktəbin əsas rol oynadığını deyir. Xatırladaq ki, Diyallı mədrəsəsində də rus dili çox mükəmməl öyrədilirmiş. Əgər belə bir məktəb olsaydı, mənə elə gəlir ki, Qasımbala Qasımovun tərcümeyi halında adı çəkilərdi. Ancaq gəlin unutmayaq ki, heç zaman od yanmayan yerdən tüstü çıxmayıb. Çox ola bilsin ki, belə bir məktəb tarixin hansısa dönəmində kəndimizdə olub. Qoy bu sətirlər gələcəkdə Diyallı tarixini arxiv materialları ilə yazmaq imkanı olacaq hansısa bir Diyallı balası üçün işıq ucu olsun.

1920-ci ilin aprelində XI qızıl ordu Azərbaycanı işğal edir. Bu xəbər hər yerdə olduğu kimiDiyallıda da ildırım kimi çaxır: nə olacaq, necə olacaq?! "Qırmızı ulduzlular"ın soraqları tez gəlsə də özləri bu yerlərə xeyli gec gəlirlər. Və kənd də fürsətdən istifadə edib o günə qədər yaşadığı kimi yaşamaqda davam edir.

Əsasən əkinçilik, maldarlıq və bağçılıqla məşğul olan kənd əhli payızın sonunda qışın ehtiyatını ayırar və məhsulun qalan

hissəsini çöl kəndlərində özlərinə lazım olan və bu kənddə yetişməyən ərzaq məhsulları ilə dəyişib gətirərdilər. Diyallı qadınları isə əsasən ev işləri ilə məşğul olardılar. Və bağ-bostandan, çoxsaylı oğul-uşaqdan vaxt tapanda palaz, corab, patava toxuyardılar. Kəndimizin qadınları yundan və pambıqdan toxuduqlar bu məmulatların ipini özləri əyirərdilər. O vaxtlar demək olar ki, əksər evlərdə ip əyirmək üçün cəhrə var idi və daraqdan çıxmış yundan hər bir Diyallı qadını sap əyirə bilirdi-özünə lazım olan yoğun-naziklikdə. İpi boyamaq üçün ağac və kolların budaqlarından, habelə köklərindən istifadə edərdilər. Bu rənglər ziyansız olmaqla yanaşı solmurdu və uzun müddət təzə qalırdı. Onu da deyim ki, Diyallıda xalça toxunmasına ötən əsrin 70-80-ci illərində başlanmışdır. Rayonda açılmış xalça sexində işləyən bir neçə Diyallı qızı burada xalça toxumağı öyrənmişdi. Sonralar evlərdə xalça toxuyaraq dövlətə təhvil verərdilər. İndi isə kənddə özəl xalça sexi fəaliyyət göstərir.

Diyallıların ta qədimlərdən bir başqa qazanc yeri də yaşı bilinməyən Bədov suyu olmuşdur. Bir çox xəstəliklərdə, xüsusilə də yel xəstəliklərində əvəzsiz olan bu bulaq adını iyindən almışdır:bəd iyli su. Kəndin ən yaşlı, ən yaddaşlı sakinləri də bu suyun nə vaxtdan müalicə məqsədilə işlədildiyindən xəbərsizdirlər. İstifadə qaydası da dəyişilməz qalır: odunla qalanmış ocaqda daşları isidib ağac vannalara doldurulmuş (sonralar bu vannalar şirli dəmir vannalarla əvəzlənmişdi) suya salarlar: daş soyuyur, su isinir. Su belə isidiləndə qat-qat keyfiyyətli olur. Bu, ağır bir iş idi, ancaq yaxşı qazanc gətirirdi. Bir neçə nəfər suyun isidilməsində çalışar, illik ruzisini buradan çıxarardı. Kəndlilər müalicəyə gələnlərə həyətyanı təsərrüfatlarının məhsullarını da satardılar. Beləcə, camaat birtəhər keçinib gedirdi.

Şura hökumətinin gəlişi zahirən hiss olunmasa da daxilən əhalinin sakitliyini çox pozmuşdu. Kolxozların yaradılacağı, əhalidə olan torpaqların, kənd təsərrüfatı alətlərinin, öküz və kəllərin kəndlidən alınıb ümumi təsərrüfat yaradılacağı xəbəri



hamını təşvişə salmışdı. Çoxları kotanını, xışını gizlədir, atını, öküzünü dalda, bucaqda otarıb "öldü" sorağını yayırdı.

Bütün bunlar hər yerdə olduğu kimi Diyallıda da, sözsüz ki, nə sovet hökumətinin möhkəmlənməsinə, nə də kolxoz yaradılmasına əngəl ola bilmir. Beləliklə, Diyallıda Hüseyn Rəhmanov adına kolxoz yaradılır.

Mədrəsə də yenidən fəaliyyətə başlayır, artıq mədrəsə yox məktəb adlanır, dini elmlərin tədrisi də dayandırılır. Mədrəsənin müəllimləri Süleyman əfəndi, Məhəmmədxalid əfəndi, Əhməd əfəndi və Məhərrəm əfəndi bu 5 illik ibtidai məktəbin ilk müəllimləri olurlar. Onu da deyək ki, bu yeni məktəbin açılmasının təşəbbüskarı inqilabdan sonra ata yurduna köçmüş Mustafa əfəndi olur. Bir müddət məktəbə özü rəhbərlik etsə də sonradan şura hökuməti onu bu işdən kənarlaşdırır və bu vəzifəyə göyçaylı Mürsəl müəllim təyin edilir. Mürsəl müəllim həm məktəbə rəhbərlik edir, həm dərs deyir, həm də kənddə kolxoz quruculuğunda fəal iştirak edirdi.

Sovet birliyi dövründə Diyallıdan müəllim peşəsinə ilk olaraq iki gənc yiyələnir. Onlardan biri 1924-28-ci illərdə Göyçay Pedaqoji Texnikumunda (o vaxtkı 2-ci dərəcəli məktəbdə) təhsil almış Fərzixan Məhərrəm oğlu Muradov, ikincisi isə elə Fərzixanla eyni ildə, eyni kənddə anadan olmuş, eyni texnikumda təhsil almış Qasımbala Tacəddin oğlu Qasımov olmuşdur. Fərzixan müəllim Göyçayın Qarayazı kəndində, Qasımbala müəllim isə İnçə kəndində müəllimlik fəaliyyətinə başlamışlar.

1929-cu ildə Diyallıda yediillik məktəb açılır və Qasımbala Qasımov Göyçay mahal partiya komitəsinin qərarı ilə bu məktəbə direktor təyin edilir. 1932-ci ildə İsmayıllı rayonu yarananda Q.Qasımov rayon Xalq Maarif şöbəsinin müdiri vəzifəsinə keçirilir. Xatırladaq ki, Qasımbala müəllim İsmayıllı rayon təhsil şöbəsinin ilk müdiri olmuşdur.

Bu dəfə Diyallı məktəbinə kəndin və məktəbin öz yetirməsi olan Murad Məmmədov direktor təyin edilir. Yeni direktorun həyat yoldaşı Validə xanım da burada dərs deyirmiş. Ağayusif

Yusifov, Abusəid Abdullayev və Mirzəkərim Qasımov da həmin illərdə bu məktəbdə müəllim işləmişlər.

Murad müəllim həm də kolxoz partiya komitəsinin katibi olub. Yaşlıların dediyinə görə, bu insan çox yurdsevər, işgüzar imiş, az vaxtda kənd və məktəb üçün çox işlər görə bilibmiş. Ona görə də 1938-ci ildə Murad müəllimin qaçaq Üzbaşı tərəfindən öldürülməsi kənd üçün ağır itki olur. Yenə məktəbə kənardan direktor təyin edilir: Lütvəli Həsənli.

Murad müəllimin ölümü kənddə yeni bir repressiya dalğası yaradır. Ona görə yeni deyirik ki, Diyallıda repressiya elə Sovet hökuməti qurulandan başlamışdı. Əfəndilər kəndi kimi tanındığına görə hər addımda kənd camaatı incidilir və haqsız təqiblərə məruz qalırdı. Onlarla adam müxtəlif bəhanələrlə sürgün olunmuş, "səsikəsik" edilmişdi – yəni səsvermə hüququndan məhrum edilmişdi. Bu bəlkə də indi gülməli görünə və ya yüngül cəza təsiri bağışlaya bilər, o dövrdə isə... İkinci bir tərəfdən də "səsikəsik"lər başqa işlərdə də haqlı, ya haqsız sıxışdırılırdılar. Bu hadisədən sonra isə kənd camaatının günü lap qara olur. Üzbaşının arvadının qohumları, öz qohumları bir ucdan həbs edilirlər. O vaxtlar rayon partiya komitəsində işləyən və Üzbaşının arvadının dayısı olan Qasımbala Qasımov Murad müəllim öldürülməmişdən xeyli əvvəl işdən azad edilmiş və bir müddət sonra da həbs olunmuşdu. Artıq o dövrdə Üzbaşı neçə müddət idi ki, qaçaq düşmüşdü və hökumət onu heç cür tuta biməyərək hirsini qohum-qardaşından alırdı. Murad müəllimin ölümündən sonra isə kənddə tuthatut başlayır. Bir-birinin adrınca Kamal, Mirzəkərim və Nəcməddin Qasımovlar da həbs edilirlər. Üzbaşının qızlığının qayınatası Dəmirqaya Əmir oğlu və əri Bəkir, Rəsul Məhərrəmov, Əhməd İsmayıl oğlu və oğlu Məhəmməd, Ağayusif Yusifov, Qulu Hidayət oğlu, Ayəddin Tapılov, Güyümdən Heydər, Daxardan Hacalı da eyni vaxtda həbs edilirlər. Tutulanların böyük əksəriyyəti Üzbaşıyla bağlı həbs edilsələr də onun ölümündən sonra da azad edilmirlər, hərəsinə bir ad qoyaraq iş kəsir və Sibirə göndərirlər.



Ümumilikdə, repressiya illərində əfəndilərlə birlikdə Diyallıdan 27 nəfər həbs edilmiş, onlardan yalnız 4 nəfərinə – Qasımbala müəllimə, Ağayusif müəllimə və Dəmirqaya kişiyə təkrar doğulduqları yurdu görmək nəsib olmuşdur. Çar dövründə kəndin koxası olmuş Əhməd İsmayıl oğlu isə türmədən ağır xəstə olduğuna görə buraxılır və evinə dönəndən bir müddət sonra dünyasını dəyişir.

Bəs kəndlilərinə, qohum-əqrəbasına bu qədər fəlakət gətirən Üzbaşı kim idi? Murad müəllimə, öz kəndinin balalarına elm, savad verən bir insana niyə qıymışdı?

Uşaq vaxtı bu barədə böyüklərdən çox eşitmişdim. Bilirdim ki, Üzbaşı Əbil oğlu kəndin o tayında, Seyidməmmədli məhəlləsində anadan olmuş və qaçaq düşdüyü günədək də burada yaşamışdır. Deyilənlərə görə, bir çörəyə görə öz əmisi oğlunu öldürən Üzbaşı tutulmamaq üçün meşələrə qaçır. Beləliklə, qanun qaçağı olur. Hökumət dəfələrlə əməliyyat keçirsə də Üzbaşını zərərsizləşdirə bilmir, başlayır bir ucdan onun qohum və yerlilərini tutmağa. Elə zənn edirlər ki, belə olsa qaçaq könüllü gəlib təslim olar. Amma... Nəhayət, rayon partiya komitəsi Diyallıdan olan fəal partiyaçıları çağırıb onlara Üzbaşının tutulub təhvil veilməsi tapşırığını və müəyyən vaxt verir. Söhbətin gedişində hamı sussa da Murad müəllim qaçağı tezliklə zərərsizləşdirəcəklərinə söz verir. Və elə bu söz də Murad müəllimin ölüm fərmanına səbəb olur. Heç vaxt yatmayan şeytan söhbəti elə həmin gecə Üzbaşıya çatdırır. Bir neçə gün sonra Babaxan suyundan bir az yuxarıda, indi el arasında "Muradvurulan" kimi tanınan yerdə rayondan qayıdan kənd fəallarının qarşısını kəsən Üzbaşı Murad Məmmədovu güllələyir. Bu hadisədən sonra kənddən daha bir neçə nəfər, o cümlədən pəhləvan cüssəsi, zorlu qolu olan, məhz bu səbəbdən də el arasında "padval" ləqəbi ilə tanınan Zakir Ömər oğlu Əzizovun 24 yaşında olan yeganə oğlu Qurban da həbs edilir. Qurban Zakir oğlunun həbsi Üzbaşının sonunun başlanğıcı olur. Qurbanın nənəsi Gövhər arvad erkək tinətli bir qadın imiş və deyilənlərə görə Üzbaşı bu qadının Yuxarı Diyallıda olan evinə

meşələrə yaxın olduğu üçün ərzaq götürməyə istədiyi vaxt qorxusuz gələrmiş. Lakin nəvəsinin həbsi qadının səbr kasasını doldurur və o, milis rəisinə sifariş göndərir ki, nəvəmin başından bir tük əskik olmamaq şərtilə uzaqbaşı bir həftəyə Üzbaşının ya dirisi, ya ölüsü ilə dəyişirəm. Rayonda bu vədə elə inanmasalar da şərtə əməl edib gözləyirlər. Amma kəndin partiya fəallarından olan Xanlar Həsənovu və Əli Məmmədovu da raykoma çağırıb onlara vəziyyəti bildirir və qəti tədbir görmələrini tapşırırlar. Bütün bunlardan xəbərsiz olan Üzbaşını evinə, axşam çörəyinə çağıran Gövhər arvad onun heç vaxt özündən ayırmadığı beşatılanını baxmaq bəhanəsi ilə yanından götürür, bilir ki, silahlı Üzbaşıya kimsə bata bilməz. Səhərin ala-toranından gəlib yük yerində və həyətdə gizlənmiş Əli, Xanlar, Zakir və daha bir neçə nəfər beşatılanın arvadın əlində olduğunu görən kimi özlərini içəri atırlar. Bir-birinin ardınca ona yaxın güllə atılır...

Ertəsi gün Üzbaşının meyitini rayona – şöbəyə gətirən arabayla Qurban kəndə qayıdır.

***Haşiyə.*** Ancaq nə mənəm-mənəm deyən Gövhər arvad, nə də enli kürəklərini oğlunun qarşısına sipər edən Zakir kişi Qurbanı növbəti faciədən qurtara bilmir: İknci Dünya müharibəsinə çağırılan Qurbanın bir müddət sonra "qara kağız"ı gəlir. Zakir kişi qalan ömrünü balasının iki yadigarına - 1938-ci ildə anadan olmuş Əzizə və ondan cəmi iki yaş kiçik olan Beydiyə həsr etməklə təsəlli tapır.

Biz uşaq olanda bu Üzbaşı əhvalatı bir qorxulu nağıl, bir rəvayət kimi söylənərdi və bu dedikələrim də o vaxtdan yaddaşımda ilişib qalanlardır. Bəlkə də dəqiq bilmədiyim məlumatlar da var. Yaddaşımı təzələmək və həm də bu barədə daha geniş söz aça bilmək məqsədilə əlavə məlumat üçün kənddə çoxlarına müraciət etdim, ancaq... əlavə öyrəndiyim bir bu oldu ki, aradan 70 ilə yaxın bir vaxt keçməsinə baxmayaraq, o qorxulu nağıl bu gün də qorxulu olaraq qalır. Bu kənddə hələ də bir Üzbaşı xofu dolaşır, ürəklərdə hələ də Üzbaşı qorxusu var. Və bu xof, bu qorxu danışan dilləri elə susdurub ki, mən çarəsiz öz bildiklərimlə kifayətlənəsi oldum, səhv, ya düz.



L.Həsənlidən sonra xeyli vaxt Diyallı məktəbinə yazıçı Cahangir Gözəlov rəhbərlik edir. Yazıçı bu kəndlə bağlı günlərinin yaradıcılığında böyük rol oynadığını xatirələrində dönə-dönə qeyd etmişdir. C.Gözəlov bu gün də uşaqların həvəslə oxuduqları "Güllünün çayı" hekayəsini Diyallıda işləyərkən qələmə almışdır. Onun direktor işlədiyi dövrdə Diyallı yeddiillik məktəbi orta məktəbə çevrilir. Lakin İkinci dünya müharibəsi başlanır, müəllimlərin bir çoxu müharibəyə gedir, maliyyə vəsaiti çatışmır. Belə olan halda məcburən VIII, IX və X siniflərdə pullu təhsilə keçilir. Tələt Yusifovun xatırladığına görə, təhsil haqqı 150 manat imiş. Lakin valideynlərin bu pulu ödəməyə imkanları çatmadığı üçün təkrar yeddiillik təhsilə qayıdılır. IX və X siniflərdə oxumuş əlaçı şagirdlərin hamısı səfərbər edilərək oxuduqları məktəbdə və ətraf kəndlərdə müharibəyə getmiş müəllimlərin yerinə müəllim təyin edilirlər. Kimya Orucova, Nahidə Abdullayeva, Hafizə Qasımova, Tələt Yusifov, Qərib Qədirov, Ziyad Surxayev və onlarla digər Diyallı balası ta Vaşaya kimi bir sıra kəndlərə paylanırlar. Əfəndilər dövrünün ənənəsi davam edir.

İkinci dünya müharibəsi Diyallı üçün də ağır keçir. Kolxozda, evlərdə nə var idisə cəbhəyə göndərilirdi: "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı bu balaca kənddə də meydan sulayırdı. Kişilər cəbhəyə getdiyindən bütün ağırlıq qadınların üzərinə düşür. Ot biçir, yer şumlayıb taxıl əkir, haradan var, necə var başsız qalmış ailəni, balalarını dolandırırdılar. Elə həftə olmurdu ki, kəndə "qara kağız" gəlməsin. Ümumiyyətlə, Diyallıdan 119 nəfər döyüşən orduya çağrılır və onlardan yalnız 59-na qələbə gününü görmək, salamat geri dönmək nəsib olur.

İstər müharibə illərində, istərsə də aclığın, qıtlığın daha çox tüğyan etdiyi sonrakı illərdə kəndin camaatı ümidsizliyə qapılmır. "Qəm qəm gətirər, dəm dəm" məsəlini tez-tez xatırlayan ağsaqqallar ruh düşkünlüyünü nə özlərinə, nə də onlara qulaq asan kiçiklərə yaxın qoymurlar. Yaşlıların xatırladığına görə, müharibədən əvvəl, xüsusilə müharibə

dövründə və sonrakı illərdə diyallılar dəstə-dəstə hər axşam bir evə yığışar, dastan deyər, nağıl söyləyər, olub keçənləri xatırlayar, dərdi özlərindən uzaq tutmağa çalışarmışlar. Məhz həmin illərdə Diyallıda ayrı-ayrı adamlara ləqəb vermək də yaman dəb olub, ancaq kimsə bundan incinməyib. Bu "ləqəb kampaniyasını" Məhəmməd Əzizov başlayıbmış və kənddə ləqəbsiz kişi buraxmayıbmış. Deyilənə görə, bir gün qardaşı Səfər bu məsələdən xəbər tutur və Məhəmmədi möhkəm danlayır. Ertəsi gün günorta olmamış bütün kənd Səfərin ləqəbindən danışır: danqaz Səfər. Beləcə, kim nə edir-etsin Məhəmmədin ləqəblərindən gen dura bilmir. Hərəyə bir ayama yapışdırır: keçi, dovşan, tülkü, pişik, qarğa, qırğı, quqqu, kuru və sair və ilaxır. Özünə isə nədənsə, "şair" ləqəbini layiq görür və yaşlıların, onu xatırlayanların yaddaşlarında da elə şair Məhəmməd kimi qalır.

Kənd camaatı bir gözü gülər, bir gözü ağlar, müharibəyə yola saldıqları əzizlərini gözləyə-gözləyə çalışır, işləyir, bir təhər keçinib gedirdi. Kəndin demək olar əksər əhalisi kolxozda işləyirdi. Yavaş-yavaş kənd müharibənin yaralarını sağaldır, həyat öz axarına düşür. Cahangir Gözəlovdan sonra qazaxlı Həmid müəllim, sonra isə kəndin özündən olan Saleh Məmmədov və Dünyamalı Hacıyev məktəbə rəhbərlik edirlər. Əllinci illərin ortalarından başlayaraq bütün ölkədə məktəblər tədricən ali təhsilli kadrlarla təmin edilir, orta təhsilə keçilir.

1954-cü ildə Diyallıda da orta məktəb açılır, Təzəkənddən olan ali təhsilli müəllim Balaməmməd Ağayev bu orta məktəbin ilk direktoru olur. Beləliklə, orta təhsil almaq üçün rayona – Stalin adına İsmayıllı məktəbinə gələn Diyallı balaları artıq öz kəndlərində oxumağa başlayırlar. Ətraf kəndlərdən- Talıstan, Təzəkənd, Qoşakənd, Ağbulaq, Yeniyol, Qərsələ və bir sıra digər kəndlərdən də onlarla uşaq orta təhsil almaq üçün buraya gəlir. Gediş-gəlişin çətin olduğunu görən B. Ağayev məktəbin nəzdində internat açmaq təşəbbüsü qaldırır və bu təşəbbüs müsbət qarşılanır.



Əfəndilər həbs edildikdən sonra onların ailə üzvləri də kənddən didərgin düşmüşdülər və əfəndilərə məxsus evlər boş qalmışdı. Hökumət həmin evləri internat açmaq üçün məktəbə verir. B.Ağayev müəllimlərin, xüsusilə Ağakişi Məmmədovun yaxından iştirakı ilə buranı təmir etdirir. Əfəndilərin bir neçə



**Balaməmməd Ağayev şagirdlərlə birlikdə. 1958-ci il**

otaqdan ibarət evlərində həm internat açılır, həm ibtidai siniflər və məktəb kitabxanası yerləşdirilir, həm də fizika kabineti yaradılır.

1957-ci ildə Diyallı kənd orta məktəbinin ilk buraxılışı olur və 27 nəfərə attestat verilir. Bu, kənddə əsil bayrama çevrilir.

1959-cu ildə Diyallıdakı Cavanşir adına kolxozla Təzəkənddəki "1 may" kolxozu, habelə Qoşakənd birləşdirilərək Cavanşir adına birləşmiş təsərrüfat yaradılır. Güyüm kəndindən olan İslam Məmmədov birləşmiş kolxozun sədri olur. 1961-ci ildə isə bu kolxosa repressiya qurbanı olmuş, 8 il günahsız yerə Sibirdə cəza çəkmiş Qasımbala Qasımov sədr təyin edilir.



**Diyallı kənd orta məktəbinin birinci buraxılışı (1956-57-ci illər) Şəkil bu buraxılışın məzunları olmuş Ərkinaz və Zinhar Şərifovların ailə albomundan götürülmüşdür.**



Birləşmiş Sovetliyin katibi də Diyallıdan idi: Soltan Alıyev. 1964-cü ildə Diyallı təkrar müstəqil kolxoz olur. Diyallı,Sədiyan,Güyüm və Yuxarı Diyallı kəndlərini əhatə edən bu kolxoza böyük şair Səməd Vurğunun adı verilir. 1974-cü ilə kimi kolxoza Q.Qasımov rəhbərlik edir. İşlədiyi dövrdə çox işlər görən Qasımbala müəllim 1969-70-ci illərdə dağların ətəyindən – Həzrət çayının mənbəyindən kəndə su da çəkdirir. Tarix boyu çaydan, bulaqdan su daşıyan insanlara, habelə yaranışdan axar suya həsrət olan kədin günçıxarına – O taya bu, əvəzsiz töhfə olur. Kənd camaatının böyük əksəriyyəti bu gün də həmin sudan istifadə edir və Qasımbala müəllimi rəhmətlə xatırlayır. O illərdə kolxozun vəsaiti hesabına məktəb üçün əlavə sinif otaqları da tikilir.

İşlədiyi dövrdə dəfələrlə kənd və rayon sovetinin deputatı seçilmiş, müxtəlif orden və medallara layiq görülmüş Q.Qasımov sədr olduğu 13 ildə ancaq kənd və camaat üçün çalışıb, nə özünə dəbdəbəli ev tikdirib, nə balalarına sərvət toplayıb.



**S. Vurğun adına sovxozun fəallarından bir qrup.**

Deyilənlərə görə, bir dəfə kənd camaatının mal-qaranı səlnimi buraxıb taxıl sahələrini yedirtməsindən rəhmətlik çox bərk əsəbiləşir. Söyür-söylənir, axırda sakitcə qayıdir ki, ay camaat, vallah, nə edirəmsə, nə deyirəmsə sizin üçün edirəm,

sizin üçün deyirəm, mənə nə var ki, bir arvaddı onu da peçenye ilə saxlayaram. Qasımbala müəllim belə Qasımbala müəllim idi, elə yaddaşlarda da beləcə qalıb.

Görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə bütün respublikada olduğu kimi, Diyallıda da çox işlər görülür. Məktəb 640 yerlik müasir tipli binaya köçürülür. Geniş mədəniyyət sarayı, rabitə qovşağı, kənd soveti üçün yeni bina da o illərdə ünvan tapır. Ümumuyyətlə, ötən əsrin 70-80-ci illəri bütün Azərbaycanda olduğu kimi, Diyallıda da yüksəliş və irəliləyiş on illikləri olur. Həmin dövrdə kənddə üzümçülüyün bünövrəsi qoyulur və qısa vaxtda geniş inkişaf etdirilir.

Üzümçülük çox gəlirli olur və kənd camaatının rifah halı xeyli yaxşılaşır. Bu dövrdə kənddə ictimai binalarla yanaşı çox sayda yeni və müasir tipli yaşayış evləri də tikilir. Kənddəki tikintilərdə əllərinin izi qalan daş və ağac ustaları Əvəzalı Əliyevin, Əlabbas Məmmədovun, İbrahımhaqqı Qasımovun, Kərəm, Səftər və Məcid Əliyevlərin, Əlibəy Qinyətovun o illərdə heç boş vaxtları olmazdı. Həmin dövrdə kənddə şəxsi maşınların da sayı artır. Ümumiyyətlə, Diyallı camaatı o illərdə xeyli varlanır. Sonralar kompaniyaçılığa qoşulan diyallılar da heç düşünmədən son dərəcə gəlirli olan üzümçülüyü ləğv edirlər.

1983-84-cü illərdə Diyallıya təbii qaz çəkilir və qısa vaxtda Diyallı, Güyüm, Sədiyan və Yuxarı Diyallıdakı bütün evlər qazlaşdırılır. Təəssüf ki, böyük zəhmət və xərc bahasına çəkilmiş bu rahat yanacaqdan diyallılar doxsanıncı illərin əvvəllərindən bu yana tamam məhrum olmuş və yenidən meşələrə üz tutmuşlar.

Yetmiş-səksəninci illərdə Diyallı maarifinin uğurları da az olmur. O dövrdə hər il orta məktəbi bitirən Diyallı balalarından ən azı 5-6 nəfəri ali məktəblərə qəbul olunardı. Bu məktəbin yetirmələri olan Xuraman Əliyeva, Mədinə Qədimova və Bədəl İsmayılov ali məktəbə qəbul zamanı yüksək bal topladıqlarına görə oxumaq üçün Moskvaya – İttifaqın ən yaxşı ali məktəblərinə göndərilmişdilər. Həmin illərdə Diyallı məktəbinin



belə uğurları çox olmuşdur. Bu uğurların qazanılması təbii ki, o illərdə Diyallı məktəbində çalışan və hər biri bir məktəb olan savadlı, işə can yandıran, məsuliyyət hiss edən, öz kəndinin şərəfini qoruyan təcrübəli müəllimlərin və bacarıqlı direktorların sayəsində mümkün olmuşdu. İbtidai sinif müəllimlərindən Ağakişi Məmmədov, Güllər Bağırova, Cəfəralı Məmmədov, Əhmədalı Göyüşov, Hacı Qasımov, fənn müəllimlərindən Ziyad Əliyev, Tələt Yusifov, Soltanhəmid Səlimov, Əsədulla Pənahov, Hacıbaba Abdullayev, Nəjdət Abdullayev, İsmayıl İsmayılov, Nəzirə Məmmədova, Mikayıl Şıxıyev, Rizvan Rzayev və adını çəkə bilmədiyim onlarla



**Diyallı kənd orta məktəbinin müəllimlərindən (şəkildə, birinci sırada soldan) Əhmədalı Göyüşov, Əhməd Əhmədov, Rizvan Rzayev, Mikayıl Şıxıyev, Ağakişi Məmmədov, (ikinci sıradan soldan) Soltanhəmid Səlimov, Abdulbağı Əzizov, Ziyad Əliyev, Nəydət Abdullayev, Əsədulla Pənahov, Güldəstə İsrayılova, Musa Məmmədov və Güllər Bağırova.**

müəllim o illərdə bu məktəbi şöhrətləndirmiş, onu əfəndilər dövründə olduğu kimi rayonda ən nümunəvi və qabaqcıl

sizin üçün deyirəm, mənə nə var ki, bir arvaddı onu da peçenye ilə saxlayaram. Qasımbala müəllim belə Qasımbala müəllim idi, elə yaddaşlarda da beləcə qalıb.

Görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə bütün respublikada olduğu kimi, Diyallıda da çox işlər görülür. Məktəb 640 yerlik müasir tipli binaya köçürülür. Geniş mədəniyyət sarayı, rabitə qovşağı, kənd soveti üçün yeni bina da o illərdə ünvan tapır. Ümumuyyətlə, ötən əsrin 70-80-ci illəri bütün Azərbaycanda olduğu kimi, Diyallıda da yüksəliş və irəliləyiş on illikləri olur. Həmin dövrdə kənddə üzümçülüyün bünövrəsi qoyulur və qısa vaxtda geniş inkişaf etdirilir.

Üzümçülük çox gəlirli olur və kənd camaatının rifah halı xeyli yaxşılaşır. Bu dövrdə kənddə ictimai binalarla yanaşı çox sayda yeni və müasir tipli yaşayış evləri də tikilir. Kənddəki tikintilərdə əllərinin izi qalan daş və ağac ustaları Əvəzalı Əliyevin, Əlabbas Məmmədovun, İbrahımhaqqı Qasımovun, Kərəm, Səftər və Məcid Əliyevlərin, Əlibəy Qinyətovun o illərdə heç boş vaxtları olmazdı. Həmin dövrdə kənddə şəxsi maşınların da sayı artır. Ümumiyyətlə, Diyallı camaatı o illərdə xeyli varlanır. Sonralar kompaniyaçılığa qoşulan diyallılar da heç düşünmədən son dərəcə gəlirli olan üzümçülüyü ləğv edirlər.

1983-84-cü illərdə Diyallıya təbii qaz çəkilir və qısa vaxtda Diyallı, Güyüm, Sədiyan və Yuxarı Diyallıdakı bütün evlər qazlaşdırılır. Təəssüf ki, böyük zəhmət və xərc bahasına çəkilmiş bu rahat yanacaqdan diyallılar doxsanıncı illərin əvvəllərindən bu yana tamam məhrum olmuş və yenidən meşələrə üz tutmuşlar.

Yetmiş-səksəninci illərdə Diyallı maarifinin uğurları da az olmur. O dövrdə hər il orta məktəbi bitirən Diyallı balalarından ən azı 5-6 nəfəri ali məktəblərə qəbul olunardı. Bu məktəbin yetirmələri olan Xuraman Əliyeva, Mədinə Qədimova və Bədəl İsmayılov ali məktəbə qəbul zamanı yüksək bal topladıqlarına görə oxumaq üçün Moskvaya – İttifaqın ən yaxşı ali məktəblərinə göndərilmişdilər. Həmin illərdə Diyallı məktəbinin



belə uğurları çox olmuşdur. Bu uğurların qazanılması təbii ki, o illərdə Diyallı məktəbində çalışan və hər biri bir məktəb olan savadlı, işə can yandıran, məsuliyyət hiss edən, öz kəndinin şərəfini qoruyan təcrübəli müəllimlərin və bacarıqlı direktorların sayəsində mümkün olmuşdu. İbtidai sinif müəllimlərindən Ağakişi Məmmədov, Güllər Bağırova, Cəfəralı Məmmədov, Əhmədalı Göyüşov, Hacı Qasımov, fənn müəllimlərindən Ziyad Əliyev, Tələt Yusifov, Soltanhəmid Səlimov, Əsədulla Pənahov, Hacıbaba Abdullayev, Nəjdət Abdullayev, İsmayıl İsmayılov, Nəzirə Məmmədova, Mikayıl Şıxıyev, Rizvan Rzayev və adını çəkə bilmədiyim onlarla



**Diyallı kənd orta məktəbinin müəllimlərindən (şəkildə, birinci sırada soldan) Əhmədalı Göyüşov, Əhməd Əhmədov, Rizvan Rzayev, Mikayıl Şıxıyev, Ağakişi Məmmədov, (ikinci sıradan soldan) Soltanhəmid Səlimov, Abdulbağı Əzizov, Ziyad Əliyev, Nəydət Abdullayev, Əsədulla Pənahov, Güldəstə İsrayılova, Musa Məmmədov və Güllər Bağırova.**

müəllim o illərdə bu məktəbi şöhrətləndirmiş, onu əfəndilər dövründə olduğu kimi rayonda ən nümunəvi və qabaqcıl

məktəblərdən birinə çevirmişdilər. Sonrakı illərdə bu müəllimlərin sırasına özlərinə layiq yetirmələri – İsgəndər Ömərov, Oqtay və Sürmə Fərzəliyevlər, Şövkət İsmayılova, Məlahət Həsənova, Abdulhəmid Yusifov, Şahbikə Əkbərova və daha kimlər, kimlər qoşulur. Onlarla Diyallı balası isə yenə rayonun başqa kəndlərindəki məktəblərə təyinat alır və bu gün də o məktəblərdə dərs deyirlər.



**Diyallı məktəbinin müəllimlərindən Nəzirə Məmmədova və Güldəstə İsrayılova şagirdlərlə birlikdə. ( 1968-ci il).**

Sonrakı onilliklərdə hər yerdə olduğu kimi, Diyallıda da bir durğunluq hökm sürür. Bir yandan birinci Qarabağ savaşı, digər yandan keçid dövrünün və müstəqillik əldə etmiş Azərbaycanın çətinlikləri xeyli problemlər yaradır. Diyallı və diyallılar həm Qarabağ savaşında, həm Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizədə yaxından iştirak edirlər. O illərin meydan hərəkatında Diyallı təkcə canlı qüvvə ilə təmsil olunmur, həm də kənddən oturaq mitinq keçirənlərə, habelə cəbhədə döyüşən əsgərlərə, qospitallara mütəmadi olaraq ərzaq payı göndərilir.



Rus imperiyası bir əsrdə ikinci dəfə müstəqillik qazanmış Azərbaycanımızı 1920-ci ildə olduğu kimi yenə işğal etmək niyyəti ilə 1990-cı ilin yanvar ayında Bakıya hücum etdi. Müstəqil Azərbaycan naminə, Qarabağ naminə, SSRİ adlı imperiyanın Azərbaycanda və Qarabağda yeritdiyi işğalçı siyasətə etiraz edərək küçələrə çıxmış dinc, əliyalın insanları tanklarla əzib keçdi. Amma müstəqillik bir əsrdə ikinci dəfə təkrarlansa da, Azərbaycanın ikinci dəfə işğalı mərd oğullarımız sayəsində mümkün olmadı, ölkə öz müstəqilliyini qoruyub saxlaya bildi. Bu hadisələrdə iştirak etmiş Diyallı oğullarından Əlizadə Səmədov həmin o 20 yanvar gecəsi ağır yaralanaraq sağlamlığını itirmiş və əlil olmuşdur. Azərbaycanın 20 faiz ərazisinin işğalı ilə nəticələnən Birinci Qarabağ savaşında da həmkəndlilərimiz mərdliklə döyüşmüşlər. Bu müharibədə Diyallı 6 şəhid vermiş, 2 övladı əlil olmuşdur. Ancaq Vətən yolunda, müstəqillik yolunda tökülən hər damla qan müqəddəsdir, şərəflidir: Vətənin özü kimi, müstəqillik kimi.

Diyallılar əvvəlki müharibələr dövründə olduğu kimi, o ağır illərdə də inamla yaşamış, işləmiş, hətta tikib qurmuşlar da.

XX əsrin səkkizinci on illiyinin sonlarında kəndin o tayında baş verən torpaq çökməsi nəticəsində Hacı Məcid əfəndinin təşəbbüsü ilə tikilmiş məscid binası da yararsız hala düşmüşdü. Kənd dini icmasının sədri Hacı Hikmət Əhmədovun və Diyallı kənd dini icmasının təşəbbüsü ilə 1997-ci ildə kənddə yeni məscid binası tikilir. Bu binada məscid və mədrəsə olmaqla 3 otaq vardır. Ədliyyə nazirliyi və Qafqaz müsəlmanları idarəsi tərəfindən qeydiyyata alınmış yeni məscidin imamı Hacı Hikmət Əlövsət oğlu olur.

2003-cü ildə Həzrət çayının üzərində piyadalar və minik maşınları üçün körpü salınır. Sovet dövründə köhnə məscidin yanından o taya körpü salmaq məqsədilə müxtəlif ölçülü beton plitələr gətirilsə də iş yarımçıq qalmış, körpü tikilməmişdi. Ta qədimdən yaz-yay aylarında Həzrət çayı coşub-daşar, gediş-gəlişi çətinləşdirərdi. Kəndin sakini Səfər Əziz oğlunun Həzrət çayının sel sularında həlak olmasını kənd camaatı bu gün də

yaxşı xatırlayır. Məhz elə bu səbəbdən də çayda suyun səviyyəsi azacıq qalxan kimi o taydakı o tayda, bu taydakı da bu yanda dayanıb səbrlə suyun azalmasını gözləyər, həyatı ilə risk etməzdi. Bu körpünün salınması Diyallının yuxarı hissəsinin günçıxarında, habelə Sədiyan və Yuxarı Diyallıda yaşayanların istənilən hava şəraitində gediş-gəlişini qorxusuz etmişdir.

Məlumat üçün onu da deyək ki, S.Vurğun adına təsərrüfata sonralar uzun müddət Bağı Məhərrəmov və Balaməmməd Göyüşov, məktəbə isə Əhməd Əhmədov, Hacıbaba Abdullayev, Məlahət Həsənova, Fizuli Şəfaqətov, İsgəndər Ömərov, Hafiz Hacıyev rəhbərlik etmişlər. Hazırda 50 nəfər müəllimi, 500-ə yaxın şagirdi olan və şəhid Aqil Məmmədovun adını daşıyan Diyallı məktəbinin direktoru təcrübəli pedaqoq Vaqif Səbzəliyevdir.

Daha kolxoz da yoxdur, torpaq yenidən kəndlilərə paylanmışdır. İndi kəndi icra nümayəndəliyi və yerli bələdiyyə idarə edir. Hər iki vəzifəni kəndin öz yetirmələri tuturlar: Almarə xanım Rüstəmova və Əliyusif Abışov.

Diyallılar ən yaxşı kolxoz sədri kimi Qasımbala Qasımovun, ən yaxşı məktəb direktoru kimi Balaməmməd Ağayevin, Əhməd Əhmədovun və Fizuli Şəfaqətovun adını böyük hörmət və ehtiramla çəkirlər. Bu günkü gənclərin işinə də yəqin ki, sabah qiymət veriləcək. Yaxşı, ya pis - bunu zaman göstərəcək.

Bu gün Diyalli icra nümayəndəliyində, bələdiyyədə, habelə nümayəndəlikdəki hər üç məktəbdə çalışanların hamısı Diyallı məktəbinin yetirmələridir. Bu müəllim ordusunun yetişməsində Süleyman əfəndinin oğlu, uzun illər V.İ.Lenin adına APİ-nin rektoru işləmiş profeşşor Şövqi Ağayevin böyük zəhmətini qeyd etməmək haqsızlıq olardı. Danılmaz faktdır ki, onun rəhbərliyi dövründə İsmayıllıdan, Diyallıdan onlarla gənc bu institutda öz biliklərinin gücü ilə, heç bir təmənna olmadan rahatlıqla oxuyub ali təhsil ala bilmişlər. Şövqi müəllim onların hər birinə mənəvi ata, mənəvi dəstək olmuşdur.

Kimya elmləri doktoru Bəxtiyar Məmmədov, iqtisad elmləri namizədləri Mirabbas Məmmədov, Azad Əliyev, Dilşad



Əliyeva, filologiya elmləri namizədi Zabit Məmmədov, kimya elmləri namizədi Gülputa Şəfaqətova, uzun illər Azərbaycanın müxtəlif rayonlarında hərbi komissar işləmiş Vidadi Abdullayev, gözəl həkim Abdullətif Maqsudov, "Muğan" Bankın İsmayıllı filialının müdiri Rafael Allahverdiyev, İsmayıllı rayon mədəniyyət şöbəsinin müdiri Eldar Səbzəliyev, Müdafiə nazirliyinin əməkdaşı Azər Əliyev və onlarla adını çəkə bilmədiyimiz ziyalımız da Diyallı məktəbinin, Diyallı torpağının yetirməsidir.

Ərazisinin o qədər də böyük olmamasına baxmayaraq, Diyallıda xeyli faydalı qazıntı yataqları da vardır.

Böyük Azərbaycan şairi Səməd Vurğun 1936-cı ildə İsmayıllıya gələrkən Diyallıda da olur. Deyilənə görə, şair kəndi gəzir, yaşlılarla söhbət edir. Qocalardan kimsə qonağa Diyallını əhatələyən dağları göstərib burada olan mərmər və yanar şist barədə məlumat verir. Bu söhbət izsiz ötmür. Sonralar şair "Talıstan" poemasında yazır:

***Yerinin alt qatında,***
***Dəmir də var, altun da...***
***Gəlsin yoldaş mühəndis***
***Bu yerləri gəzək biz.***
***Qızıl, gümüş dəmir, mis***
***Torpaqda pas atmasın***
***Tənbəl-tənbəl yatmasın.***

Və illər sonrası həmin "yoldaş mühəndis "- bu yerlərdə doğulub böyümüş, bu yerlərin hər qarış torpağına, hər daşına, hər qayasına yaxından bələd olan Diyallı balası-mühəndis Əli İbadulla oğlu Pənahov o dağların altında "gizlənən" mərmər yataqlarını kəşf edir. Diyallı ilə Talıstan arasındakı dağda keyfiyyətinə görə nadir sayılan qırmızı mərmər axtarıb tapır və onun yaxından köməkliyi ilə burada karxana açılır. İndi mərmər yataqları qismən istismar olunsa da daş kömür və mişar daşı əsrlər boyu olduğu kimi bu gün də öz tədqiqatçısını, onu

qiymətə mindirəcək Diyallı balasını, onun qiymətini bilən mühəndis oğlunu, əsil sahibini gözləyir. Ötən əsrin əllinci illərində daş kömür yataqlarının öyrənilməsi istiqamətində də bəzi işlər görülmüşdür. Belə ki, kənd camaatının bu gün də "gürcü inginerlər" deyə xatırladığı milliyyətcə gürcü olan geoloqlar 1951-52-ci, sonralar isə 1956-57-ci illərdə kənddə kəşfiyyat işləri aparmışlar. Həmin illərdə geoloji dəstədə fəhlə işləmiş İsmayıllı şəhər sakini Şamil Paşayevin dediyinə görə, kənddə xeyli sayda kəşfiyyat quyusu qazır, partlayışlar edirlər. Diyallının özündə və Sədiyan ətrafında daş kömür yataqları 9-10 metr dərinlikdən çıxsa da, Güyümdə 11 metrlik quyuda bir neçə güclü partlayışdan sonra bu yataqlara yetişmək mümkün olur. Çömçəbulağa gedən yoldan vurulan quyudan isə partlayışdan sonra güclü su çıxmağa başlayır. Ümumiyyətlə, tədqiqatlar göstərir ki, İsmayıllıdakı daş kömür yatağının damarı Diyallıdan başlayır və Girdıman çayını keçərək Maçaxıya qədər gedib çıxır. Yəni kifayət qədər ehtiyat vardır. Lakin sonradan bu daş kömür yataqları niyə işlənmir, niyə daha ətraflı tədqiq olunmur, bilən yoxdur. Şamil kişi deyir ki, geoloqlar Girdimançay sahəsinin istismarının çətin olacağından, habelə Diyallıdakı daş kömür qatının xeyli dərində olmasından çox narahat imişlər. Kəndin yaşlıları isə həmin geoloqlardan başqa bir söz eşitdiklərini deyirlər: Diyallıdakı daş kömür yataqları istifadə üçün tam yetişməyib(?!). Axır ki, ya zəlzələdən, ya vəlvələdən, daş kömür yataqları eləcə, istifadəsiz qalır.

Müalicəvi əhəmiyyətinə görə, respublikada olan kükürdlü sular arasında ilk yerlərdən birini tutan Diyallı Bədosunun suyundan da yenə səmərəli istifadə olunmur. Xatırladaq ki, 1986-cı ildə Diyallı kəndinin aşağısında- mədəniyyət evinin günçıxan tərəfində içməli su üçün artezian quyusu qazılmış, lakin oradan da Bədo suyu – kükürdlü su çıxmışdır. Bu onu göstərir ki, bu kənddə kifayət qədər kükürdlü su ehtiyatı vardır. Tibb elmləri namizədi Hikmət Cəfərovun dediyinə görə, Diyallıdakı Bədo suları (iki bulaq və 1 artezian suyu eyni olmaqla) sulfit (kükürd), hidrokarbonat-xlorid, natrium tərkibli



olub ümumi minerallığı 7,18 q-l-dir. Kükürd birləşmələrinin tərkibi 85-90 mq-l-dir. Bu su balneoloji normalara əsasən müalicəvi sudur. Vannalar şəklində sümük-əzələ-oynaq aparatının, ürək-damar sistemi, dəri və ginekoloji xəstəliklərin müalicəsində çox faydalıdır.

Təbiət Diyallıya hər cür gözəllik bəxş etmişdir. Elə bir ağac, elə bir kol, elə bir gül, elə bir dərman bitkisi yoxdur ki, bizim bu yerlərdə yetişməsin. Hətta yalnız Şuşada bitdiyi güman edilən "Xari bülbül" çiçəyi də hər yaz bizim Diyallıda çiçək açır. Bir vaxtlar düz Sədiyanadək uzanan, son bir neçə ildə isə nadan insanların qazanc yerinə çevirilən meşələrimizdə sarı və qara palıd, vələs, pip, qovaq, dəndə, cökə, fıstıq, ağcaqayın, qarağac, göyrüş, pətək, şam, şabalıd, arçan, lərgə, bir neçə növ söyüd ağacı vardır. Diyallı bağlarında hər cür meyvə ağacı –alma, armud, alça, zoğal, heyva, nar, ərik, üzüm, şaftalı, qoz, fındıq, əncir, əzgil və s. və s. bol məhsul verir. Kənddəki qədim bağlarda, xüsusən Yuxarı Diyallıdakı bağlarda bu gün də çox gözəl armud, alma sortları vardır. Xanarmudu, cireyxan, mirzəmmədcırı, küdü, kürdükü, bostanarmudu, nar armudu, qum armud, qumquma, qara armud, şirvanşahı, sini armudun bir neçə növü-daş sini, mələsini, turşasini, çirfətalı, qara alma, qızıləhmədi alma, qəndisinab, qızgörən, qasmalı, ağ-boz alma və sair. Bu meyvələrin böyük əksəriyyəti artıq "dəbdən" düşüb. Çünki onlar adi meyvə kimi satılmır, qax və ya düzüm kimi qurudularaq satılırdı. İndi isə nə qax qurudan var, nə də düzüm düzüb, təndir qalayan (qax düzümləri adətən təndirin odunda qurudulardı). Elə buna görə də indi bu qədim meyvə sortları yerini elə də dadı-tama olmayan, amma görünüşü müştəti səsləyən "hökumət


Diyallı xari bülbülü

armudu" deyilən meyvələrə verir. Zaman, dəb bəhar ağaclarından da yan keçmir.

Diyallının çəmən və çöllərində, dağ və düzlərində bitən yüzlərlə ot, çiçək isə neçə dərdin dərmanıdır. Bir neçə növ yemişan, çaytikanı, itburnu, böyürtikan, ayıdöşəyi, qanqal, andız, bağayarpağı, baldırqan, ballı və üçyarpaq yonca, boymadərən, qazayağı, qaraqınıq, qatırquyruğu, qırxbuğum, quzuqulağı, quş üzümü, kəklikotu, dəvədabanı, dəmirovotu, əməköməci, həvəcüvə, yemlik, yeralması, gicirtkən, gülxətmi, üzərlik, çobanyastığı, şirinbiyan və sairə illərlə diyallıların işlətdiyi ən qorxusuz, təhlükəsiz dərman olmuşdur.

Yaradan Diyallıya çoxlu bulaq və bir neçə çay da qismət etmişdir. Həzrət və Sirsaq çayları kəndin ən böyük çaylarıdır. Hər ikisinin suyu yaz-yay aylarında artır, bəzən sel gəlir. Və bir çox hallarda bu sel suları çaylara yaxın həyətləri, yolları yuyub aparır. Burada əllidən çox adlı və adsız bulaq da vardır. Lakin son bir neçə ildə Diyallını əhatələyən meşələrə tutulan divan birinci növbədə bu təbiət nemətlərinə öz təsirini göstərir: istər çayların, istər bulaqların suyu ilbəil hiss olunacaq dərəcədə azalır. Sədiyanın üzərindəki çılpaqlapmış dağlara baxanda isə adama elə gəlir ki, təbiət belə "yüngül" qisasla kifayətlənməyəcəkdir. Axı, təbiətin qisası yaman olur, bir az gec, bir az tez.

Güyümlə Talıstan arasındakı yamacın ağacları qırılanda yaşlılar çox etiraz etmişdilər. Çünki bir vaxtlar da bu yamac belə "soyundurulmuş" və az müddət sonra orada güclü torpaq sürüşməsi baş vermişdi. Sonralar həmin ərazi yenidən meşəliklə örtülmüş və torpaq sürüşməsi dayanmışdı. Ancaq kimsə o əhvalatdan nəticə çıxartmadı və yaşlıların etirazını eşitmədi, nəticə isə çox acı oldu: bu gün Güyümdə onlarla ev torpaq sürüşməsi nəticəsində yaşayış üçün yararsız hala düşmüşdür. Və indi hər dəfə çılpaqlaşmış meşələrimizə baxanda bu faciəni xatırlayıram və mənə elə gəlir ki, bu çılpaqlaşmış, neçə yüz illik, bəlkə də min illik dayağını, müvazinətini itirmiş dağlar da çox



gözlətmədən öz qisasını alacaq. Bu qisasın zərbəsi isə ilk öncə bizlərə, biz diyallılara dəyəcək.

Bütün bu çatışmazlıqlara, çətinliklərə baxmayaraq, müstəqil Azərbaycanımızın bu dilbər guşəsi müstəqillik bayrağı altında daha azad, daha rahat nəfəs və dünənindən güc alaraq sabaha inamla addımlayır. Müdrik qocaları, savadlı övladları ilə birlikdə. Ağılla biliyin bir yumruq olduğu yerdə isə həmişə günəş də olur, bərəkət də, xoş gün də.

# DİYALLI TOPONİMLƏRİ

***KƏND ADLARI***

- Diyallı
- Güyüm
- Sədiyan
- Yuxarı Diyallı

***SAHƏ ADLARI***

- Ağa yeri
- Ağarza qovağı
- Ağıl yeri
- Aladalqır
- Alçalıq
- Alma bağı
- Almalıq
- Ananın yeri
- Arvaddoğan
- Aşağı düz
- Aşıralı çəmi
- Baba yeri
- Baba yeri
- Babaxan suyu –Babaxanlı
- Baxış xarmanı
- Bardaquçan
- Baş düz
- Bel–Məhərrəm qələmliyi
- Biçə bulağı
- Bidaxı
- Bidaxı
- Binə yeri-Güləhməd qələmliyi
- Böyük daş – daşboynu
- Böyük heyvalıq
- Cərullah yurdu
- Cırlıq

- Çinarbulaq
- Çuğundur yeri
- Daşçıxan
- Daşlıq
- Dəmirqaya binəsi
- Dəndənlik
- Dərkal
- Donuzqaçan
- Duaverilən
- Dümük qoz
- Eşşəkuçan
- Əcəbşir
- Əfəndi yeri
- Əhməd yeri
- Əhməd yeri
- Əsgər qozu
- Əzgillik(böyük və kiçik)
- Feyzulla çökəyi
- Fərzalı
- Fındıqlıq
- Fırlı palıd
- Fızıllı qovaq
- Gədək batan
- Gədəkbiçənəyi
- Gəray yeri
- Gor qalası
- Güləhməd
- Gülüş yurdu
- Hacı qələmliyi
- Həsən yeri
- Xanarmuduluq
- Xaşa yeri
- Xəlbəkan
- Xəlsə bağı
- Xırda dəndənlik



- İbrahim bağı
- İldırımvuran qovaq
- İsa yeri
- İsbat yeri
- Kamıll kolluğu
- Kələhməd
- Kənd yeri
- Kərtkərt qaya
- Kəsim
- Kiçik Qaranohur
- Kollu örüş (iki yer)
- Kor bulaq
- Kotan şumu
- Kotanavurulan
- Köbər kolluğu
- Köbərüstü
- Köhnə qəbiristan
- Köhnəbağ
- Qalaçıxardan qoz
- Qaraquş
- Qaraman
- Qardurmaz
- Qasanı
- Qazhoppanan daş
- Qazmalar qabağı
- Qızıl işqınlıq
- Qocabəy yeri
- Qoramit
- Qoru
- Qoşa körpü
- Qoşataya
- Qovaqbulaq
- Qulu bağı
- Quzay – Quzey
- Laboratoriya sahəsi

- Ləzgialı biçənəyi
- Məktəb yeri
- Məmmədismayıl qələmliyi
- Məmmədrza çəmi
- Mərmər
- Mirzalı qələmliyi
- Molla bağı
- Möylü çəmi
- Muradvurulan
- Müskürlü yurdu
- Nanıclı heyvalığı
- Nar bağı
- Nəzir qələmliyi
- Nohur qozu
- Orta düz
- Palçıqlı dərə
- Pəllicə
- Pətəklik
- Pir palıd
- Pulçıxan
- Sarı nohur
- Səfəralı qozu
- Səməd yeri
- Sərdivan –Sərdimə
- Sinlik(Sinilik)
- Suvabağı
- Şəmi qələmliyi
- Şərif qələmliyi
- Şıxlı
- Şirəlik
- Şiro
- Tarixli pip
- Tayalıq
- Temir şoru
- Temir yeri



- Uzun aynaq
- Uzun qələmlik
- Üçdənbir
- Vahab bağı
- Vəli yeri
- Yolaltı-qorxan dərə

### *QAYALIQ və TƏPƏLİKLƏR*

- Abdurahman güllüyü
- Ağ qaya (2 yer)
- Ataş döşü
- Böyükdaş
- Çaldaş qaya
- Daşçıxan
- Eşşəkuçan
- Fındıqlı yastan
- Govurqalası
- Güllü təpə (2 yer)
- Kərtkərt qaya
- Kəsimin şişi
- Qızılişqınlıq
- Qızılqaya(2yer)
- Məmmədalı daşı
- Mərmər
- Şirin yamacı
- Yastı dağ

### *DƏRƏLƏR*

- Cəlal çökəyi
- Çökəyin dərəsi
- Əmir dərəsi
- Hallaş
- İtölən

- Ləzgialı biçənəyi
- Məktəb yeri
- Məmmədismayıl qələmliyi
- Məmmədrza çəmi
- Mərmər
- Mirzalı qələmliyi
- Molla bağı
- Möylü çəmi
- Muradvurulan
- Müskürlü yurdu
- Nanıclı heyvalığı
- Nar bağı
- Nəzir qələmliyi
- Nohur qozu
- Orta düz
- Palçıqlı dərə
- Pəllicə
- Pətəklik
- Pir palıd
- Pulçıxan
- Sarı nohur
- Səfəralı qozu
- Səməd yeri
- Sərdivan –Sərdimə
- Sinlik(Sinilik)
- Suvabağı
- Şəmi qələmliyi
- Şərif qələmliyi
- Şıxlı
- Şirəlik
- Şiro
- Tarixli pip
- Tayalıq
- Temir şoru
- Temir yeri



- Uzun aynaq
- Uzun qələmlik
- Üçdənbir
- Vahab bağı
- Vəli yeri
- Yolaltı-qorxan dərə

## *QAYALIQ və TƏPƏLİKLƏR*

- Abdurahman güllüyü
- Ağ qaya (2 yer)
- Ataş döşü
- Böyükdaş
- Çaldaş qaya
- Daşçıxan
- Eşşəkuçan
- Fındıqlı yastan
- Govurqalası
- Güllü təpə (2 yer)
- Kərtkərt qaya
- Kəsimin şişi
- Qızılişqınlıq
- Qızılqaya(2yer)
- Məmmədalı daşı
- Mərmər
- Şirin yamacı
- Yastı dağ

## *DƏRƏLƏR*

- Cəlal çökəyi
- Çökəyin dərəsi
- Əmir dərəsi
- Hallaş
- İtölən

- Qaradərə
- Qorudərə
- Lazgalı
- Məəl dərəsi
- Novdərə
- Sarıdaş
- Şabalıd dərəsi
- Şərif boğazı

*NOHUR və GÖLMƏÇƏLƏR*

- Gədəkbatan
- Xəlləkan
- Kələhməd
- Qamışlı
- Qaraquş
- Qaranohur
- Qarasu
- Sinlik gölü
- Sucaq
- Uzun aynaq
- Zəlinohur

*P İ R L Ə R*

- Acıqlı pir
- Diş piri (3 yer)
- Göz piri
- Hacalı əfəndi
- Qızdırma
- Nənəm Zeynəb
- Pir palıd
- Soltan Şıx İbrahim baba
- Şiro
- Yara piri



- Yel piri (2 yer)
- Yolka

*B U L A Q L A R*

- Ağa bulağı
- Ağbulaq
- Baba bulağı
- Bardaquçan
- Bədov ( 2)
- Biçə bulağı
- Bidaxı bulağı
- Cırlıq bulağı
- Çinar bulaq
- Çömçə bulaq
- Daşbulaq
- Daşlı bulaq
- Dəndənlik bulağı
- Dərəbulaq
- Diş piri bulağı
- Eşşəkuçan bulağı
- Eyyub bulağı
- Fındıqlı bulaq
- Gədəkbatan bulağı
- Gumgum bulağı
- Güləhməd bulağı
- Gülməmməd bulağı
- Gülməşey
- Gülüş bilağı
- Həsən bulağı
- Həsənli
- Kələm bulağı
- Kəsimbulaq
- Korbulaq
- Qarabulaq

- Qarakişi bulağı
- Qararağuşun Daşlı bulağı
- Qarasu
- Qayaaltı
- Qobuarası
- Qoşabulaq
- Qovaq bulaq
- Qurdlu bulaq
- Niftalı bulağı
- Sədiyan bulağı
- Söyüdbulaq
- Şıxlı bulağı
- Şirə
- Tapılbulaq
- Təkbulaq
- Tərsbulaq
- Yurdbulaq (2)
- Zəlinohur bulağı
- Ziyad bulağı

## *Ç A Y L A R*

- Ağsuçay
- Dəstəmazçay
- Əyri çay
- Həzrət çayı
- Quru çay
- Ləkəş
- Mollamahmudlu
- Sirsaq

**Qeyd: Toponimlərin toplanmasında Paşa Məhəmmədismayıl oğlu, Elman Ziyad oğlu, Oqtay Baba oğlu, Çingiz Emin oğlu və Çingiz Ağaverdi oğlu yardımçı olmuşlar.**



# *Son söz əvəzi*

***Payızın zəmisi heç imiş demə,***
***Dəryanın gəmisi köç imiş demə,***
***Heçimi, köçümü indi bilmişəm,***
***İndi bilməyim də gec imiş demə.***
***Musa Yaqub.***

12-13 yaşlarındaydım. Bir gün qoyun otarmaq növbəsi bizim ailədə idi. (Kəndin daimi qoyun otaranı, mal güdəni olmayanda kənd camaatı mal-qarasını, qoyun-keçisini bir yerə qatıb hər gün bir ailə olmaqla növbə ilə otarardılar) Qardaşlarım Azadla Elman qoyunları Yastı dağa qaldırmışdılar. Günorta evdə qalan bacı, qardaşlarımla – Azər, Sədaqət, Xuraman və Lətafətlə birlikdə biz də ora yollandıq, uşaqlara yemək, çay aparırdıq. Özümüzlə top da götürmüşdük, bir xeyli orada ləngiyəcək, qoyunlar günortanın istisində yatışanda birlikdə dağı gəzəcək, top-top oynayacaqdıq. O gün ömrümdə birinci dəfəydi ki, Yastı dağa qalxırdım, balaca bacı, qardaşlarım da elə. Ona görə də böyük maraqla xeyli dağı gəzdik, buradan evimizi, Sədiyanı, Yuxarı Diyallını seyr etdik. Gəzə-gəzə gəlib dağın Günbatan tərəfinə çıxdıq. Buradan kənd, kəndə gələn yol ovuc içi kimi görünürdü, o yolla bir az da aşağı “endim” və birdən... Qarşımda ömrümdə görmədiyim bir mənzərə açılmışdı: geniş, harada bitib-tükəndiyi bilinməyən üfüqlər və haradan gəlib haraya getdiyini bilmədiyim qapqara asfalt yol sanki məni sehrləmişdi. Baxdıqca mənə elə gəlirdi ki, biz bu geniş üfüqlər arxasında görünməz olmuşuq, bu balaca kənddə unudulmuşuq, yaddan çıxmışıq. Getdikcə qəlbimə ağır bir kədər, bir nisgil çöküdü. Və bu kədərin, nisgilin ağırlığı altında uşaqlarla oynamağı da, dağı tamam-kamal gəzməyi də yaddan çıxarıb dizlərimi qucaqlayıb saatlarla o yerləri seyr etdim və mənə elə gəldi ki, dünyanın ən bəxtəvər insanları o geniş